# Xalq qəzeti

Xalqın qəzeti!

№ 15 (30419) 25 yanvar 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


## AŞPA-da Azərbaycanofobiya, ədalətsizlik dözülməz həddə çatdı

# Azərbaycan AŞPA ilə əməkdaşlığını dayandırdı

## Ölkəmizin AŞPA-dakı nümayəndə heyətinin bəyanatı zamanında atılmış addımdır



**Azərbaycan nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığını və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırdı. Nümayəndə heyətimizin üzvləri bununla bağlı bəyanat qəbul etdilər. İndi qurumun Fransanın oyuncağı olan almaniyalı deputat Frank Şvabe kimi ermənipərəstlər və onların əli ilə hərəkətə gətirilən miskinlər sürüsü ölkəmizlə bağlı nə qərar çıxarırlarsa, çıxarsınlar. Erməni sevdalıları, Azərbaycanı, hətta, Avropa Şurasından da uzaqlaşdıra bilərlər. Buyurub iki ayaqlarını bir başmağa çəksinlər! Görək, nə qazanacaqlar! Görək, ermənipərəstlik onlara nə verəcək!**

AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin verdiyi qərar son dərəcə yerində atılmış addımdır. Bu, Avropada hər kəsə dərs olmalıdır. Hər kəs bilməlidir ki, ölkəmizlə oyun oynamaq, haqq səsimizi boğmağa çalışmaq heç bir fayda verməyəcək. Bu əməllərlə Azərbaycana təzyiq göstərmək cəhdləri də həmçinin.

İndi, qoy, nəinki Avropa Şurasının rəhbərliyi, eləcə də bir-biri ilə əlaqəli olan Avropa təsisatlarının rəhbərliyində oturanlar, beyin mərkəzlərinin təmsilçiləri düşünsünlər. Özü də yaxşı-yaxşı. Düşünsünlər ki, ermənipərəstlik yolunda nəyi itirirlər. Bir zəhmət, Azərbaycanın AŞPA-dakı fəaliyyətini dayandırması durumunun formalaşmasında "əməyi" keçənlərin təmsil etdikləri məmləkətləri gələcəkdə hansı aqibətin gözləyəcəyini də götür-qoy etsinlər. İtirən onlar olacaq, Azərbaycan yox! Mübarizə istəyirlərsə, buyursunlar!

*(ardı 3-cü səhifədə)*

# Mirzoyanın anti-sülh "manifesti"

## *Ermənistan konstruktiv mövqedə olmadığını bir daha nümayiş etdirdi*

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın yanvarın 23-də keçirdiyi mətbuat konfransında söylədiklərindən gəlinən iki nəticə var. Birincisi, Ermənistan Azərbaycanla sülh gündəliyinə razı deyil, manipulyativ mövqe tutur, vəziyyəti gərginləşdirməyə, yeni oyun qaydaları qoymağa, fərqli reallıqlar formalaşdırmağa çalışır, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən yayınır. İkincisi, rəsmi İrəvan Rusiya ilə münasibətləri gərginləşdirməkdə və Moskva müstəvisində Azərbaycana qarşı əks mövqe tutmaqda israrlıdır.**

A.Mirzoyanın üzərində dayandığı ilk məqama diqqət yetirək. O, İrəvanın Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatından imzasını geri götürməsinə dair sualı cavablandırır və bildirir ki, guya, Moskva və Bakı həmin razılaşma ilə üzərilərinə düşən öhdəlikləri yerinə yetirməkdən yayınıb. Erməni nazir üçtərəfli Bəyanat xüsusunda bir qədər aşağılayıcı tonda danışmağı da özünə rəva bilir. "Hətta etibarını itirmiş bir şeydən imzanı geri götürmək də çətindir", – deyən A.Mirzoyanın Ermənistanın sözügedən sənədə sadiq qaldığını vurğulamasının heç bir önəmi yoxdur. Çünki İrəvanın üçtərəfli razılaşmaya dəfələrlə xilaf çıxdığı danılmaz gerçəklikdir. Erməni XİN rəhbərinin bildirdikləri fonunda açıqlayacağımız digər məsələlər də İrəvanın qeyri-konstruktiv yanaşmasının növbəti təsdiqi olacaq. Elə isə A.Mirzoyanın açıqladığı üzərində dayandığı növbəti məqama diqqət yetirək.

*(ardı 4-cü səhifədə)*

# İlan ulduz görməsə, ölməz!

## Paşinyanın konstitusiyanı yeniləmək istəyi regiondakı yeni reallıqların ifadəsidir

**Qırx dörd günlük Vətən müharibəsi zamanı "Dəmir yumruğ"un gücünü görən, lokal xarakterli antiterror tədbirləri əsnasında Azərbaycan Ordusunun qüdrətinin və peşəkarlığının daha da artdığına əmin olan baş nazir Nikol Paşinyan, deyəsən, ölkəmizə və Türkiyəyə qarşı ərazi iddialarını qanunvericilik müstəvisindən də yığışdırmaq qərarına gəlib. Hər halda onun Ermənistanın yeni konstitusiyaya ehtiyacının olması barədə səsləndirdiyi fikirlər belə deməyə əsas verir.**



Qeyd edək ki, N.Paşinyan bu barədə yanvarın 19-da Ədliyyə Nazirliyində keçirilən müşavirədə danışıb. Deyib ki, ölkəsinin "demokratik legitimliyinin və yaşarılığının təmin edilməsi üçün" konstitusiya islahatına yox, tamamilə yeni konstitusiyaya ehtiyacı var. Onun sözlərinə görə, yeni konstitusiya yeni geosiyasi və regional şəraitdə Ermənistanı "daha rəqabətli və həyat qabiliyyətli" etməlidir: "Ermənistan Respublikasının xalq tərəfindən səs verilmiş konstitusiyası olmalı və o heç bir şübhəyə yer qoymamalıdır. Bu, onun legitimliyini təsdiqləyən mühüm addım olardı".

*(ardı 5-ci səhifədə)*



# Sağlam rəqabət bolluğa və ucuzluğa yol açır

**Bu ildən ölkəmizdə iqtisadiyyatın dayanıqlılığının və inkişafının təmin olunmasında əsas iqtisadi normativ baza sayılan Rəqabət Məcəlləsinin tətbiqinə başlanılır. Məlum olduğu kimi, Prezident İlham Əliyev 2024-cü il yanvarın 23-də "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə fərman imzalayıb.**

*(ardı 7-ci səhifədə)*

# Sovet hərbçilərinin bölgələrdə törətdiyi qətliamlar

Səhifə ⇨ 8

# "X xəstəliyi" və "qaydasız" IV Dünya müharibəsi




Səhifə ⇨ 11




Səhifə ⇨ 11

# Transxəzər dəhlizində "yaşıl işıq" yanır

# M.C.Əhmədovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Məhərrəm Camal oğlu Əhmədov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 24 yanvar 2024-cü il**

# “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

İsmayılov Dağbəyi Mirzəxan oğlu

**Müşahidə Şurasının üzvləri:**

Əliyev Vüqar Zifər oğlu
Mehrəliyeva Şəfəq Akif qızı
Mikayılova Sevil Əlirazı qızı
Şıxlinskiy Elçin İsmayıl oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 24 yanvar 2024-cü il**

# Azərbaycan–Özbəkistan qardaşlığı daha da möhkəmlənir

**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Özbəkistan Ali Məclisinin Qanunverici Palatası sədrinin birinci müavini Akmal Saidovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



S.Qafarova xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin yüksək səviyyədə olmasından danışıb və qeyd edib ki, xalqlarımız dil, din, tarix, mənəvi cəhətdən oxşardırlar. Qeyd olunub ki, Özbəkistanla Azərbaycan arasında siyasi, iqtisadi, mədəni-humanitar sahələrdə əməkdaşlıq dinamik inkişaf edir.

Spiker parlamentlərarası əməkdaşlığın dərinləşdirilməsi istiqamətində görülən işlərdən söhbət açaraq, qanunverici orqanlar arasında münasibətlərin də yüksək səviyyədə olmasını, hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib. O, işğaldan azad olunmuş Füzuli rayonunda Özbəkistanın tikdiyi məktəbin xalqlarımız və dövlətlərimiz arasındakı doğmalığın bir nümunəsi olduğunu qeyd edib.

Parlamentin Sədri hazırda dünyada mövcud olan ikili standartlardan, bir sıra ölkələrə qarşı ədalətsiz mövqe sərgilənməsindən, bəzi Avropa ölkələrinin və beynəlxalq təşkilatların Azərbaycana qarşı qərəzli münasibətlərindən təəssüfləndiyini bildirib.

Görüşdə, fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar Prezident seçkiləri ilə bağlı fikir mübadiləsi də aparılıb. Milli Məclisin Sədri deyib ki, bu seçkilər Azərbaycanın dövlətçilik tarixində çox mühüm əhəmiyyətə malikdir. Onun sözlərinə görə, Azərbaycanın müasir dövlətçilik tarixində ilk dəfədir ki, seçkilər Azərbaycan ərazilərinin hər yerində, o cümlədən, işğaldan azad olunmuş bütün şəhər və kəndlərimizdə keçiriləcək.

Özbəkistan Ali Məclisinin Qanunverici Palatası sədrinin birinci müavini Akmal Saidov dost ölkələrimiz arasında münasibətlərin daim inkişaf etdiyini vurğulayıb. O, dövlətlərimizin və xalqlarımızın oxşar tarixə malik olduğunu diqqətə çatdıraraq, Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında və inkişafında xalqımızın Ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətlərini qeyd edib və bu siyasətin uğurla davam etdirildiyini bildirib, parlamentlərimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib.

A.Saidov Özbəkistanda ötən il keçirilmiş konstitusiya islahatları zamanı Azərbaycanın 2018-ci ildə bu sahədəki təcrübəsindən istifadə olunduğu barədə fikirlərini bölüşüb, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib.

Qonaq parlamentin Sədrinə Özbəkistan və Azərbaycan alimlərinin birgə əməyinin bəhrəsi olan tarix və mədəniyyət sahələrinə dair kitablar təqdim edib.

***Ə.BƏDƏLOV***
***XQ***

# QMİ sədrinin özbək həmkarı ilə görüşü

**Yanvarın 24-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, şeyxülislam Allahşükür Paşazadə Özbəkistan Müsəlmanları İdarəsinin sədri, müfti Nuriddin Xoliknazarovu qəbul edib.**



Görüşdə şeyxülislam Azərbaycanla Özbəkistan arasında tarixi ənənələrə söykənən dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edib. O, A.Paşazadə Özbəkistan Müsəlmanları İdarəsinin də təmsil olunduğu Türk Dövlətləri Təşkilatı Müsəlman Dini İdarələri Rəhbərləri Şurasının 2022-ci il oktyabrın 20-də Şuşada imzalanan əsasnaməsini tarixi sənəd adlandırıb, qurumun ötən ilin noyabrında Buxaradakı toplantısının təşkilinə görə müfti Nuriddin Xoliknazarova təşəkkürünü bildirib.

Müfti Nuriddin Xoliknazarov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını şeyxülislama çatdırıb. Azərbaycana hər gəlişində böyük inkişafın şahidi olduğunu vurğulayan qonaq ərazi bütövlüyünün təmin edilməsi münasibətilə xalqımızı təbrik edib.

***XQ***

# ATƏT Seçki Müşahidə Missiyası Ədliyyə Nazirliyində





**Yanvarın 24-də ədliyyə nazirinin müavini Toğrul Musayev növbədənkənar prezident seçkiləri ilə əlaqədar ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Seçki Müşahidə Missiyasının rəhbəri Eoqan Mörfi və üzvləri ilə görüşüb.**

Tədbirdə Seçki Müşahidə Missiyasının məqsəd və fəaliyyəti, Azərbaycana səfərinin və keçirdiyi görüşlərin əhəmiyyəti qeyd olunub. Ölkəmizin ilk dəfə bütün ərazilərində keçiriləcək prezident seçkilərində ədliyyə orqanlarının vəzifələri, siyasi partiyaların seçkilərdə iştirakı, onların fəaliyyətinin yeni qanunvericiliyin tələblərinə uyğun qurulması müzakirə edilib.

***XQ***

# Azərbaycan AŞPA-da iştirakını qeyri-müəyyən müddətə dayandırıb

**AŞPA-dan bəzi üzv dövlətləri hədəfə almaq üçün platforma kimi istifadə olunur. Müəyyən qərəzli qruplar AŞPA-nın əsas prinsiplərindən öz dar maraqlarının təmini məqsədilə sui-istifadə edirlər.**

Bu fikirlər Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin bəyanatında yer alıb.

Qeyd edilib ki, qurumda mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib.



# Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin bəyanatı

**Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyəti yanvarın 24-də qurumun iclasında bəyanatla çıxış edib. Bəyanatda deyilir:**



“Azərbaycan Respublikası qürurlu, müstəqil, suveren, demokratik və multikultural bir dövlətdir. Demokratiya bizim şüurlu seçimimizdir və biz 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycanda insan hüquqlarının müdafiəsi və qanunun aliliyinin təmin edilməsi istiqamətində böyük irəliləyişlərə nail olmuşuq.

Avropa Şurası Parlament Assambleyasının əsas məqsədi müxtəlif ölkələrin parlamentariləri arasında qarşılıqlı hörmət və bərabər hüquqlara əsaslanan dialoq üçün platforma olmaqdan ibarətdir.

Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv olanda insan haqlarını və qanunun aliliyini müdafiə etmək məqsədi daşıyan bu təşkilatın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən hərbi təcavüzə və işğala məruz qalması nəticəsində hüquqları pozulmuş yüz minlərlə azərbaycanlının hüquqlarının bərpasında Azərbaycana kömək edəcəyi və beləliklə regionda davamlı sülhün əldə olunması naminə ədalətin öz yerini tutacağı barədə səmimi bir ümid və gözlənti var idi.

2001-ci ildən 2020-ci ilə qədər olan 19 il ərzində AŞPA işğalçı dövlətdən - Ermənistandan Avropa Şurasının əsas dəyər və prinsiplərinə zidd hərəkətlərinə görə cavab verməyi tələb etməyib. Burada söhbət xüsusilə etnik təmizləməyə məruz qalmış azərbaycanlı qaçqın və məcburi köçkünlərin insan haqlarına qarşı açıq-aşkar hörmətsizlikdən gedir.

Azərbaycanın təcavüz, işğal və zorakı separatizm üzərində tarixi Qələbəsindən, ərazi bütövlüyünün və suverenliyinin bərpa olunmasından sonra biz Azərbaycanı ləkələmək, Azərbaycan xalqına uzun müddətdir inkar edilən ədalətin bərpası istiqamətində ölkənin əldə etdiyi nailiyyətlərə kölgə salmaq üçün təşkil olunmuş qarayaxma kampaniyası ilə üz-üzəyik. Təxminən 20 ilə yaxın müddətdə Azərbaycan nümayəndə heyəti erməni işğalının ağır nəticələrini gündəmə gətirərkən bizə deyirdilər ki, AŞPA münaqişə ilə bağlı məsələlərin müzakirəsi üçün düzgün format deyil. İndi isə həmin AŞPA və həmin deputatlar bunun əksini deyir və Azərbaycana hücum etmək üçün heç bir fürsəti əldən vermirlər. Beynəlxalq hüququn selektiv şərhi, dövlətlərin ərazi bütövlüyü və suverenliyi ilə bağlı məsələlərə fərqli yanaşma bu biabırçı təklifin müəlliflərinin rüsvayçı və ikiüzlü xarakterini nümayiş etdirir.

Təəssüf ki, AŞPA-dan bəzi üzv dövlətləri hədəfə almaq üçün platforma kimi istifadə olunur. Müəyyən qərəzli qruplar AŞPA-nın əsas prinsiplərindən öz dar maraqlarının təmini məqsədilə sui-istifadə edirlər. AŞPA-da siyasi korrupsiya, ayrı-seçkilik, etnik və dini nifrət, ikili standartlar, təkəbbürlülük, şovinizm hökm sürən praktikaya çevrilib.

Biz Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin etimadnaməsinə etiraz etmək təşəbbüsünü bu çirkin kampaniyanın tərkib hissəsi kimi dəyərləndiririk. Biz, həmçinin bu təşəbbüsü Azərbaycanda hazırda gedən seçki prosesinə əsassız müdaxiləyə yönəlmiş məqsədyönlü və qəbuledilməz cəhd, ölkəmizdə demokratik təsisatların fəaliyyətinə xələl gətirən məkrli addımların bariz nümunəsi kimi qiymətləndiririk. Nümayəndə heyətimizin etimadnaməsini ratifikasiya etməkdən imtina ilə bağlı təklif bütövlükdə Avropa Şurasının etibarlılığına və qərəzsizliyinə ciddi zərbə olacaq, bunun ciddi və geri dönməz nəticələrinə görə məsuliyyət tamamilə onun təşəbbüskarlarının üzərinə düşəcək.

Dünyada heç kim, o cümlədən bu zalda əyləşənlər Azərbaycanla təhdid və şantaj dili ilə danışa bilməzlər. AŞPA-nın tarixində heç vaxt bu təşkilat özünü belə biabırçı şəkildə aparmayıb.

AŞPA-da mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib”.

Nümayəndə heyəti bəyanatı səsləndirəndən sonra məkanı tərk edib.



# AŞPA-nın Azərbaycan “problemi”: ədalətsizliyin anatomiyası

## II hissə

*“Səmimilik ən yaxşı siyasətdir”*
**Migel de Servantes**

Məntiqsizlik, böhtan və şər siyasi spekulyasiyanın “arqumentləri” kimi Frank Şvabe “əsaslandırması”nda üç məqamı vurğulayır. Birincisi, guya Azərbaycanda çoxlu siyasi məhbus vardır. İkincisi, guya, Azərbaycan Qarabağdan 100 mindən çox insanı zorla qovub. Üçüncüsü, bu iki “fakt” da AŞPA üçün elə də önəmli deyil – əsas odur ki, onun nümayəndələrinə nə Laçın yoluna (o, “dəhliz” terminini işlədir – red.) “səyahət etməyə” imkan veriblər, nə də onları 7 fevral prezident seçkilərini müşahidəyə dəvət ediblər.

Belə görünür ki, AŞPA “siyasi məhbus” və “insanların hüququ” məsələsini əsas saymır, onun üçün özünün nüfuzu, təsir dairəsi və nəzərdə tutduğu siyasi məqsədlər vacibdir. Deməli, qurum insan hüquqları ilə bağlı zəruri hesab etmədiyi məsələdən siyasi nüfuzunu artırmaq üçün faydalanmağa çalışır. Bunun bir adı var – spekulyasiya.

Fikrimizi təsdiqləyən ən tutarlı fakt isə AŞPA-nın artıq otuz ildən çoxdur yurdlarından zorla deportasiya edilmiş azərbaycanlıların taleyi ilə maraqlanmadığıdır (bir sıra rəsmi sənədlərdəki sözdə çağırışdan başqa). Reallıq budur: yüz minlərlə azərbaycanlı həm indiki Ermənistan ərazisindən, həm də Qarabağdan qovulub, qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum duruma düşüb. Otuz ildən çoxdur davam edən məhkumluq bu gün də aktualdır.

Bəli, Qərbi Azərbaycandan olan soydaşlarımız hələ də öz vətənlərinə - Göyçəyə, Zəngəzura və Ermənistanın digər bölgələrinə ayaqlarını belə basa bilmirlər. Bəs bu müddətdə AŞPA da daxil olmaqla, Avropa qurumları onların öz evlərinə qayıtmaları üçün Ermənistandan nə isə tələb ediblərmi?

Laçın yolunu təntənəli şəkildə “dəhliz”, sanki nəfəslik kimi göstərir, lakin həmin “nəfəslik” vasitəsilə azərbaycanlıların öz yurdlarına dönmələri məsələsini heç müzakirə belə etmək istəmirlər. Təsəvvürlərindəki “dəhliz” yalnız ermənilərin və onların havadarlarının Ermənistandan Azərbaycana sərbəst keçməsini təmin etməli olan birtərəfli hərəkət zolağıdır!

Bu tezisi demək üçün çoxlu sayda faktlar var. Elə AŞPA-nın da “faktları” yalnız “ermənilərə onu icazə vermirlər, bunu icazə vermirlər” kimi formal məntiqin çərçivəsini aşmır. Avropa dövlətlərinin (xüsusilə, Fransa və Almaniyanın) bununla bağlı tələblərindən belə qənaət hasil olur ki, “dəhliz” yalnız ermənilər və onların ağaları üçündür. Bu sayaq mükalimələrində çox arxayındırlar. Azərbaycanlılara “dəhliz” məntiqini şamil etməkdən uzaq duranlar Zəngəzur haqqında “Ermənistan ərazisində dəhliz ola bilməz” kimi həyasız bir cümlə işlədirlər.

Bunlarla yanaşı, Fransa və Almaniya başda olmaqla, Aİ üzvləri və Kanada “mülki missiya” adı altında hərbçilərini və kəşfiyyatçılarını Ermənistan tərəfdən Azərbaycan sərhədini və daxili ərazini müşahidə etmək üçün göndərir. Budur, “demokratik vasitəçilik” nümunəsi? Bunlardır, “insan haqları”, “siyasi məhbus” kimi təntənəli terminlərin məzmununu formalaşdıran davranışlar?

Belə süni davranan, işğalçıya hər mənada arxa olan və mövcud fonda Azərbaycan dövlətinin və vətəndaşlarının ən təbii hüquqların belə gözardı edən bir qurumu hansı əsasla seçkiyə müşahidəçi kimi buraxmaq olar? Burada demokratik dəyərləri heçə saymaqdan söhbət gedə bilməz. Gün kimi aydındır ki, AŞPA müşahidəçiləri həqiqəti deyil, Azərbaycanı ləkələmək üçün uyduracaqları “seçki faktları”nı yaymağa çalışacaqlar. Onlar, ümumən, postsovet məkanı ölkələrinə münasibətdə həmişə ayrı-seçkilik ediblər. Bununla bağlı tutarlı faktlar var.

### Fridrix Ebert Fondu və onun prezidenti

2014-cü ildə Avropa Parlamentinin o dövrdəki sədri Martin Şults (Almaniya) Ukraynadakı siyasi vəziyyətə aktiv müdaxilə etmişdi. O, indi Fridrix Ebert Fondunun prezidentidir. Bu təşkilat Almaniyanın 1919-1925-ci illərdə prezidenti olmuş və I Dünya müharibəsini alovlandıran siyasətçilərdəndir. Onun adına yaradılmış fond müxtəlif psotsovet ölkələrində fərqli işlər görür. Məsələn, 2022-ci ildən Rusiyada qurumun fəaliyyətinin qadağan edilməsi səbəbində diqqət yetirək. Fond gəncləri antirusiya əhval-ruhiyyəsinə sürükləyirmiş. Müharibəyə qarşı mübarizə aparmaq adı altında Rusiyada həlak olmuş faşistləri reabilitasiya etməyə cəhdlər göstərirmiş. Hətta, bir rus məktəblini Avropaya Rusiyanı ittiham müstəvisində həlak olmuş hansısa alman əsgəri ilə bağlı müzakirələrə aparıbmış.

### “Yardımsevər” Şvabe

Və bütün bu işlərdə fəal iştirak edənlərdən biri... Frank Şvabedir. Bu şəxsin siyasi karyerası Sosial-Demokrat Partiyası ilə bağlıdır. O, 2014-cü ildən Almaniya Sosial-Demokrat Partiyasında insan hüquqları və humanitar yardımlar üzrə fraksiyanın spikeridir. Bundan başqa, F.Şvabe AŞPA-da “Sosialistlər, demokratlar və yaşıllar” qrupuna başçılıq edir. 2012-ci ildə Fridrix Ebert Fondunun dəvəti ilə Moskvada “iqlim syasəti”nə həsr edilmiş tədbirə qatılıb. Lakin fəaliyyəti bununla məhdudlaşmayıb. O, az əvvəl haqqında söz açdığımız rusiyalı məktəblinin bir alman əsgərinin həlak olması kontekstində Avropada təxribat xarakterli çıxışının təşkilində də əsas rol oynayıb.

Şvabe 2018-ci ildən AŞPA-da monitorinq, insan hüquqları, miqrasiya, qaçqınlar üzrə komitələrin üzvüdür. O, 2022-ci ildə Rusiya ordusunun fərarilərini, jurnalistləri və hüquq müdafiəçilərini tezliklə Almaniyada “hərtərəfli müdafiəyə” alacaqlarını vəd etmişdi. Və bu şəxsin Azərbaycanla bağlı məlum son bəyanatı var.

Belə görünür ki, F.Şvabenin tərəfsiz olaraq insan haqlarını və hüquqlarını, qaçqınları, məcburi köçkünləri, miqrantları müdafiə etmək üçün, kifayət qədər, imkanları mövcuddur. Ancaq o, xüsusi seçim əsasında hərəkət edir – insanları “özününkülər”ə və “yadlara” bölür. Münasibətini də mövcud rakusdan çıxış edərək bildirir. Bu zaman olmayan şeyləri real fakt kimi təqdim etməkdən çəkinmir. Olan faktları isə görməməzlikdən gəlir. Misal kimi F.Şvabenin deportasiya edilmiş və evlərindən məhrum olmuş azərbaycanlıların hüquqları barədə AŞPA müstəvisində ciddi heç bir addım atmadığını göstərə bilərik.

Bütün bunların fonunda AŞPA rəsmisinin “məqsəd AŞPA-nı zəiflətməkdir” deməsi siyasi spekulyasiyadan başqa bir şey deyil. Özü də sadə insanların talesizliyi üzərində qurulmuş, ədalətsizlik və insan hüquqlarına dərin saygısızlıqdan qaynaqlanan spekulyasiya! İndiki durumda bir azərbaycanlı uşağın, qadının, qocanın fəryadına kar olmaq, onların öz yurdlarından didərgin salınmasına göz yummaq ən böyük haqsızlıq və cinayətdir.

### Beynəlxalq hüquqa vicdansız yanaşma

Üstəlik, bunun yanında öz xoşları ilə Qarabağı tərk etmiş erməniləri “zorla qovulanlar” kimi təqdim etməyə çalışmaq, insan haqlarına və beynəlxalq hüquqa vicdansız yanaşmadır. Əlbəttə, milliyyətindən asılı olmayaraq, hər bir insanın normal yaşamaq hüququ var. Dövlətimiz bu prinsipi həmişə dəqiqliklə gözləyib. Lakin uzun illər azərbaycanlılara qarşı görünməmiş haqsızlıq edən erməni separatçıları və terrorçularının günahı ucbatından sadə ermənilər də evlərindən çıxmalı olublar. Azərbaycanlılardan kimsə onları təhdid etməyib. Ölkəmizin təhlükəsizlik orqanları konkret cinayət işlətmiş separatçıları və terrorçuları həbs edib. Onlara qanun çərçivəsində cəza kəsilməlidir.

Bəli, F.Şvabe və ona bənzərlərin Azərbaycana münasibətdə “siyasi məhbusların sayı dəhşətli dərəcədə artır” kimi bəyanatları beynəlxalq miqyasda ciddi cəzalandırılmalı manipulyasiyadır, mənəvi cinayət əməlidir. Çünki bununla həmin “demokratlar” milyonlarla günahsız insanın yenidən qanının axıdılması üçün terroçulara dəstək verirlər, onları yeni-yeni qətllərə motivasiya edirlər. Eyni ssenarinin izlərini Qərbin Yaxın Şərqdə terrorçulara dəstək verməsində, onları stimullaşdırmasında da görürük. Məhz bu baxımdan F.Şvabe və onun kimilərin sifariş yerinə yetirdiyinə dair ciddi şübhələr var.

Bundan başqa, hamı bilir ki, Azərbaycanın təhlükəsizlik orqanlarının həbs etdiyi hər bir separatçı konkret cinayət işlədib və bu, sübut olunub. Məsələn, Qarabağdakı sabiq separatçı rejimin keçmiş lideri Arayik Arutunyan Gəncəyə raket atılması əmrini verdiyini açıq şəkildə bəyan etmişdi. A.Arutunyan və silahdaşlarının cinayətkar olduqlarını sübuta yetirmək üçün təkcə bu fakt da kifayətdir. Məlumdur ki, 44 günlük müharibə dönəmində Gəncənin atəşə tutulması ilə çoxlu sayda insan, o cümlədən, uşaqlar həlak oldular.

Bu faktların mövcudluğu şəraitində belə Azərbaycanı öz xoşuna tərk edən bir erməninin burnu qanamayıb. Əksinə, onların jurnalistlərə dedikləri göstərir ki, ağır vəziyyətin yaranmasında erməni speratçılarını günahlandırırlar. Qarabağı tərk edən ermənilər azərbaycanlılarla heç bir problemlərinin olmadığını bildiriblər.

### 2 sual və 2 nida!

Bütün bunlar gerçək olduğu halda, Azərbaycanı etnik təmizləmədə necə ittiham etmək olar? Hansı səbəbdən uşaq qatili olan erməni separatçılarını siyasi məhbus adlandırırlar? Bu, absurddur, nonsesdir!

Belə çıxır ki, AŞPA-nın Laçın yoluna səyahət iddiası və “siyasi məhbus” adlandırdıqları cinayətkarlarla görüş tələb etməsi saxtakarlıqdır. Çünki onlar sözün həqiqi mənasında ədalət naminə deyil, öz çirkin planlarını həyata keçirmək üçün bu tələbləri irəli sürürlər.

Nəhayət, onu demək yerinə düşür ki, Azərbaycan hər kəsə anlatdı ki, o, müstəqildir və ədalətli, obyektiv mövqedədir. Kənardan olan istənilən təzyiqə qarşı dayanır və müstəqil qərarlar qəbul edir. Siyasi məsələyə gəldikdə, ölkəmizdə demokratik seçki keçiriləcəyi şübhəsizdir. Azərbaycanı bu yoldan heç bir qüvvə sapdıra bilməz!

Frank Şvabeyə gəlincə isə, o, Azərbaycana qarşı qərəzli qüvvələrin məğlubiyyətinin növbəti nümunəsidir. Ölkəmiz haqqında AŞPA-nın monitorinq qrupu nə qərar qəbul edir-etsin, onun təsiri Strasburqun küçələrindən o tərəfə aşmayacaq.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Ölkəmizin AŞPA-dakı nümayəndə heyətinin bəyanatı zamanında atılmış addımdır

**(əvvəli 1-ci səhifədə)**

Mübarizədən söz düşmüşkən, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin bəyanatı da mübarizə ruhundadır. Bəyanatda Azərbaycanın 1991-ci ildən başladığı müstəqillik yolu təhlil edilir. AŞPA-nın müxtəlif ölkələrin parlamentariləri arasında qarşılıqlı hörmət və bərabər hüquqlara əsaslanan dialoq platforması olduğunun vurğulandığı sənəddə Azərbaycanın 2001-ci ildə Avropa Şurasına üzv olmaqla qarşısına qoyduğu məqsəd açıqlanır. Bildirilir ki, respublikamız beynəlxalq səviyyədə tanınmış ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən hərbi təcavüzə və işğala məruz qalması nəticəsində hüquqları pozulmuş yüz minlərlə azərbaycanlının hüquqlarının bərpasında köməyə, beləliklə regionda davamlı sülhün əldə olunması naminə ədalətin öz yerini tutacağına ümid bəsləyib. Lakin: “2001-ci ildən 2020-ci ilə qədər olan 19 il ərzində AŞPA işğalçı dövləti – Ermənistanı Avropa Şurasının əsas dəyər və prinsiplərinə zidd hərəkətlərinə görə cavab vermək barədə qınamayıb. Burada söhbət xüsusilə etnik təmizləməyə məruz qalmış azərbaycanlı qaçqın və məcburi köçkünlərin insan haqlarına qarşı açıq-aşkar hörmətsizlikdən gedir”.

Bəyanatda, eyni zamanda, vurğulanır ki, Azərbaycan təcavüz, işğal və zorakı separatizm üzərində tarixi Qələbəsindən, ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra, ləkələnmək, əldə etdiyi nailiyyətlərə kölgə salmaq üçün təşkil olunmuş qarayaxma kampaniyası ilə üz-üzədir. Bəli, hazırda AŞPA müstəvisində oynanılan çirkin oyunun da məqsədi məhz budur. Sual həqiqətən yerindədir: necə ola bilər ki, təxminən iyirmi ilə yaxın müddətdə Azərbaycan nümayəndə heyətinə erməni işğalının AŞPA ilə bağlı məsələ, qurumun münaqişənin müzakirəsi üçün düzgün format olmadığı deyilib, indi isə Azərbaycan–Ermənistan münasibətləri, Qarabağ reallıqları fonunda ölkəmizə qarşı qərəzli mövqe tutulub? Bu, son dərəcə məntiqsiz, məntiqsiz olduğu qədər də əcayib yanaşma deyilmi? Niyə bir milyondan artıq azərbaycanlı insan sayılmırdı? Nəyə görə onların otuz ilə yaxın müddətdə üzləşdikləri durum insan hüquqlarının pozulması anlamına gəlmirdi? Elə ona görə də nümayəndə heyətimizin bəyanatında bildirilir: “İndi isə həmin AŞPA və həmin deputatlar bunun əksini deyir və Azərbaycana hücum etmək üçün heç bir fürsəti əldən vermirlər. Beynəlxalq hüququn selektiv şərhi, dövlətlərin ərazi bütövlüyü və suverenliyi ilə bağlı məsələlərə fərqli yanaşma bu biabırçı təklifin müəlliflərinin rüsvayçı və ikiüzlü xarakterini nümayiş etdirir”.

Bəli, AŞPA alətdir. Təəssüf ki, siyasi alətə çevrilmək hazırda dünyanın bir çox aparıcı beynəlxalq təşkilatlarının üzləşdikləri acınacaqlı durumdur. Bu durum təməl prinsiplərə aşkar həqarətin təzahürüdür. Elə bir təzahürdür ki, son dərəcə dəhşətli presedent formalaşdırmaq ehtimalı böyükdür. Belə çıxır ki, hər cür ədalətsizliyin ədalət, hər cür hüquq pozuntusunun haqq kimi leqallaşması mümkündür. Həqiqətən də ortada demokratiya adına utancverici mənzərə var. “Müəyyən qərəzli qruplar AŞPA-nın əsas prinsiplərindən öz dar maraqlarının təmini məqsədilə sui-istifadə edirlər. AŞPA-da siyasi korrupsiya, ayrı-seçkilik, etnik və dini nifrət, ikili standartlar, təkəbbürlülük, şovinizm hökm sürən praktikaya çevrilib”, – deyən bəyanat müəlliflərinin məhz qeyd etdiyimiz məqamı diqqətə çatdırdıqları aşkardır. Nəzərə alaq ki, şvabelərin Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin etimadnaməsinə etiraz etmək təşəbbüsü də çirkin tendensiyanın tərkib hissəsidir.

Əlbəttə, AŞPA-nın anti-Azərbaycan ritorikasındakı başlıca məqam 7 fevral prezident seçkiləridir. Dünyada hər bir aparıcı qütb yaxşı anlayır ki, seçki Azərbaycan xalqının iradəsinin növbəti təzahür meydanı, xalq-iqtidar vəhdətinin təntənə anı olacaq. Məqsədləri prosesl bağlı total antipatiya yaratmaqdır. İstəkləri ölkəmizin iradəsini sivil dünyadan təcrid durumunun elementi kimi göstərməkdir. Ancaq başlarını itiriblər. Xaricdəki anti-Azərbaycan qüvvələrin bir qismi prezident seçkilərini müşahidə etməyəcəyini açıqlayır, AŞPA isə bəhanə gətirir. Guya, ölkəmizin qurumdakı nümayəndə heyəti prosedur qaydalarını pozaraq seçkiyə dəvət göndərməyib. Bilməmişik, bunlar üçün xalça sərmək kimi vəzifəmiz var imiş. Utanmaz-utanmaz özlərini böyük sayırlar. Görəsən, hansı haqla?



Təbii ki, heç bir haqdan söhbət gedə bilməz. Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin bəyanatında bildirildiyi kimi, ölkəmizə qarşı oynanılan çirkin oyun seçki prosesinə əsassız müdaxiləyə yönəlmiş məqsədyönlü və qəbuledilməz cəhd, demokratik təsisatların fəaliyyətinə xələl gətirən məkrli addımdır. Ancaq AŞPA-dakılar unutmamalıdırlar ki, “nümayəndə heyətimizin etimadnaməsini ratifikasiya etməkdən imtina ilə bağlı təklif bütövlükdə Avropa Şurasının etibarlılığına və qərəzsizliyinə ciddi zərbə olacaq, bunun ciddi və geri dönməz nəticələrinə görə məsuliyyət tamamilə onun təşəbbüskarlarının üzərinə düşəcək”.

Bəli, sitatdakı fikirlər sanki şapalaq effekti verir. Azərbaycan 44 günlük müharibə və lokal xarakterli antiterror tədbirləri ilə Ermənistana və onun havadarlarına dərs verdiyi kimi, AŞPA-dakı nümayəndə heyətimizin bəyanatındakı bu fikirlər də dərsdir, elə tərs şapalağın özüdür: “Dünyada heç kim, o cümlədən bu zalda əyləşənlər Azərbaycanla təhdid və şantaj dili ilə danışa bilməzlər”.

Sənəddəki təsirli məqamlardan biri də AŞPA-nın tarixində heç vaxt bu təşkilatın özünü belə biabırçı şəkildə aparmadığının vurğulanmasıdır. Deməli, qurumda qəbuledilməz, rüsvayçı ab-hava, ləyaqət hissinə meydan oxuyan çirkin vəziyyət formalaşıb. Dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya da öz yerində. Bu səbəbdən: “Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib”.

İndi papaqlarını qabaqlarına qoyub düşünmək növbəsi nəinki AŞPA-nın, eyni zamanda, Avropa Şurasının, ümumən “köhnə qitə”nin özünü mütərəqqi sayan qurumlarının aparıcı şəxslərinindir. Əlbəttə, papaqları varsa, yaxud onları ermənilərə bağışlamayıblarsa!

**XQ-nin analitik qrupu**

# Mirzoyanın anti-sülh “manifesti”

(əvvəli 1-ci səhifədə)

Məlum olduğu kimi, Ermənistan 44 günlük müharibədən sonra Azərbaycana qarşı mina terroru gerçəkləşdirib. Bunu, əsasən, 2021-ci ilin istehsalı olan minaların ayrı-ayrı ərazilərimizdə quraşdırılması da təsdiqləyir. Yeri gəlmişkən, Azərbaycan Silahlı Qüvvələrinin ötən il sentyabrın 19-da və 20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin məqsədlərindən biri, məhz mina terroruna son qoymaq idi. O da məlumdur ki, bu cür təxribat əməlləri neçə-neçə dinc azərbaycanlının, o cümlədən, hərbçilərimizin həyatına son qoyub. Ermənistan rəhbərliyi isə məsələnin üzərinə gəlmir, Azərbaycanın etirazlarına etinasız yanaşırdı. Hətta, inkarçı mövqe də tuturdu.



Söylədiklərimizin fonunda hazırda A.Mirzoyanın bildirdikləri etirafdır. Yəni, onun dedikləri təsdiqləyir ki, Ermənistan Azərbaycana düzgün mina xəritələri verməyib. İkinci gələnən qənaət budur ki, mina terroru İrəvanın anti-Azərbaycan siyasətinin tərkib hissəsidir. Baxın, Mirzoyan, sanki, şərt qoyur. O deyir ki, əgər etimad mühiti yaranarsa, beynəlxalq ictimaiyyətin də iştirakı ilə Ermənistan Qarabağdakı mina sahələrinin yeni xəritələrini Azərbaycana verə bilər. Həqiqətən də dəhşətli düşüncədir. Deməli, indiyədək verilmiş xəritələr düzgün deyilmiş və hazırda Ermənistan düzgün xəritələri bizə şərtlə verəcəkmiş.

Ən əsası isə Mirzoyan həyasızlığa baş vurur. O deyir ki, guya, Qarabağda minaları azərbaycanlıların özləri hələ ötən əsrin 90-cı illərinin əvvəllərində basdırıblar, Ermənistan isə tədqiqatlar yolu ilə yeni mina xəritələri hazırlamağa çalışır. Sual olunur: necə ola bilər ki, azərbaycanlılar 90-cı illərdə ərazidən çıxarkən minalar basdırıblar və ötən otuz ilə yaxın müddətdə bir nəfər də olsun erməni həmin minaların qurbanı olmayıb. Göründüyü kimi, erməni XİN rəhbərinin danışdıqları absurddur .

***

Bəli, Ermənistan Azərbaycanla sülhə gəlmək yolundan uzaqdır və istəyir ki, yeni müharibəyə başlasın. Ölkə rəsmiləri isə bu niyyəti ört-basdır etməyə çalışırlar. Elə A.Mirzoyan da eyni yolu tutur. O, durumu Ermənistanın təhlükəsizlik məsələlərini həll etmək üçün müttəfiqlər tapmağa çalışmaq kontekstində izah edir: “2020-ci il müharibəsi və sonrakı hadisələr zamanı bu (müttəfiqlər tapmaq – red.), daha aydın və zəruri oldu. Biz elə bir vəziyyətlə üzləşmişik ki, müttəfiqlik mexanizmlərimiz ümidlərimizi doğrultmayıb. Biz tez-tez təhlükəsizlik mexanizmlərinin işləməməsinin şahidi olduğumuz barədə qiymətləndirmələr səsləndirmişik. Belə bir şəraitdə təhlükəsizlik problemlərini həll etmək üçün yeni müttəfiqlər tapmağa çalışmağımız təbiidir”.

Sən demə, Ermənistanın təhlükəsizlik sahəsindəki hazırkı aləti Avropa İttifaqının tərkibi fransız jandarmlarından və pensiyada olan alman polislərindən ibarət mülki müşahidə missiyası imiş. Guya, həmin missiyasının Ermənistan–Azərbaycan sərhədində yerləşdirilmə təhlükəsizliyin səviyyəsini artırıb. Digər tərəfdən, Mirzoyan ölkəsinin tərəfdaşlarının, yəni dünyadakı, xüsusən, Avropadakı erməniпərəstlərin Ermənistanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığına dair bəyanatları üzərində dayanır. Onun sözlərindən belə çıxıb ki, əgər bu bəyanatlar olmasaydı, Ermənistan işğal altına düşəcəkdi. Hər halda, bundan böyük cəfəngiyyatı uydurmaq, Qarabağda minaları 90-cı illərdə azərbaycanlıların yerləşdirmələrinə dair sərsəmləmək qədər həyasızlıq tələb edir ki, belə bir yaramaz xarakter isə Mirzoyanda artıqlaması ilə var.

***

A.Mirzoyan həyasızlığını Ermənistanın Azərbaycanla sülh müqaviləsi müstəvisində də işə salır. O, Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində səslətdirdiyi fikirlərin sülh prosesinə zərər vurduğunu dilə gətirir. Erməni nazir yenə də əvvəl bildirdiklərini təkrarlayır və hər iki ölkənin qoşunlarının sərhəddən geri çəkilməli olduğundan söz açır. Hətta, bir beynəlxalq nəzarət mexanizmindən də dəm vurmağı yaddan çıxarmır. Sən demə, Azərbaycanın və Ermənistanın silahlanmasına nəzarət mexanizmi lazım imiş. Aydındır ki, belə bir şey ola bilməz və erməni tərəfi məsələni sülh müqaviləsi ilə bağlı hazırkı məqamlarla razılaşmamaq üçün qondarır. Hərçənd, özü özünü inkar edən Mirzoyan onu da bildirir ki, Azərbaycanla sülh müqaviləsinin mətninə silahların məhdudlaşdırılması ilə bağlı müddəanın daxil edilməsi müzakirə mövzusu deyil.

Azərbaycan–Ermənistan sülh prosesi üzrə 1991-ci ilin Alma-Ata Bəyannaməsi, 1970-ci ildən sonrakı xəritələrə əsasən sərhədlərin delimitasiyası və demarkasiyası, ölkələrin bir-birilərinin ərazi bütövlüyünə və suverenliyinə hörmət, kommunikasiyaların müstəqil yurisdiksiyalar əsasında açılması və digər bu kimi əvvəlki ritorikaya aid məsələləri qabardan A.Mirzoyan, faktiki olaraq, İrəvanın Azərbaycanın şərtlərini qəbul etmədiyini təsdiqləyir. Diqqət yetirək, necə? O deyir ki, Azərbaycan Prezidentinin tələbi, guya, Ermənistanın suverenliyinin pozulmasıdır. Məlum olduğu kimi, dövlətimizin başçısı həm ötən ilin sonlarına doğru, həm də bu ilin yanvarın 10-dakı müsahibəsində bildirmişdi ki, Naxçıvana yol “Azərbaycandan Azərbaycan yol” məntiqini rəhbər tutmalı və həmin istiqamətdə heç bir sərhəd və gömrük nəzarəti tətbiq edilməməlidir. “Sərhəd nəzarəti olmadan kiminsə, hansısa ölkə vətəndaşının sərhədimizi keçməsini məqbul hesab edə bilmərik. ...bu bizim üçün qəbuledilməz dəhliz (Zəngəzur dəhlizi – red.) məntiqidir”, – deyən A.Mirzoyanın Ermənistanın Naxçıvana yolda sərhəd və gömrük prosedurlarını sadələşdirməyə və mövcud istiqamətdə müzakirələrə hazır olduğunu bildirməsi isə aşkar manipulyasiyadır. Tam aydındır ki, erməni XİN rəhbəri Bakını prinsiplərindən döndərmək üçün, belə demək mümkünsə, diplomatik tülkülüyə baş vurur. Həm də ona görə ki, hazırda Ermənistan Azərbaycanın tələbinə alternativ olaraq “Dünyanın kəsişməsi” layihəsini irəli sürür.

Əlbəttə, Bakı İrəvanın Mirzoyanın dili ilə ifadə olunmuş mövqeyini qəbul etməyəcək. Bunun təsdiqi isə Naxçıvana yolun İran ərazisindən keçməsi ilə bağlı Tehranla əldə olunmuş razılıqdır. Doğrudur, Ermənistan və dünyadakı erməniпərəst qüvvələrin buna qarşı çıxdıqlarını və Qərbin yolun İslam respublikasından keçməməsi üçün ölkəmizə mənasız təzyiq cəhdlərini də görürük.

Digər tərəfdən, Azərbaycan Prezidentinin yanvarın 10-dakı müsahibəsində toxunduğu tarixi məqamların üzərində dayanan A.Mirzoyan dövlətimizin başçısının vurğuladıqlarını “yeni sərhədlər müəyyənləşdirmək” istəyi kimi qələmə verir və öz aləmində buna qarşı müqavimət formalaşdırır. O deyir ki, delimitasiya prosesində “qanuni müəyyən edilmiş sərhədlər” əsas götürülməldir. Mirzoyanın fikrincə, qanuni sərhədlər SSRİ-nin dağılması zamanı mövcud olan sərhədlərdir və onlar Alma-Ata Bəyannaməsində göstərildiyi kimi bərpa edilməlidir. O zaman sual olunur: otuz ilə yaxın müddətdə Ermənistan həmin sərhədləri tanıyıbmı? Prezident İlham Əliyevin də bildirdiyi kimi, Ermənistan sərhədi Ağdamda müəyyənləşdirmişdi. Başqa bir yandan, elementar məntiq var və İrəvan bunu nəzərə almalıdır. Bir halda ki, Alma-Ata Bəyannaməsi və keçmiş müttəfiq respublikalarının SSRİ-dən çıxması prinsipi rəhbər tutulur, o zaman nə üçün Sovetlər Birliyinə daxil olarkən mövcud olan ərazilər üzərində dayanılmır. Hansı səbəbdən Ermənistan SSRİ-yə öz ərazi ilə daxil olub, oradan çox ərazi ilə çıxmalıdır. Yaxud nəyə görə Azərbaycan birliyə çox ərazi ilə qoşulub, oradan az ərazi ilə ayrılmalıdır? Dövlətimizin başçısının üzərində dayandığı başlıca xüsus həm də bu idi.

Əlbəttə, Azərbaycanın yanaşması 1970-ci ildən sonrakı xəritələrin əsas sayılmasını heçə endirir. Mirzoyanın növbəti həyasızlığı isə ondadır ki, bu adam həmin xəritələrin, guya, ilk dəfə Azərbaycan tərəfindən təklif edildiyini və sonradan ölkəmizin təklifindən geri durduğunu bildirir. Yəni, erməni nazir ağ yalan danışır. Çünki Azərbaycan heç vaxt belə bir təkliflə çıxış etməyib. İkincisi, məsələ çoxdandır İrəvan tərəfindən dövriyyəyə çıxarılıb. Nə üçün indiyədək Ermənistan rəsmilərindən kimsə deməyib ki, təklifi irəli sürən Azərbaycandır. O zaman daha bir sual meydana çıxır: Ermənistan nəyə görə bu xüsusda ölkəmizi məhz indi günahlandırır? Cavab birmənalıdır. İrəvan üfüqdə közərən sülh prosesinə zərbə vurmaq üçün bəhanələr axtarır və istəyir ki, Bakını qeyri-ciddi təqdim etsin.

***

Nəhayət, Ararat Mirzoyanın inkarçı ritorikasındakı sonuncu məqamın üzərində dayanaq. Bu məqam Kreml ilə bağlıdır. Mirzoyan Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun bəyanatlarını şərh edərkən deyir ki, "rusiyalı tərəfdaşlarımızı səbəb-nəticə əlaqəsini və hadisələrin xronologiyasını düzgün şəkildə təkrarlamağa çağırıram". Mirzoyanın xronologiyası Moskvanı ittiham üzərində qurulub. O bildirir ki, Lavrovun, eləcə də Kremlin digər rəsmilərinin Praqa və Brüssel görüşləri zamanı Ermənistanın Qarabağı Azərbaycana güzəştə getməsi ilə bağlı səsləndirdikləri fikirlər düzgün deyil. Erməni XİN rəhbərinin söylədiklərindən hasil olan qənaət budur ki, guya, İrəvanın Qərbə yuvarlanması Rusiyanın Ermənistana kömək göstərməməsi ilə bağlıdır. “2022-ci ilin avqustunda Rusiya tərəfi aşağıdakıları ehtiva edən təkliflər təqdim etdi: Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi qeyri-müəyyən müddətə təxirə salınsın. Avqustun sonu və ya sentyabrın əvvəlində Ermənistan tərəfi Rusiyanın təkliflərinə razı olduğunu, Azərbaycan tərəfi isə razılaşmadığını açıqlayıb. Bundan sonra 2022-ci ilin sentyabrında Azərbaycan Silahlı Qüvvələri Ermənistan Respublikasının suveren ərazisinə hücuma keçib. Ermənistan həm Rusiya ilə ikitərəfli müqavilə, həm də çoxtərəfli Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı sazişi əsasında rusiyalı tərəfdaşlarına üz tutur. Ermənistan öz müraciətinə cavab alır və burada mahiyyətcə qeyd olunur ki, Ermənistan Respublikasının həmin hissəsində sərhədlər, kifayət qədər, aydın deyil. Ona görə Rusiya Ermənistanın ərazi bütövlüyünün pozulduğunu və nə dərəcədə pozulduğunu müəyyənləşdirməkdə çətinlik çəkir. 2022-ci ilin oktyabrında Ermənistanın baş naziri, Azərbaycan Prezidenti, Fransa prezidenti və Avropa İttifaqı Şurasının Prezidentinin iştirakı ilə Praqada aparılan danışıqların nəticəsi olaraq dördtərəfli bəyanat qəbul edilib. Orada qeyd olunub ki, Ermənistanla Azərbaycan arasında sərhədlər və sərhədlərin delimitasiyası 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olmalıdır. Ermənistan və Azərbaycan arasında keçmiş Sovet respublikalarının inzibati sərhədlərinə uyğun sərhəd mövcuddur”.

Əlbəttə, aydındır ki, Mirzoyanın xronologiyası bəhanədən başqa bir şey deyil. Yəni, onsuz da Ermənistan Rusiyadan uzaqlaşmaq xətti götürüb. Ancaq erməni XİN rəhbərini bir məqamda, müəyyən qədər, haqlı saymaq mümkündür. Həqiqətən də KTMT müstəvisində Azərbaycan–Ermənistan sərhədinin dəqiqləşmədiyinə və buna görə də qurumun münaqişəyə qatıla bilməyəcəyinə dair fikirlər olub. Belə yanaşmanı obyektiv saymaq mümkündür. Ancaq, hər bir halda, Mirzoyanın haqqında söz açdığı səbəb-nəticə əlaqələrini gündəmə gətirməsi siyasi manipulyasiyadır. Həm də ona görə ki, birincisi, KTMT–nin Bakı-İrəvan ziddiyyətlərinə qarışmamaq qərarı yalnız Rusiyanın deyil. Qurum kollegial əsasda fəaliyyət göstərir. İkincisi, İrəvan açıq şəkildə çalışırdı ki, KTMT–Azərbaycan ziddiyyətləri yaradıb, konfliktdən uduşlu çıxsın. Bunu təşkilatdakılar yaxşı bilirdilər. Ona görə də Belarus Prezidenti Aleksandr Lukaşenko Ermənistanın baş naziri Nikol Paşinyanı KTMT üzvlərini uşaq yerinə qoymamağa çağırmışdı. Özü də sərt şəkildə.

Sonda bir daha vurğulayaq ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın mətbuat konfransında bildirdikləri İrəvanın Azərbaycanla sülhdən yayınmaq cəhdlərinin növbəti təzahür formalarıdır və belə hallar şübhəsiz ki, bütövlükdə Cənubi Qafqazda etibarlı sülhün formalaşmasına mənfi təsirini göstərəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**İslamofobiyanın əsirinə çevrilmiş Qərb mərkəzləri ötən il sentyabrın 19–20-də Azərbaycanın həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən narazı qalıblar. Ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi onların Qarabağ üzərində qurulmuş bütün regional planlarını alt-üst duruma salıb. Hazırda məhz belələri təzyiqləri artırır və çalışırlar ki, ölkəmiz Bakı–İrəvan sülh gündəliyi xüsusunda geri addım atsın. Rəsmi strukturlardan, dövlətlərarası təşkilatlardan tutmuş, QHT və media orqanlarınadək, ən müxtəlif “komponentlərdən” ölkəmizə qarşı istifadə yolu tuturlar. Yanvarın 22-də Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin dondurulması təşəbbüsünün ortaya çıxması da eyni “kampaniyanın” tərkib hissəsidir. Deməli, digər Qərb mərkəzləri kimi, AŞPA da Avropadakı siyasi konyunkturaya uyğun davranır. Mövcud konyukturanın isə bir adı var – aşkar erməniпərəstlik.**

# Qapıları bir-bir gəzir, təşkilatları Azərbaycan əleyhinə bəyanat verməyə çağırırlar



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

AŞPA-nın ikili standartlara baş vurması ilk belə hal deyil. Yada salaq ki, Azərbaycan Avropa Şurasına üzv olduğu gündən, yəni 2001-ci ildən indiyədək bu cür yanaşmaların şahidi çox olmuşuq. Sözügedən qurumda, Avropa Parlamentində lövbər salmış islamofob qüvvələr, hətta, torpaqlarımız işğal altında olanda da “erməni mövzusu”ndan Azərbaycan əleyhinə yararlanıblar. Müxtəlif bəhanələr taparaq, işğalçı Ermənistanı, bir növ, qoruyublar, işğala məruz qalmış Azərbaycana isə ittihamlar yağdırıblar.

Bəli, islamofob, erməniпərəst çevrələr Avropa İttifaqını (Aİ), Avropa Parlamentini, Avropa Şurası və AŞPA-nı, sanki, “xristian klubu”na çevirərək, öz məqsədlərinə alət ediblər. Avropa İttifaqı və Avropa Şurasının erməni təəssübkeşliyi kontekstində təkcə Azərbaycanı deyil, həm də Türkiyəni hədəf seçdiklərinin şahidi olmuşuq. Özü də dəfələrlə. Son 3 ildə isə beləlerinin anti-Azərbaycan ritorikası daha da intensivləşib. Hazırda istədikləri budur ki, Azərbaycan Ermənistanla danışıqlar masasına otursun və proses rəsmi İrəvan üçün əlverişli maddələr üzrə yekun sazişin imzalanması ilə nəticələnsin.




Yaxşı məlumdur ki, Qərb dairələrinin sülh müqaviləsi baxımından təklif etdikləri şərtlər tam ədalətsizdir. Onların yanaşmalarında işğalçı ilə işğala məruz qalan, ziyan vuranla zərərlə üzləşən arasında fərq yoxdur. Ermənistan sanki süddən çıxmış ağ qaşıqdır. Avropalılar heç bir halda öz dədə-baba yurdlarından zorla qovulmuş azərbaycanlıların problemlərini dilə gətirmirlər. Soydaşlarımızın geri dönüşünü təmin etmək üçün xırda təşəbbüs belə göstərmirlər. Qarabağda ev-eşiyini itirmiş, didərgin düşmüş azərbaycanlılara Ermənistan tərəfindən təzminat ödənilməsi tələbindən yan keçirlər. Yalnız bir mövzuları var – “Qarabağdan zorla qovulmuş ermənilər” Fransa Senatının yanvarın 17-də çıxardığı Azərbaycan əleyhinə qətnamə də bütövlükdə bu tələblərin üzərində qurulub. Sənəddə açıq mətnlə ifadə edilir ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti nəticəsində Qarabağda üzləşdiyi itkiləri unutmalı, ermənilər üçün fıravan həyat yaradılmasının qayğısına qalmalıdır. Fransa eyni məsələləri 2022-ci ilin dekabrında, həmçinin, 2023-cü ilin avqustunda BMT müstəvisində müzakirəyə çıxarıb. Azərbaycanı sanksiyalarla hədələyərək, tələblərinin qəbuluna ciddi cəhd göstərib. Paris hazırda eyni prosesi AŞPA müstəvisində reallaşdırmaqda, əslində isə Avropa Şurasına üzv dövlətləri “erməni proqramını” dəstəkləməyə sövq etməkdədir.

Problem ondadır ki, qeyri-rasional tələblərlə çıxış edən dövlət təkcə Fransa deyil. Bənzər mövqenin ABŞ tərəfindən də ortaya qoyulduğunu görürük. Məsələn, Birləşmiş Ştatların dövlət katibinin köməkçisi Ceyms O’Braynın dilindən 2023-cü ilin dekabrında səslənmiş və guya, Azərbaycanın Ermənistan ərazilərini işğal etməyə hazırlaşdığını ehtiva edən açıqlama da mövcud prosesin fonundadır.

Göründüyü kimi, bəzi xarici dairələr əllərinə düşən hər fürsətdə Ermənistanı öyməyə, Azərbaycanı şərləməyə, respublikamızı beynəlxalq ictimai rəyin hədəfinə çevirməyə çalışırlar. Nəzərə alaq ki, C.O’Braynın cəfəng fikirlərinə əsaslanıb, ABŞ-la Azərbaycan arasında yüksək səviyyəli təmasların kəsilməli olduğunu tələb edənlər də var və bütün bunlar Azərbaycanı ədalətsiz sülh danışıqları masasına oturtmağa məcbur etmək niyyətinin tərkib hissəsidir. Vurğuladığımız kimi, hazırda ölkəmizə qarşı çox geniş arealda “kampaniya” aparılır.

Rəsmi Bakının prinsipial davranması, milli maraqlara söykənməyən şərtlərin qəbulundan qətiyyətli imtinası Qərb mərkəzlərini aqressivləşdirir. Hiddətlərini AŞPA-nın son qərarı qismində qeyri-konstruktiv addımlarla ifadə edirlər. Yaxud, ABŞ Dövlət Departamenti “Dünya ölkələrində dini azadlıqların vəziyyəti ilə bağlı illik hesabat” hazırlayarkən, Azərbaycanın adını neqativ tonda çəkir. Bu qondarma məsələdən təzyiq elementi kimi yararlananlar isə gündəmi məşğul etməklərindən qalmırlar.

“Sərhədsiz Reportyorlar”, “Jurnalistlərin Hüquqlarını Müdafiə Komitəsi”, “Freedom House”, “Beynəlxalq Böhran Qrupu” və bu çevrədə olan onlarla təşkilat yenə də iş başındadır. Ölkəmizə şər atmaq, təsir göstərmək üçün sanki sıraya düzülüblər, növbə gözləyirlər. Bütün bunlar son otuz ildə təkrarlanan proses olduğu üçün, bir növ, adiləşib. Hansı situasiyada hansı “Qərb təşkilatının” peyda olub hansı formada bəyanat verəcəyini proqnozlaşdırmaq asanlaşıb. Amma son hdisələr fonunda üzə çıxan, təəssüf doğuran məqamlar da mövcuddur. İndiyədək obyektiv davranmış, prinsiplərinə sadiq qalmış təşkilatları da prosesə qatmaq təşəbbüsləri qeydə alınır. Belə görünür, qapıları bir-bir gəzir, beynəlxalq statuslu təşkilatları ayrılıqda Azərbaycan əleyhinə bəyanat verməyə çağırırlar. Bunun üçün fərqli metodlardan istifadə edirlər.

Üstəlik, Azərbaycanda qrantla bəslənən “müstəqil monitorinq mərkəzləri” yaradıblar. Bu “mərkəzlər” ölkə daxilində “demokratiyanın təhlükədə olduğunu”nu ehtiva edən hesabatlar hazırlayıb bitərəf davranan beynəlxalq təşkilatlara göndərir. Məsələn, Beynəlxalq Jurnalistlər Federasiyasına Azərbaycan daxilindən üç “fərqli mənbədən” hesabatlar göndərildiyi məlumdur. Sözügedən təşkilatın necə çaşdırıldığının, bəyanatına qeyri-dəqiq faktların hansı yolla daxil edildiyinin fərqindəyik. Məqam çatacaq, hər şey aydınlaşacaq.

Vacib olan budur ki, Azərbaycan qüdrətli dövlətdir. Öz haqqını qorumağı bacarır. Bilavasitə təzyiq kampaniyalarının təsirinə gəlincə, onu deyək ki, ölkəmiz belə hallarla dəfələrlə üzləşib, sonucda qalib olub. Heç şübhəsiz, yenə məkrli planlar pozulacaq və Azərbaycan bu sınaqdan da ləyaqətlə çıxacaq.

# AŞPA Azərbaycana lazımdırmı?



**AŞPA qış sessiyasının ilk iclasında Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnun müvəqqəti olaraq məhdudlaşdırılması təklif olunmuşdu. Göstərilən səbəblərin sırasında ölkədə insan haqlarının pozulması halları birinci göstərilsə də, əslində, Avropalıları narahat edən erməni terrorçularının Qarabağdan çıxarılması və 35 il ərzində Qarabağ ermənilərini siyasi girovluqda saxlayan qeyri-qanuni separatçı rejimin mövcudluğuna son qoyulmasıdır. AŞPA-nın bu qərəzli addımı Avropa deputatlarının Azərbaycanın öz ərazisi üzərində suveren hüquqlarını tam bərpa etməsinə etirazının təzahürüdür.**

AŞPA-ya üzv olduğu 2001-ci ildən bəri öz ərazimizdə və Ermənistanda bir milyona yaxın azərbaycanlının fundamental hüquqlarının kobud şəkildə pozulması, minlərlə günahsız insanın milli mənsubiyyətinə görə ermənilər tərəfindən qətlə yetirilməsi və işğal olunmuş torpaqlarımızın etnik təmizləməyə məruz qalması ilə bağlı nümayəndə heyətimizin müzakirələr aparması və müvafiq qərarlar qəbul olunmasına təkid etməsinə baxmayaraq AŞPA bu məsələlərlə məşğul olmadığını və Ermənistan–Azərbaycan münaqişəsinin yalnız ATƏT çərçivəsində müzakirə oluna biləcəyini israr edirdi.

İndi isə AŞPA Qarabağda qalıb Azərbaycan qanunları əsasında yaşamağa dəvət olunan ermənilərin öz seçimi ilə rahat şəkildə, heç bir güc tətbiq olunmadan köçüb getməsini insan haqlarının pozulması kimi dəyərləndirir və hətta Azərbaycandan ermənilərin həmin əraziyə qaytarılmasını tələb edir. Bu AŞPA tarixində görünməmiş ikiüzlülük, ədalətsizlik, Avropa siyasətində irqi, dini ayrı-seçkiliyin ən parlaq təzahürüdür. AŞPA üzvlərinin bir çoxu Ermənistanı haqlı olduğuna görə deyil, məhz xristian ölkəsi olduğuna görə dəstəklədiklərini heç də gizlətmir və əksinə öz çıxışlarında bunu açıqca vurğulayırlar.

Belə bir şəraitdə Azərbaycan nümayəndə heyəti yeganə düzgün və ləyaqətli qərar qəbul etdi. Azərbaycanla bağlı məsələ səsverməyə çıxarılmadan öncə nümayəndə heyətimiz AŞPA-nın ölkəmizə qarşı haqsız demarşına cavab bəyanatı səsləndirərək AŞPA binasını tərk ediblər. Bəyanatda ölkəmizə qarşı açıq-aşkar qərəzli ksenofob münasibətə etiraz ifadə olunur və Azərbaycan nümayəndə heyətinin öz fəaliyyətini qeyri-müəyyən müddətə dayandırdığı bəyan olunur.

AŞPA Nizamnaməsinə görə 46 ölkənin deputatlarından təşkil olunmuş bu qurum Avropa Şurasına üzv olan ölkələrdə insan hüquqlarının qorunması, demokratiyanın təşviqi və qanunun aliliyinin təmin edilməsi kimi məsələləri monitorinq etməli, bu istiqamətlərdə baş verən müsbət təcrübəni yaymalı və neqativ halların aradan qaldırılması üçün çalışmalıdır. Xüsusilə təşkilata üzv dövlətlərin ərazisində baş verən münaqişələrin aradan qaldırılması üçün tərəflər arasında mövqelərin yaxınlaşmasına və konsensus tapılmasına cəhd göstərməlidir. Məhz buna görə 2001-ci ildə Azərbaycanın AŞPA-ya qəbul olunması ölkəmizdə böyük ruh yüksəkliyi doğurmuşdu.

Ölkəmizdə bu quruma rəğbət onun ümumbəşəri dəyərləri təbliğ etməsindən, insan haqları və demokratiyanı təşviq etməsindən və xüsusilə beynəlxalq ədaləti dəstəklədiyini bəyan etməsindən irəli gəlirdi. Azərbaycan Avropa Şurasının və onun Parlament Assambleyasının bəyan etdiyi dəyərlərin tətbiqinə, ən kobud şəkildə pozulmuş insan haqlarının müdafiə olunmasına və beynəlxalq ədalətin bərqərar olunmasına böyük ümidlər bəsləyirdi. Üzv olduğumuz digər beynəlxalq təşkilatlarla yanaşı AŞPA–dan da gözləntilərimiz Azərbaycan torpaqlarının işğal faktının rəsmən tanınması və işğala son qoyulması üçün təcavüzkar dövlətə təzyiq göstərilməsindən ibarət idi. Lakin gözləntilərimizin əksinə olaraq Ermənistan–Azərbaycan münaqişəsinin davam etdiyi 35 il ərzində AŞPA bütün hüquqları vəhşicəsinə pozulmuş bir milyon Azərbaycanlının hüquqlarının müdafiəsi üçün bir qərar belə qəbul etmədi.

Bu azmış kimi, işğal olunmuş torpaqları Azərbaycanın öz gücünə azad etməsi, 30 ilə yaxın icra olunmamış BMT TŞ qətnamələrini icra etməsi və bununla da beynəlxalq ədaləti təmin etməsi AŞPA-nı narahat etməyə başladı. İndi AŞPA Azərbaycana qarşı haqsız iradlar irəli sürür və Azərbaycan dövlətini ermənilərin hüquqlarının pozulmasında ittiham edir. Elə bu məqamda "AŞPA nəyə və kimlərə xidmət edir?" sualı ortaya çıxır və AŞPA-nın Avropa siyasətində oynadığı rol bütün çılpaqlığı ilə üzə çıxır.

20 ildən çox AŞPA-da fəaliyyətimiz bu qurumun əsl məqsəd və məramını anlamaq üçün kifayətdir. 20 il ərzində Azərbaycan nümayəndə heyətinin bütün səylərinə baxmayaraq AŞPA Ermənistanı qonşu dövlətin torpaqlarını işğal etmiş təcavüzkar kimi tanımadı. Bu müddət ərzində Azərbaycan nümayəndə heyəti tərəfindən Ermənistanın işğalçı siyasəti ilə bağlı irəli sürülən təkliflər eşidilmədi. Ermənistanın işğalçılıq siyasətini pisləyən, Ermənistanda 1998-ci ildə parlamentin və 2013-cü ildə dinc nümayişçilərin güllələbaran edilməsi heç müzakirəyə belə çıxarılmadı. Ermənistanda başdan ayağa korrupsiyaya uğramış, vətəndaşları və dövlət büdcəsini qarət edən və hər cür insan haqlarını tapdalayan Koçaryan – Sarkisyan hakimiyyətinə qarşı heç bir ittiham irəli sürülmədi. Azərbaycan nümayəndə heyətinin bu məsələlərlə bağlı irəli sürdüyü müzakirə təşəbbüslərinin qarşısı dərhal alındı. Azərbaycan həqiqətlərinin geniş Avropa auditoriyasına çatdırılması üçün göstərilən bütün səylər və təşəbbüslər aparıcı dövlətlərin deputatları tərəfindən bloklandı.

Nəhayət aydın oldu ki, Fransa, Almaniya kimi böyük dövlətlərin maraqları bir çox hallarda beynəlxalq ədalət, qanunların aliliyi və demokratiya prinsipləri ilə uzlaşmaya da bilər və bu halda AŞPA tərəfindən bəyan edilmiş dəyərlər bilərəkdən arxa plana keçirilir. 20 illik fəaliyyətimiz AŞPA-nın Avropanın aparıcı dövlətləri tərəfindən öz maraqlarını təmin etmək üçün bir alət kimi istifadə edildiyini üzə çıxardı.

2020-ci ildə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi və 2023-cü ildə son 30 il müddətində böyük güc mərkəzlərinin dəstəyi ilə Qarabağda yuva salmış separatçı qüvvələrin təslim olması və nəhayət 35 ildən sonra Azərbaycanın beynəlxalq səviyyədə tanınmış öz qanuni əraziləri üzərində suverenliyini təmin etməsi ölkəmizə və bütövlükdə Cənubi Qafqaz bölgəsinə təsir və təzyiq imkanlarını xeyli dərəcədə məhdudlaşdırıb. Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması isə kənardan bölgəyə müdaxilə cəhdlərinin qarşısını tam şəkildə ala bilər. Odur ki, öz maraqlarını təmin etməyə çalışan Fransa, Almaniya, ABŞ kimi dövlətlər regionda öz müstəqil siyasətini aparmağa çalışan yeganə dövlət kimi Azərbaycana qarşı yeni təzyiq mexanizmlərini işə salmağa çalışırlar. Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnun müvəqqəti məhdudlaşdırılması cəhdləri də bu ssenarinin bir hissəsidir.

Azərbaycan xalqı artıq anlayır ki, demokratiya, insan haqları, ədalət kimi yüksək pafoslu "Avropa dəyərlərinin" arxasında məkrli niyyətlər və güc mərkəzləri hesab edilən dövlətlər tərəfindən Afrikanın, Asiyanın və bütün zəif dövlətlərin əsrlər boyu əsarət altında saxlanmasını təmin edən neo-imperializm siyasəti dayanır. Avropa siyasətinin əsl mahiyyəti irqçilik, etnik-dini təəssübkeşlik, qızışdırıcılıq və sümürgəçilikdir. Bütün bunlar Azərbaycanın öz ərazisində təmin etməyə səy göstərdiyi azadlıq, istiqrar və ləyaqətli həyat məqsədləri ilə daban-dabana ziddir. AŞPA-nın yürütdüyü siyasət Azərbaycanın öz milli maraqları çərçivəsində aparmağa çalışdığı siyasətlə uzlaşmır, əksinə toqquşur.

Lakin AŞPA öz qərarını vermədən əvvəl Azərbaycan nümayəndə heyəti öz qərarını artıq elan etdi və AŞPA çərçivəsində öz fəaliyyətini dayandırdı. Torpaqlarımız azad olunduqdan sonra, bütün ərazimiz üzərində suverenliyimiz təmin edildikdən sonra Azərbaycanın AŞPA-ya heç bir ehtiyacı yoxdur. Dünyada 200-ə yaxın müstəqil dövlət var və onlardan yalnız 46-sı bu qurumun üzvüdür. Belə olan halda "AŞPA hansı qərarı qəbul edəcək?" sualı yoxdur, indi belə bir sual var: AŞPA Azərbaycana lazımdırmı?

**Cavanşir FEYZİYEV,**
**Milli Məclisin deputatı,**
**fəlsəfə doktoru**

# İlan ulduz görməsə, ölməz!

**(əvvəli 1-ci səhifədə)**

Bununla belə, baş nazir yeni konstitusiyanın nə vaxt qəbul olunacağı ilə bağlı heç nə deməyib. Qeyd edək ki, Ermənistan konstitusiyası 1995-ci il iyulun 5-də referendum yolu ilə qəbul olunub. 2005-ci ilin noyabrında və 2015-ci ilin dekabrında ona düzəlişlər edilib. İkinci düzəlişdən sonra ölkə yarıprezident üsul-idarəsindən parlament idarəetməsinə keçib. 2018-ci ilin mayında hakimiyyətə yiyələnən Paşinyan 2021-ci ildə parlament sisteminin yaxşılaşdırılması üçün Konstitusiya İslahatları Şurası yaradıb.




Girişdə qeyd etdiyimiz kimi, N.Paşinyanın yeni konstitusiyanın qəbulu barədə səsləndirdiyi fikirlər regionda yaranmış geosiyasi reallıqlarla birbaşa əlaqəlidir. Azərbaycan Ermənistandan bir daha revanşizm cəhdlərinin olmayacağı barədə rəsmi şəkildə təsdiqlənmiş zəmanət istəyir. Bununla bağlı Prezident İlham Əliyev 2023-cü il dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda aydın şəkildə fikrini ifadə edib. Dövlətimizin başçısı deyib: "Düşünürəm ki, sülh sazişindən danışarkən bunun yalnız formal tərəfini fikirləşməməliyik. Bizə, əslində, nə lazımdır, yəni, Azərbaycana nə lazımdır? Ermənistanda heç bir revanşizm cəhdlərinin olmayacağı ilə bağlı qəti şəkildə təsdiqlənmiş zəmanət lazımdır...

Deməli, iki ölkə arasında daha müharibə olmayacağına, Ermənistanın vəziyyətlə tam razılaşdığına və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı dediklərini həqiqətən nəzərdə tutduğuna dair zəmanətimiz olmalıdır. Onlar keçmiş "dağlıq qarabağ respublikası"nı unutmalı, sərhədin delimitasiyası məsələsində konstruktiv olmalıdırlar. Əsl sülh məhz budur".

Yazını hazırlayarkən Ermənistanın mövcud konstitusiyasını nəzərdən keçirdik. Sənədin mətnində 1915-ci ildə Osmanlı imperiyasında ermənilərin, guya, soyqırımına məruz qalması, Türkiyə, Azərbaycan, o cümlədən, Qarabağla bağlı birbaşa heç nə yazılmayıb. Lakin hayların əsas qanununun preambulasında bunların hamısını özündə əks etdirən 1990-cı ilə qəbul olunmuş Müstəqillik Bəyannaməsinə istinad edilir. Bəyannamədə isə öz növbəsində, Ermənistan SSR və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ali sovetlərinin 1989-cu il 1 dekabr tarixli "Ermənistan SSR-nin və Dağlıq Qarabağın birləşdirilməsi haqqında" birgə qərarına istinad olunur. Həmçinin, 1915-ci il hadisələrinin beynəlxalq aləmdə "soyqırımı" kimi tanınmasına çağırış edilir.

Bundan əlavə, konstitusiyanın Ermənistanın dövlət rəmzləri ilə bağlı məsələləri tənzimləyən 21-ci maddəsində ölkənin gerbində – qalxanın mərkəzində Nuh peyğəmbərin gəmisinin oturduğu və hayların "Ararat" adlandırdıqları Türkiyə ərazisində yerləşən Ağrı dağının təsvir olunduğu birbaşa yazılıb. Bu isə Türkiyəyə ərazi iddiaları deməkdir. Beləliklə, əgər Ermənistan rəhbərliyi Azərbaycan və Türkiyə ilə sülh istəyirsə, regionda davamlı sabitliyin və əmin-amanlığın bərqərar olmasında maraqlıdırsa, qanunvericilikdən də ərazi iddiasına səbəb verən müddəaları yığışdırmalıdır.

Gözlənildiyi kimi, müxalifət Paşinyanın yeni konstitusiya ilə bağlı fikirlərini, necə deyərlər, süngü-bıçaqla qarşılayıb. Sabiq prezident Robert Koçaryanın "Hayastan" fraksiyasından beş deputat baş nazirin ölkəyə yeni konstitusiya lazım olması təşəbbüsünə birgə bəyanatla cavab veriblər.

Bəyanatda deyilir ki, Paşinyan konstitusiyanı dəyişməklə gələcək siyasi qərarlarına legitimlik verməyə çalışır. Deputatlardan biri Kristine Vardanyan deyib: "Ermənistanın yeni konstitusiyası ondan daha hansı ərazi dəyişikliyi tələb edəcək? Ən böyük dəyişiklik Azərbaycanın Qarabağ üzərində nəzarətinin bərpa olunmasıdır. Paşinyan bizə açıq şəkildə deyir ki, bizim konstitusiyamız bu reallığı əks etdirməlidir".

Konstitusiya hüququ üzrə ekspert, 2015-ci il konstitusiyasının həmmüəlliflərindən biri Vardan Poqosyan isə "Nyus.am"a müsahibəsində deyib ki, mövcud sənəd Paşinyana əngəl törədir. Onun sözlərinə görə, əsas qanunun birinci sətri artıq baş nazirin məqsədlərinin həyata keçirilməsinə maneədir: "Söhbət "Artsax"ı və "soyqırımı"nı milli məqsədlər kimi müəyyən edən Müstəqillik Bəyannaməsindən gedir. Paşinyana mane olan başqa müddəalar da var, o cümlədən, Ermənistan ərazisinin dəyişdirilməsi məsələsi. O, həmçinin konstitusiyanın erməni kimliyinin qorunub saxlanmasında Erməni Apostol Kilsəsinin müstəsna rolunu təsbit edən 18-ci maddəsini ləğv etməyə səy göstərəcək. Paşinyan, yəqin ki, Ağrı dağı və Nuhun gəmisinə aid olan gerbin təsvirini də aradan qaldırmağa çalışacaq".

Onun sözlərinə görə, Paşinyan ayrı-ayrı müddəaların dəyişdirilməsi yolunu tutmadı, çünki bu halda Konstitusiya Məhkəməsindən rəy almaqda problemlər yarana bilərdi: "Əgər bütün konstitusiya dəyişdirilərsə, belə bir rəy almağa da ehtiyac qalmır".

Poqosyan əmindir ki, yuxarıda qeyd olunan dəyişikliklər olacağı təqdirdə Ermənistan hakimiyyətin güman etdiyi kimi rəqabətədavamlı olmayacaq, əksinə, tam asılı dövlətə çevriləcək: "Baş nazir göstərir ki, o, Azərbaycanın tələblərinə (?) əməl edir və Müstəqillik Bəyannaməsinə əsaslanan "Üçüncü Ermənistan Respublikası"nın tarixini bağlayır. Paşinyan yeni respublika yaratmaq istəyir".

Poqosyan yeni konstitusiyanın qəbulu prosedurunu da təsvir edib: "Konstitusiyanın qəbulu üçün parlament 2/3 səs çoxluğu ilə əsas qanunla bağlı layihə qəbul etməli, sonra referendum keçirilməlidir. Konstitusiyanın qəbulu üçün səsvermə iştirakçılarının 50%+1 faizi onun lehinə səs verməlidir".

O xatırladıb ki, baş nazir parlamentdə çoxluğa malikdir, buna görə də ciddi problemlə üzləşməyəcək. Onun fikrincə, Paşinyan bütün bu dəyişiklikləri il ərzində həyata keçirməyə çalışacaq.

Göründüyü kimi, Paşinyan bir sıra vacib məsələlərdə olduğu kimi, yeni konstitusiyanın qəbulu məsələsində də radikal-revanşist kəsimin etirazı ilə üzləşəcək. Ancaq Ermənistanın milli maraqları, Azərbaycan və Türkiyə ilə sülhün əldə olunması belə bir addımın atılmasını zəruri edir. İrəvanın bir tərəfdən Azərbaycanla sülh sazişini imzalamağa, Türkiyə ilə diplomatik münasibətlər qurmağa hazır olmasını bəyan etməsi, lakin konstitusiyasında hər iki ölkəyə ərazi iddialarının qalması ziddiyyətli olardı. Ərazi bütövlüyünü təkcə sözdə tanımaq şərt deyil. Konstitusiyadakı məntiqə zidd maddələr də aradan qaldırılmalıdır. Bu həqiqəti Ermənistan hakimiyyəti kimi, müxalifətinin də dərk etməsi lazımdır.

**Səxavət HƏMİD**
**XQ**

**EKSPERT RƏYİ**




**Elxan ŞAHİNOĞLU,**
**politoloq**

Nikol Paşinyan parlamentdəki çıxışlarında mövcud konstitusiya barədə ara-sıra tənqidi fikirlərini bildirirdi. Əsas qanunda qonşu dövlətlərə ərazi iddiasını əks etdirən Müstəqillik Bəyannaməsinə istinadın reallığı əks etdirmədiyinə işarə edirdi. Bu, həqiqətdir ki, Ermənistan müstəqilliyini bərpa etdiyi illərdə həmin ölkədəki siyasi qüvvələr özgə torpaqlara göz dikərək ərazi iddialarını əsas qanuna salmışdılar. O dövr bitdi. Paşinyan anlayır ki, konstitusiya dəyişikliyi etmədən Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq çətin olacaq.

Zənnimcə, radikalların və "Qarabağ klanı"nın müqavimətindən asılı olmayaraq Paşinyan yeni konstitusiya qəbul etmək istəyərsə, erməni cəmiyyətinin əksər hissəsi ona dəstəyini ifadə edəcək. Bunlar həmin ermənilərdir ki, İkinci Qarabağ müharibəsindəki ağır məğlubiyyətə rəğmən, yenə Paşinyana səs verdilər. Güman edirəm ki, onlar yeni konstutisiyaya da "yox" deməyəcəklər. Məğlub durumda olan Ermənistan Azərbaycan və Türkiyə ilə sülh və əməkdaşlıq istəyirsə, konstitusiyasından məlum bəndləri çıxartmalıdır. Əks halda, hər iki qonşusu ilə dayanıqlı sülhə ümid edə bilməz.

**EKSPERT RƏYİ**



**Zaur MƏMMƏDOV,**
**politoloq**

Azərbaycanla danışıqların səmərəli olması üçün İrəvan mütləq qaydada bəzi düzəlişləri etməlidir. Ermənistan yazılı şəkildə Qarabağı Azərbaycanın ərazisi kimi tanımalıdır. Sülh müqaviləsinin imzalanması o halda baş tuta bilər ki, Ermənistan bütün hüquqi sənədləri dəyişsin. Bu, təkcə konstitusiya ilə bağlı deyil. Müstəqillik Bəyannaməsində qeyd olunanlar da yolverilməzdir.

Ermənistan parlamentinin bu istiqamətdə qəbul etdiyi qərarların ləğvinə də ehtiyac duyulur. Bunlar sülhə nəinki mane olur, ümumiyyətlə onların qalması sülh müqaviləsinin imzalanmayacağı deməkdir. Əgər Ermənistan sülh istəyirsə, bizim ölkəmizin tələbələrini mütləq şəkildə yerinə yetirməlidir ki, yeni səhifə açılsın.

Biz görürük ki, Paşinyan cəmi üç il əvvəl imzalanmış üçtərəfli bəyanatı fərqli şəkildə interpretasiya edir. Əlbəttə, sülh müqaviləsi də konstitusiyada dəyişiklik olmadan, oradan Müstəqillik Bəyannaməsinə istinad çıxarılmadan imzalanarsa, Ermənistanın gələcək rəhbərləri sərsəm bəyanatlar səsələndirə bilərlər. Ona görə də əgər dayanıqlı sülhdən söhbət gedirsə, o zaman bu məsələyə hərtərəfli şəkildə yanaşılmalı, tələskənlik nümayiş etdirilməməlidir. Ermənistan cəmiyyəti bu dəyişikliyi referendumla özü qəbul etməlidir. Bundan sonra biz rahat şəkildə Ermənistan–Azərbaycan, Ermənistan–Türkiyə münasibətlərdən danışa biləcəyik.

# Azərbaycan azad və demokratik seçki keçirməyə qadir ölkədir

## Prezident seçkilərinin səsvermə bülletenləri çap olunur

**Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Milli Məclisin mətbəəsində seçki bülletenlərinin çapına başlanılıb.**



Dünən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov mətbəəyə gələrək çap prosesinin gedişi və yaradılmış şəraitlə tanış olub. Komissiya üzvlərinin və media mənsublarının iştirakı ilə keçirilən tədbirdə MSK sədri seçicilərin səsvermə hüquqlarının azad, sərbəst şəkildə reallaşdırılmasında mühüm əhəmiyyət daşıyan seçki bülletenlərinin hazırlanmasında və çapında Seçki Məcəlləsinin tələblərinə dəqiqliklə riayət olunmasının vacibliyini diqqətə çatdırıb.

O, seçki bülletenlərinin qanunvericiliklə müəyyənləşdirilmiş vaxtda və qaydada çap edilməsi, aşağı seçki komissiyalarına çatdırılması ilə bağlı tövsiyələrini də verib. Həmçinin vurğulayıb ki, seçki bülletenlərinin çap prosesi təhlükəsizliyin təmin edilməsi şərti ilə, seçkilərin iştirakçısı olan bütün maraqlı subyektlər, beynəlxalq təşkilatlar, seçki müşahidə missiyaları və media nümayəndələri üçün tamamilə açıq həyata keçirilir.

Seçki bülletenlərinin çap prosesi ilə tanışlıqdan sonra MSK sədrinin jurnalistlər üçün brifinqi keçirilib. Məzahir Pənahov mediaya açıqlamasında seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblərin Seçki Məcəlləsinə əsasən MSK-nın qərarı ilə müəyyən olunduğunu, prezident seçkiləri ilə əlaqədar 6 milyon 524 min 203 seçki bülleteninin çap edilməsinin nəzərdə tutulduğunu bildirib. Qeyd edib ki, seçki bülletenləri çap olunduqca qanunvericiliyin tələblərinə uyğun qaydada və müddətdə MSK-dan dairə seçki komissiyalarına, dairə seçki komissiyalarından isə məntəqə seçki komissiyalarına veriləcək.

Brifinqdə MSK sədri prezident seçkilərinin yüksək səviyyədə təşkil olunub azad, ədalətli və şəffaf keçirilməsi istiqamətində son hazırlıq işləri barədə də ətraflı məlumat verib, media nümayəndələrinin suallarını cavablandırıb.

## Seçkilərə 3 gün qalanadək bülletenlər məntəqə komissiyalarına təqdim olunacaq

**"Seçki bülletenlərinin çapına artıq başlanılıb. Hesab edirik ki, bir həftəyə çap işi başa çatacaq. Lakin paylanma prosesi üçün çap işlərinin başa çatmasını gözləmirik".**

Bu fikri Mərkəzi Seçki Komissiyasının sədri səsləndirib.

O deyib ki, iki gündən sonra, artıq burada kifayət qədər bülleten hazır olanda birinci Naxçıvanda, sonra ucqar rayonlarda yerləşən dairələrin komissiyalarını dəvət edirik. Məcəllənin tələbinə uyğun olaraq nümayəndə heyətləri gəlir və bülletenləri rəsmi şəkildə təhvil alıb dairələrə çatdırırlar. Seçki gününə üç gün qalanadək onlar bülletenləri rəsmi şəkildə məntəqə seçki komissiyalarına təqdim etməlidirlər.

## Qocalara, xəstələrə və əlillərə səsvermə imkanı yaradılacaq

**"Seçki prosesində xəstələrin və qocaların səs vermələrini təmin etmək üçün mobil səsvermə qutuları təşkil olunacaq. Bu, Seçki Məcəlləsinin tələbinə əsasən həyata keçirilir. Yəni, bu, bizim komissiyaların vəzifəsidir. Əgər səsvermə günü obyektiv səbəbdən məntəqəyə gələ bilməyən seçici varsa, onlar qeydiyyata alınır".**



Bu fikri Mərkəzi Seçki Komissiyasını sədri Məzahir Pənahov deyib.

O bildirib ki, mobil qutuların çatdırılması da Seçki Məcəlləsinin tələbinə uyğun olaraq, müəyyən tərəflərin müşayiətilə həyata keçirilir. Eyni zamanda, bütün məntəqələrdə "brayl" əlifbası ilə də səsvermə imkanı yaradacağıq. Həmçinin hərəkət məhdudiyyətli insanlar üçün pandusların quraşdırılmasına başlanılıb. Maksimum dərəcədə çalışmışıq ki, bu qəbildən olan bütün seçicilərimizin hüquqlarını təmin edək.

M. Pənahov beynəlxalq müşahidəçilərin qeydiyyatdan keçməsi barədə də məlumar verərək deyib ki, indiyədək 400-ə yaxın beynəlxalq müşahidəçi qeydiyyatdan keçib. Ümumilikdə, yerli müşahidəçilərlə birlikdə bugünədək 64 minə yaxın müşahidəçi qeydiyyatdan keçib. Artıq veb-kameraların sınağına başlamışıq. Hesab edirəm ki, səsvermə gününədək bu prosesi tam başa çatdıracağıq.

## Masallıda "dəyirmi masa"

**Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının və Mərkəzi Seçki Komissiyasının birgə əməkdaşlığı çərçivəsində növbədənkənar prezident seçkiləri ilə əlaqədar "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda Masallı rayonunda "dəyirmi masa" keçirlib. Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı vətəndaşların seçki hüququnun təmini və müdafiəsi istiqamətində təsisat tərəfindən müvafiq işlərin görüldüyünü, MSK ilə birgə Bakı şəhəri və regionlarda birgə silsilə maarifləndirmə tədbirlərinin keçirildiyini diqqətə çatdırıb.**



MSK üzvü Şaitdin Əliyev bu dövr ərzində görülən işlər, həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. O, MSK tərəfindən ilk dəfə hazırlanan "Ekspert qrupunun üzvləri üçün yaddaş" kitabçasının əhəmiyyətinə toxunub.

MSK-nın əməkdaşı Cavid Zeynalov görülən tədbirlərdən bəhs edərək, xüsusilə də seçicilər üçün "ASAN növbə" terminallarında "Seçici statusunu yoxla" adlı funksional bölmənin əlavə edildiyini diqqətə çatdırıb. Bildirilib ki, bölmə vasitəsilə vətəndaşlar adlarını seçici siyahısında yoxlaya və hansı seçki məntəqəsində səs verməli olduqlarını öyrənə bilərlər.

## MSK-da İKT mütəxəssislərinə seminarlar keçirilir

**Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri ilə əlaqədar yanvarın 24-də Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri üçün seminarlara başlanılıb.**




Seminarın təşkilində məqsəd dairə seçki komissiyalarının informasiya texnologiya üzrə mütəxəssislərini Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin (DAİS) təkmilləşdirilən imkanları barədə məlumatlandırmaq, DAİS-in proqram təminatları ilə birbaşa və praktiki istifadənin təmin edilməsi, habelə iştirakçıları maraqlandıran məsələlərin əyani şəkildə izah edilməsidir.

İnformasiya Texnologiyaları üzrə mütəxəssislər seminarlarda praktiki məşğələlərlə test rejimində işləyəcəklər.

## MSK seçicilərə SMS çağırışı edir

**Azərbaycanda fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkilərilə bağlı mobil operatorlar vasitəsilə əhalinin məlumatlandırılmasına başlanılıb. Mərkəzi Seçki Komissiyasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə layihəsi çərçivəsində vətəndaşlara seçki hüququndan istifadə etməklə bağlı SMS-lər göndərilir.**



"7 fevral 2024-cü il prezident seçkiləri günüdür! Səsvermə hüququmuzdan istifadə edək!", – göndərilən SMS-lərin mətnində qeyd edilib.

## "Mənim səsim" Monitorinq Koalisiyasının 500 müşahidəçisi qeydiyyatdan keçib



**"Mənim səsim" Seçki Monitorinq Koalisiyası hazırkı mərhələdə özünün qeydiyyata alınmış müşahidəçilərinin məntəqə və dairələr üzrə yerləşdirilməsi üzərində çalışır. Koalisiyamızın 500 müşahidəçisi artıq qeydiyyatdan keçib".**

Bu sözləri "Mənim səsim" Seçki Monitorinq Koalisiyasının həmtəsisçilərindən olan "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" İctimai Birliyinin sədri Səadət Bənənyarlı deyib.

QHT sədri deyib ki, koalisiya prezidentliyə namizədlərlə görüşlərini davam etdirir və seçki mühiti ilə bağlı müzakirələr aparılır. Namizədlər seçki mühitindən hər hansı bir narazılıq ifadə etməyiblər.

Müşahidəçilərin yaddaş kitabçaları ilə təmin edilməsi istiqamətində də iş aparıldığı diqqətə çatdırılıb. Bu işlər yekunlaşdıqdan sonra isə müşahidəçilərlə təlimlərə start veriləcək. Müşahidəçilərin əksəriyyəti peşəkar şəxslərdirlər. Bununla belə, Seçki Monitorinq Koalisiyası tərəfindən təlimlər təşkil edilir. Bölgələr üzrə keçiriləcək təlimlərdə müşahidəçilərlə müzakirələr aparılacaq.

Qarşıdakı mərhələdə beynəlxalq müşahidə missiyaları ilə görüşlər də davam etdiriləcək.

## Azad və ədalətli seçkinin hüquqi bazası mükəmməldir

**"Ölkəmizdə seçkilərin şəffaf, azad və ədalətli keçirilməsi üçün zəngin qanunvericilik bazası, beynəlxalq birlik tərəfindən də yüksək qiymətləndirilən Seçki Məcəlləsi, həmçinin əlverişli demokratik mühit var. İndiyə qədər keçirilən seçkilər də bunu təsdiqləyir. İndiyədək keçirilən seçkiləri izləyən beynəlxalq müşahidəçilər yekun rəylərində təsdiqləyiblər ki, seçkilər ölkənin Seçki Məcəlləsinə uyğun keçirilib. Ən əsası isə seçkilər demokratik əsaslarla təşkil edilib".**



Bu fikirləri 7 saylı Səbail Dairə Seçki Komissiyasının sədri Cahangir Məmmədov bildirdi.

DSK sədri bildirdi ki, Azərbaycan növbədənkənar prezident seçkilərinin də demokratik və şəffaf keçirilməsində nümunə göstərəcək. Bundan ötrü bütün hazırlıq işləri yüksək səviyyədədir. Bunu hazırlığı müşahidə edən beynəlxalq müşahidəçilər də təsdiqləyirlər. Son zamanlar ATƏT və Qazaxstandan olan beynəlxalq müşahidəçilər dairədə olub və seçkiyə hazırlıq işləri ilə maraqlanıblar. Azərbaycan demokratik, azad və ədalətli seçki keçirməyə qadir olduğunu dəfələrlə sübut edib. Bunu nüfuzlu beynəlxalq qurumların müşahidəçiləri də təsdiqləyirlər. Bu baxımdan fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərinin daha demokratik olacağına hər birimizdə əminlik yaranıb. Çünki ölkəmiz seçkidən-seçkiyə püxtələşir, təcrübəsini artırır və qanunvericilik bazasını daha da zənginləşdirir. Bunu Seçki Məcəlləsinə bu vaxta qədər 19 dəfə əlavə və dəyişikliyin edilməsi də təsdiqləyir.

C. Məmmədov dedi ki, Səbail rayonunda seçkilər həmişə mütəşəkkil keçirlib. Dairənin ərazisində 53 seçki məntəqəsi var. On üç məntəqə 5 günlükdür. Yəni müvəqqəti. Buraya ərazidəki hərbi hissələr, Mərkəzi Klinik Xəstəxana, Xəzər Dəniz Gəmiçiliyi və bp-nin 9 platforması daxildir. Daimi məntəqələrdə 50 min 787 seçici səs verəcək. Beşgünlük seçki məntəqələrində isə təxminən 3 min 200 seçici səs verəcək. Bu ilki seçkilərə çox böyük maraq var. Bu da prezident seçkiləri ilə əlaqədardır. Çünki prezident seçkiləri mühüm siyasi əhəmiyyət daşıyır. Ölkənin gələcək taleyi həll olunur. Hazırda Azərbaycan dünyada qalib ölkə kimi tanınır. Uzun illərdir gözlədiyimiz Qələbəyə nail olduq. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı yenidənqurma, tikinti, bərpa işləri aparılır. Bu gün dünyanın diqqəti Qarabağa yönəlib. Bu işlərin davam etdirilməsi gələcək ölkə başçısından asılıdır. Ona görə də prezident seçkiləri çox mühüm bir siyasi kampaniyadır. Bu siyasi kampaniyanı uğurla başa vurmaq üçün bütün imkanlardan istifadə etməliyik.

DSK sədri bildirdi ki, məhz buna görə də seçki prosesini müşahidə edənlərin sayı gündən-günə çoxalır. Son məlumata görə müşahidəçilərin sayı iki mini keçib. Onlara seçkinin gedişini izləmələri üçün hər cür şərait yaradılıb. Bununla yanaşı, şəffaflığın təmin olunması üçün bu il də barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsi üsulundan istifadə olunacaq. Bundan ötrü lazım olan ləvazimatlar seçki məntəqlərinə verilib.

Seçki məntəqələrindən söhbət düşmüşkən, DSK sədri dedi ki, artıq bütün seçki məntəqələri seçkiyə tam hazırdır. Məntəqə seçki komissiyasının üzvləri seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması, ümumiyyətlə, bütün seçki günü prosedurları barədə aydın və müfəssəl məlumatlandırılıblar. Onların hamısı MSK tərəfindən təşkil olunan treninqlərdə iştirak ediblər. Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və digər zəruri metodiki vəsait, əyani materiallar da verilib.

DSK sədri bu seçkilərdə "Yeni nəsil" aparatından istifadə olunacağını bildirdi. Bu aparatdan şəxsiyyət vəsiqələrinin göstəricilərini müəyyənləşdirmək üçün istifadə olunacaq. Ümumiyyətlə, seçkilərin şəffaf və azad keçirilməsi üçün bütün imkanlardan istifadə olunacaq. Ölkəmiz demokratik seçki keçirməyə qadir olduğunu bir daha nümayiş etdirəcək.

*Səhifəni hazırladı:*
*Əliqismət BƏDƏLOV*
*XQ*

# Sağlam rəqabət bolluğa və ucuzluğa yol açır

**(əvvəli 1-ci səhifədə)**

Bundan əvvəl isə, ötən ilin dekabr ayında sözügedən sənəd Milli Məclisdə üçüncü oxunuşda qəbul edilmişdi. Rəqabət Məcəlləsini ölkəmizin iqtisadi inkişafı üçün yeni mərhələnin başlanğıcı kimi dəyərləndirmək olar. Belə ki, sənədin qüvvəyə minməsi nəticəsində ölkəmizdə rəqabətin tənzimlənməsi təmin olunacaq, yeni yanaşmalar tətbiq olunacaq. Yeni Məcəllə sağlam rəqabətə əsaslanan bazar iqtisadiyyatının inkişafına, ölkədə sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına və dayanıqlı iqtisadi artıma əhəmiyyətli töhfə verəcək.

Prezident fərmanına əsasən, Rəqabət Məcəlləsinin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihəsi hazırlanacaq, sözügedən sənədin tələbləri tətbiq edilməyən və ya məhdud tətbiq edilə bilən hallar, fəaliyyət sahələri və məhsullar müəyyənləşəcək. Fərmanda qeyd olunduğu kimi, sazişlərin rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olmasına və ya ola bilməsinə dair meyarlar, eləcə də bazarda sahələrin təmərküzləşmə səviyyəsi müəyyənləşdiriləcək, bazar paylarının hesablanması, müvafiq bazarın sərhədlərinin, həcminin, strukturunun və iştirakçılarının müəyyən edilməsi qaydası hazırlanacaq. Eyni zamanda, ölkədə bazar və təbii inhisar subyektlərində yoxlamaların keçirilməsi qaydaları və maliyyə institutlarının hökmran mövqeyinin müəyyən edilməsi şərtləri müəyyənləşəcək, təbii inhisar subyektlərinin siyahısı hazırlanacaq.

İndən belə ölkədə Tarif Şurası tərəfindən müəyyən edilmiş qiymətlərin əsassız olaraq dəyişdirilməsinə görə təbii inhisar subyektlərinə maliyyə sanksiyası tətbiq ediləcək. Fərmana əsasən, Tarif Şurası tərəfindən müəyyən edilmiş qiymətlərin əsassız olaraq dəyişdirilməsinə görə təbii inhisar subyektinə rəqabət orqanı tərəfindən qərarın verildiyi ildən əvvəlki maliyyə ilində həmin təbii inhisar subyektinin ümumi dövriyyəsinin 0,1 faizi məbləğində maliyyə sanksiyası tətbiq ediləcək. Heç şübhəsiz, bu da ölkədə süni qiymət artımının və inflyasiyanın qarşısını almağa imkan verəcək.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli bu yaxınlarda mətbuata açıqlamasında deyib ki, Məcəllədə rəqabəti məhdudlaşdıran üfüqi və şaquli sazişlər, bazar payının müəyyən edilməsi, bazarda hakim mövqe və bundan sui-istifadə halları, haqsız rəqabət və onun formaları, iqtisadi təmərküzləşmələr üzrə yeni qaydalar tətbiq olunacaq.

M.Abbasbəyli deyib ki, yeni Məcəllə sahibkarlıq subyektləri ilə yanaşı, dövlət və yerli özünüidarəetmə orqanlarının antiinhisar qanunvericiliyinə zidd olan hərəkətlərinin və ya hərəkətsizliyinin qarşısının alınmasını və tənzimləmə fəaliyyətinin rəqabətə təsirinin qiymətləndirilməsini tənzimləyəcək. Bütövlükdə isə, Rəqabət Məcəlləsinin qəbul edilməsi inhisarçılığın məhdudlaşdırılması vasitəsilə ölkədə özəl sektorun inkişafına dəstək vercək. Bu da yerli sahibkarlığı inkişaf etdirməklə rəqabət qabiliyyətli məhsulların istehsalının genişləndirilməsinə, eləcə də ölkənin ixrac potensialının artırılmasına imkan yaradacaq.

Dövlət Xidmətinin əsas fəaliyyət istiqamətlərindən birinin rəqabət təhlilləri, müxtəlif əmtəə bazarlarında araşdırmaların və monitorinqlərin aparılmasından ibarət olduğunu diqqətə çatdıran xidmət rəisi bildirib ki, qurum bununla hər hansı bir əmtəə məhsulları seqmentində rəqabətin pozulub-pozulmaması barədə ehtimallar irəli sürə və onun əsasında müəyyən tənzimləyici və nəzarət addımları ata bilir. Bu baxımdan 2023-cü ildə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən təsdiqlənmiş illik fəaliyyəti planına uyğun olaraq dərman vasitələri, karqo xidmətləri və geniş zolaqlı internet bazarlarında, eləcə də da kənd təsərrüfatı sektorunda müxtəlif araşdırmalar aparılıb. Həmin araşdırmaların nəticəsi olaraq bazarda çoxiştirakçılığın təmin edilməsi, texniki və iqtisadi tənzimləmələrin optimallaşdırılması üzrə geniş təkliflər paketi hazırlanaraq hökumətə təqdim olunub.

Yeri gəlmişkən, dövlət başçısının imzaladığı "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" qanunun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" fərmana əsasən, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin fəaliyyəti təkmilləşdiriləcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***



## Ekspert rəyi



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

2023-cü ilin dekabr ayında Rəqabət Məcəlləsi Milli Məclisdə üçüncü oxunuşda qəbul edildi. Bu il yanvarın 23-də isə Prezident İlham Əliyev Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında Qanunu təsdiqlədi.

Rəqabət Məcəlləsinin təsdiqi ölkə iqtisadiyyatının inkişafı, biznes mühitinin əlverişliliyinin artırılması, azad sahibkarlığın təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir. Sənəd ölkədə sahibkarların sağlam rəqabət şəraitində fəaliyyətinin hüquqi əsaslarını müəyyən edəcək. Yeni məcəllə, eyni zamanda, istehlakçıların hüquqlarının müdafiəsini, məhsul və xidmətlərin keyfiyyətinin daha da artırılmasını hədəfləyir. Məcəllənin təsdiqində məqsəd iqtisadiyyatda rəqabətin müdafiə edilməsi və daha da gücləndirilməsidir. Bu, azad sahibkarlığın inkişafı, iqtisadiyyatda monopoliyanın tamamilə aradan qaldırılması və baryerlərin götürülməsi baxımından vacib bir sənəddir.

Yeni Məcəllə inhisara qarşı mübarizə, kiçik və orta sahibkarlığın daha yaxından dəstəklənməsi, qiymətlərin optimallaşdırılması və hətta bəzi məhsullar üzrə qiymətlərin azaldılması baxımından da əhəmiyyətlidir. Uzun müddətdir ki, Rəqabət Məcəlləsinin qəbulu müzakirə olunurdu və bu, iqtisadiyyatın sağlamlaşdırılması baxımından kifayət qədər vacib qanunlardan biridir.

Bu gün bütün inkişaf etmiş ölkələrdə bu istiqamətdə qanunvericilik var. Avropa İttifaqında ən vacib qanunlardan biri də rəqabətlə bağlı qanundur. Ona görə də Rəqabət Məcəlləsinin təsdiqi Azərbaycanın iqtisadiyyatında rəqabətin daha yaxından dəstəklənməsində, bazarın liberallaşmasında, bazara çıxış imkanlarının artırılmasında və inhisara qarşı mübarizənin gücləndirilməsində xüsusi paya malik olacaq.

Bütövlükdə isə, Rəqabət Məcəlləsinin təsdiqi Azərbaycan iqtisadiyyatında yeni səhifənin açılması kimi xarakterizə edilir. Bu yeni dövrdə islahatların daha da dərinləşəcəyindən xəbər verir.

# Sənaye zonaları və iqtisadi yeniləşmə

## Bu müəssisələrdə son 3 ildə 8,45 milyard manatlıq məhsul istehsal edilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsində İqtisadi Zonaların İnkişafı Agentliyinin yaradılmasından 3 il ötdüyünü, keçən müddət ərzində Agentliyin idarəçiliyindəki sənaye zonalarında investisiya həcminin 750 milyon manat olan 56 sahibkarlıq subyektinə rezidentlik statusu verildiyini, 17 müəssisənin fəaliyyətə başladığını və 1336 daimi iş yerinin yaradıldığını bildirib.**

Naziri daha sonra vurğulayıb ki, 3 il ərzində sənaye zonalarında 8,45 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 35,7 faizi faizi, yəni 3,02 milyard manatı ixracın payına düşür.

Keçən ilki fəaliyyətə gəldikdə isə deyə bilərik ki, hesabat dövründə İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye zonalarında 12 müəssisə fəaliyyətə başlayıb. Həmin müəssisələr tərəfindən sənaye zonalarına 135 milyon manat investisiya yatırılıb, 744 daimi iş yeri yaradılıb.




Sözügedən müəssisələr polimer qatqıların, keramik plitələrin, qablaşdırma məhsulların, istilik izolyasiya lövhələrin, nəqliyyat vasitələri üçün əyləc bəndlərin və s. məhsulların istehsalı ilə məşğul olurlar.

Bütün bu yüksək göstəricilər təsadüfi xarakter daşımır. Belə ki, ölkəmizdə fəaliyyət göstərən sənaye parkları və məhəllələrində sahibkarların biznes fəaliyyətini stimullaşdıran, onların vergi və gömrük güzəştləri əldə etmələri üçün əlverişli şərait yaradan 2016-cı ildən tətbiq olunan investisiya təşviqi mexanizmi çərçivəsində indiyədək 600-yaxın layihə təşviq olunub. Yeri gəlmişkən, Prezident İlham Əliyevin 20 dekabr 2022-ci il tarixli müvafiq fərmanı ilə əvvəlki illərin təcrübəsi nəzərə alınmaqla investisiya təşviqi mexanizmi təkmilləşdirilib.

Xatırladaq ki, investisiya təşviqi sənədi 2023-cü il yanvarın 1-dən 3 il müddətində sənaye məhəllələri, aqroparklar, turizm və rekreasiya zonaları, həmçinin müvafiq ərazilərdə həyata keçirilən layihələrə, eləcə də dövlət başçısı tərəfindən müəyyənləşdirilən istiqamətlər üzrə strateji təşəbbüslərə verilib. Təşviq layihələrin icrası nəticəsində iqtisadiyyata 5,6 milyard manatdan artıq investisiya yatırılıb, dəyəri 1,8 milyard manatdan artıq olan texnika, texnoloji avadanlıq və qurğular güzəştli şərtlərlə respublikaya idxal edilib, həmin texnika, texnoloji avadanlıq və qurğuların əhatə dairəsinin dəqiqləşdirilməsi məqsədilə mal mövqelərinin siyahısı təsdiqlənib. Bütün bunlarla bərabər, yeni məhsullar istehsal edən müasir istehsal obyektləri qurulub, ekoloji baxımdan mühüm önəm daşıyan tullantıların təkrar emalı sahəsi istifadəyə verilib.

Onu da qeyd edək ki, sənaye zonalarında yeni müəssisələrin sayının davamlı artması respublikada qeyri-neft sektorunun inkişafına təkan verir, ölkənin ixrac coğrafiyasını genişləndirir, iqtisadiyyatın diversifikasiyasını sürətləndirir və əhalinin məşğulluğunun yüksəlməsini şərtləndirir.

Azərbaycanın sənaye zonalarında yeni məhsullar istehsal edən müasir istehsal zavodlarından söz düşmüşkən, avtomobil buraxılan müəssisələrinin fəaliyyət göstəriciləri ilə bağlı bir neçə göstəricini də diqqətə çatdırmaq istərdik. Az bir müddət əvvəl bu barədə məlumat verən iqtisadiyyat naziri Mikayıl Cabbarov sənaye zonalarında ilk avtomobil istehsalına 2018-ci ildə başlanıldığını, həmin il 712 ədəd avtomobil istehsal edilmişdisə, 2023-cü ildə bu rəqəmin 4233-ə çatdırıldığını, bunun isə 2022-ci illə müqayisədə təqribən 109 faiz artım demək olduğunu bildirib.

Yeri gəlmişkən, sənaye zonalarında istehsal artımı ölkənin idxaldan asılılığını aradan qaldırır, başqa sözlə, valyutanın ölkədən çıxmasının qarşısını alır, ixracı təşviq edir. Bu da, öz növbəsində, sənaye parklarından kənarda fəaliyyət göstərən müəssisələrə qarşı haqsız rəqabətin olmadığından xəbər verir.

Sənaye parklarında yaradılmış əlverişli biznes mühiti və geniş logistik imkanlar, eləcə də bir sıra stimullaşdırıcı tədbirlər xarici şirkətlərin də ölkəmizə marağını artırır. Bunun nəticəsidir ki, sənaye zonalarında xarici kapitallı rezidentlərin sayı da getdikcə artır. Hazırda Sumqayıt Kimya Sənaye Parkında İsveçrə şirkəti olan "Sika" MMC, Çin kapitallı "Azərbaycan Vanhong Ceramics Co." MMC, Birləşmiş Ərəb Əmirliklərinin "SEN-SEMI DMCC" şirkəti, Pirallahı Sənaye Parkında Rusiya-Azərbaycan birgə müəssisəsi olan "R-Pharm" MMC, Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınan Birləşmiş Ərəb Əmirlikləri kapitallı "Expert Services FZE" Məhdud Məsuliyyətli azad zona müəssisəsi, Neftçala Sənaye Məhəlləsində İran-Azərbaycan birgə avtomobil müəssisəsi, Hacıqabul Sənaye Məhəlləsində qeydiyyata alınan "Penoplex Prikavkazye" MMC fəaliyyət göstərir.

Adları çəkilən şirkətlər xarici investisiyaların ölkəyə cəlbində və qeyri-neft sektorunun inkşafında mühüm rol oynayırlar. Onlar yeni texnologiyaların ölkəyə transfer olunmasında, bununla da rəqabətqabiliyyətli əmtəələr istehsal edilməsində daha çox fərqlənirlər. Eyni zamanda, yerli şirkətlər sənaye park və məhəllələrinin yaradılması ilə bağlı beynəlxalq təcrübədən bəhrələnməklə həmin texnologiyalar əsasında yeni milli istehsal müəssisələrinin açılmasına böyük maraq göstərirlər.

Belə müəssisələrdə buraxılan məhsullar, eyni zamanda, keyfiyyətinə görə xüsusi diqqət çəkir. Bu səbəbdən də onların ixrac coğrafiyası getdikcə genişlənir. İndiyə qədər ölkəmizin sənaye park və məhəllələrində istehsal edilən məhsulun, təqribən 32,4 faizinin ixrac olunması da vurğulanan fikrin təsdiqidir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da sənaye park və məhəllələrinin yaradılması xüsusi diqqətdə saxlanılır. Həmin park və məhəllələrin rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, işğaldan azad olunan ərazilərdə fəaliyyət göstərəcək sahibkarlara əlavə güzəştlər tətbiq edilir. Bura sosial sığorta haqlarının subsidiyalaşdırılması, düşməndən təmizlənən yaşayış sahələrində məskunlaşaraq işləyən mütəxəssislərə hər il 5 gün əlavə məzuniyyət verilməsi, aylıq vəzifə maaşına əlavələrin hesablanması, 600 manat birdəfəlik müavinət verilməsi, iş icazələrinin alınmasının sadələşdirilməsi kimi imtiyazlar daxildir. İşğaldan azad olunan ərazidə fəaliyyət göstərən sahibkarın istehsal prosesində istifadə edəcəyi bir sıra xammal və materialların idxalı da 10 il müddətinə ƏDV-dən azad olunur.

***Vaqif BAYRAMOV***
***XQ***

# Ələt Azad Zonası genişlənir

**"Ələt Azad İqtisadi Zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli Fərmanında dəyişiklik edilməsi barədə dövlət başçısı 19 yanvar 2024-cü il tarixli Fərman imzalayıb.**



Sənədə əsasən, İqtisadiyyat Nazirliyinin tərtib etdiyi plana əsasən, Qaradağ və Salyan rayonları inzibati əraziləri daxilində yerləşən sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı sahələr, ehtiyat fondu və kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına aid, habelə dövlət mülkiyyətindəki ərazidən Ələt Azad İqtisadi Zonasına ayrılması nəzərdə tutulub. Bununla da 4 min 312,56 hektar torpaq sahəsi bu zonanın ərazisi qismində müəyyənləşdirilib.

***XQ***




# Könüllü sığorta – 160 milyon manat

**Azərbaycan Mərkəzi Bankından bildirildiyinə görə, 2023-cü il ərzində ölkədə könüllü sığorta növləri üzrə 808 milyon 104 min manat, icbari sığorta növləri üzrə isə 334 milyon 432 min manat sığorta haqqı toplanılıb.**

2022-ci illə müqayisədə könüllü sığorta növləri üzrə toplanan sığorta haqqları 22 faiz və ya 160 milyon manat, icbari sığorta növləri üzrə sığorta daxil olmaları isə 37,8 faiz və ya 91 milyon 681 min manat artıb.

Qeyd edək ki, hesabat dövründə könüllü sığorta növləri üzrə ödənişlərin məbləği 41.9 faiz artaraq 479 milyon 252 min manat, icbari sığorta növləri üzrə ödənişlərin həcmi isə 13 faiz artaraq 108 milyon 72 min manata bərabər olub.

Beləliklə, ötən il könüllü sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqından 54 manat sığorta ödənişi edilib. Bu rəqəm 2022-ci ildə 46,4 manata bərabər olub. 2023 il ərzində icbari sığorta bazarında hər 100 manat sığorta haqqına düşən ödənişin məbləği isə 32,3 manat təşkil edib ki, bu göstərici əvvəlki ildə 39,4 manata bərabər idi.

***XQ***

# Neft-qaz sektorundan büdcəyə 18 milyard manat daxil olub

**2023-cü ildə Azərbaycanın dövlət büdcəsinin neft-qaz sektoru üzrə daxilolmaları 18 milyard 156,4 milyon manat, qeyri-neft-qaz sektoru üzrə daxilolmaları isə 17 milyard 418,4 milyon manat təşkil edib. Bu da əvvəlki ilə müqayisədə müvafiq olaraq 18 faiz və 13,5 faiz çoxdur.**

Maliyyə Nazirliyinin məlumatına görə, ötən il neft-qaz sektoru üzrə büdcə daxilolmalarının 11 milyard 737,6 milyon manatı Dövlət Neft Fondundan transfertlərin (əvvəlki illə müqayisədə 48,1 faiz çox), 6 milyard 418,8 milyon manatı isə vergi daxilolmalarının (13,9 faiz az – Dövlət Neft Şirkətinin vergi ödəmələri, "Azəri-Çıraq-Günəşli" neft yataqları və "Şahdəniz" qaz-kondensat yatağı üzrə mənfəət vergisi) payına düşüb.

***XQ***

# Sovet hərbçilərinin bölgələrdə törətdiyi qətliamlar

## Bakıdan sonra M.Qorbaçovun cəlladları Lənkəran və Neftçalada da nahaq qan axıdıblar

**Moskvadan göndərilən cəza dəstələrinin əli ilə paytaxt Bakıdan uzaq rayonlarda da haqsızlıqlara etirazını bildirən dinc əhali ilə amansız rəftar edilib. Neçə nəfərin həyatına son qoyulub, neçəsi yaralanıb, həbs olunub.**

Yanvarın 25-də hərbi vertolyotlarla Lənkərana gəlib hegemonluq edən silahlılara diviziya komandiri, polkovnik Totski rəhbərlik edirdi. Onlar öz zabitləri – kapitan Kanapilovu arxadan vuraraq, bunun günahını Lənkərandakı milli müdafiə batalyonunun üzvlərinin üstünə yıxıb və xəbərdarlıq etmədən atəş açıblar. Gözlənilən təhlükəni şəhərdən uzaqlaşdırmaq məqsədilə Haftoni meşələrinə çəkilən 350 nəfərlik özünümüdafiə dəstəsinin aqibəti daha faciəli olub.




Hadisələr zamanı Lənkəran rayonunun 6 sakini – Tariyel Abdullayev, Vaqif Məmmədov, Salman Baxşıyev, Şahin Məmmədov, Rahim Məmmədov və Rövşən Bədəlov amansızlıqla qətlə yetirilib. Silahlılar 16 nəfər lənkəranlı gənci həbs edərək, Rusiyanın Ulyanovsk şəhərinə, 30 nəfəri isə Şüvəlan qəsəbəsinə apararaq 30 gün dustaq saxlayıblar. Bakı hadisələri zamanı isə 5 nəfər lənkəranlı şəhadətə qovuşub. Şəhidlərdən biri – Tariyel Abdullayev Ulyanovska aparılarkən vertolyotda boynuna telefon məftili dolayaraq, boğub öldürüblər. Onun meyiti Bakıda "Salyan kazarmaları"nın qabağındakı küçəyə atılmışdı...

**Hadisələr zamanı Haftoni meşəsində olan, təsadüf nəticəsində sağ qalan Lənkəran sakini Hicran Əsədov baş verənləri belə xatırlayır:**

– Yanvarın 19-dan 20-nə keçən gecə işdən çıxıb evə getdik. Televiziyalar işləmirdi deyə, Lənkəran radiosunu açdım. Xəbər verildi ki, Bakıda qırğın olub, "xilaskar" sovet hərbçiləri camaatı qırıblar. Mitinqə toplaşdıq. Kimsə dedi ki, Bakıya köməyə getməliyik, kimin evində nə var – ov tüfəngi və s. götürüb, yola çıxaq (Qəribə görünsə də, adam belə məqamda hətta bıçaqla da köməyə getmək istəyir). Sonra xəbər gəldi ki, daha Bakıya getməyə ehtiyac yoxdur. Biz də gözdə-qulaqda olduq ki, birdən vəhşi hərbçilər Lənkərana gələrlər. Bir neçə gün sonra, həqiqətən də, ordu Lənkəranda peyda oldu. Şəhərdə qarşıdurma olmasın deyə, saat 2–3 radələrində Haftoni kəndi yaxınlığındakı meşəyə getdik. Ruslar snayperlə öz adamlarından birini vurub bizi günahlandırdılar. Halbuki, bizdə avtomat yox idi. Beləcə, şəhidlər verəsi olduq.

Dayım yaralanmışdı, can verirdi deyə, onun yanına gəldim. Bir də gördüm ki, başımızın üstünü rus hərbçiləri alıb. Bizim əl-qolumuzu bağladılar, dayımın meyiti qaldı maşında.

Axşam bizi döyə-döyə vertolyotlara mindirdilər. 30 gündən çox Ulyanovskda həbsxanada qaldıq. Hər gün bizi yoxlayır, əziyyət verir, iynə vururdular… Mən o zaman bel ağrısı, kəllə-beyin travması almışdım. Uzun illərdir ki, müalicə oluram.

**Həmin vaxt məktəbli olan Hüseyn Cəbrayıloğlunun isə yaddaşında Lənkəran olayları belə qalıb:**

– Mənim 15 yaşım vardı. Bakı hadisələrindən sonra artıq Lənkəranda hərəkat fəalları Moskvanın cinayətkar əməllərinə cavab olaraq, yerli hakimiyyət orqanlarını ələ keçirmişdilər. Az qala, bütün ölkə Lənkərandan danışırdı. Məktəbdə müəllimlərin Bakıda qaniçən ordunun günahsız əhalini güllələbaran etməsi barədə söhbətləri hər birimizi qəzəbləndirirdi.

Bakı qırğınından 2 gün sonra Lənkəranda "Şüşəli univermaq" deyilən mağazanın pəncərələrinə "Səhər" qəzetinin xüsusi buraxılışını vurmuşdular. Qəzet bütünlüklə faciəni əks etdirən şəkillərdən ibarət idi. Daha sonra gündəlik mitinqlər başlandı və növbəti faciə Lənkəranda baş verdi. Həmin gündən başlayaraq, səmada dövrə vuran vertolyotlar, Lənkəran şəhidlərinin dəfni və vertolyotlardan səpilən hədələyici vərəqələr indi insana ağrılı bir film kimi gəlir...

Qanla yazılmış tarix bu gün hünər səlnaməsi kimi xatırlanır. 20 Yanvar şəhidləri ilə bərabər, 26 yanvar hadisələri zamanı həlak olmuş 6 nəfərin də adı Lənkəran şəhərindəki Şəhidlər xiyabanında əbədiləşdirilib. 34 ildir ki, yerli sakinlər bu müqəddəs məkanı ehtiramla ziyarət edir, şəhidlərin ruhu qarşısında baş əyirlər...

**Etiraz dalğaları Neftçalanı da bürümüşdü.** Yanvarın 25-də buraya gələn ordu hissələri günortadan sonra rayonun mərkəzinə yetişiblər. Sovet tankları, BTR-ləri küçə və meydanlarda o baş-bu başa şütüyür, əsgərlər heç nəyə baxmadan, Bakıdakı qətliama etirazını bildirən əliyalın insanlara atəş açır, güllələbaran edirdilər. Yoldan ötənlər belə döyülür, vurulub əzilirdilər...

"Qanlı yanvar" qurbanlarından biri Nurəddin Ağahüseynov oldu. O, axşamüstü öz minik maşınında Neftçalanın mərkəzində ikən tanklarla üz-üzə gəldi. Anındaca atəşə tutuldu və neçə güllə yarası aldı. Camaat harayına yetib Nurəddini xəstəxanaya aparsa da, zavallının həyatını xilas etmək mümkün olmadı...

Amansız sovet əsgərlərinin hegemonluğuna etiraz edənlərdən biri də Əbülfəz Cəfərov idi. Cəsarəti, canıyananlığı ilə tanınan Əbülfəz öz həyatını təhlükəyə ataraq, yaralıları əsgərlərin pəncəsindən alıb uzaqlaşdırırdı. O özü də qəfil gülləyə tuş gələrək yerə sərildi və şəhid oldu. Vəhşilər Əbülfəzin barmağını kəsib nişan üzüyünü də götürmüşdülər.

Qanlı yanvar hadisələri zamanı bir çoxları kimi, neftçalalı Şəmsəddin Orucov da həyatını itirdi. O, hərbiçilər tərəfindən evinin pəncərəsindən baxarkən atılan güllə nəticəsində şəhid oldu...

Nefçala faciəsinin şahidləri bildiriblər ki, təcavüzkarlar bununla kifayətlənməyiblər. Hər cür qəddarlığa əl atan sovet əsgərləri hətta şəhərdə 20 Yanvar şəhidlərinin yas mərasimini də atəşə tuturdular. Xıllı qəsəbəsində tank və PDM-ləri şübhələndikləri adamların qapısına sürüb, həyətlərindəki ot tayalarını yandırırdılar. Onlar 50-yə yaxın insanı həbs edərək, Bankə qəsəbəsindəki hərbi hissənin hamamına apardılar və orada günahsızlara xüsusi qəddarlıqla işgəncələr verdilər.

**Publisist İbrahim Nurlu "Neftçalada yanvar qırğını" adlı kitabında yazır:** "Tutulanları döyə-döyə maşınlardan yerə tökürdülər. Rusca kobud ana söyüşləri, yaralananların iniltisi döyülənlərin qışqırığına qarışmışdı. Yerə axan al qan soyuq, çirkli beton döşəməni qızartmağa başladı. Hamamın tünd qoxusuna qan iyi də qarışdı..."



Sonra qəddar əməllərinə haqq qazandırmaq istəyən Neftçala rayonunun hərbi komendantı O.Şeluxinin imzası ilə yayılan riyakar məlumatda göstərilirdi ki, xüsusi qoşun hissələri Neftçalaya daxil olan zaman guya rayon müdafiə şurasının üzvləri silah işlətmiş və buna cavab olaraq onlara atəş açılmışdır. Hadisələr zamanı leytenant Aksyonov adlı qondarma bir zabit ölmüş, bir əsgər isə yaralanmışdır. Guya əhalidə pulemyot, avtomat, tapança və qumbara varmış...

Deyildiyinə görə, SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin "Alfa" Qrupunun üzvləri də Neftçalaya gəlib kəşfiyyat aparıblar. Rayon hərtərəfli blokadaya alınıb. Tutulanları üst-üstə vertolyota yığaraq Bakıya aparan zaman dənizə atmaq istəyiblər, amma nədənsə çəkiniblər.

Sonda qeyd edək ki, işgəncələrdən və aldıqları yaralardan ölənlərlə bərabər, Ramiz Hüseynov, Novruz Dadaşov, Ələkbər Talıbov, Bəxtiyar Ağayev, Məhəmməd Fərziyev, Fərman Hüseynov, Oqtay Orucov, Əliheydər Məmmədov, Abdulla Ağayev və İmamverdi Zeynalov Azərbaycan Respublikasının "Azadlıq uğrunda mübariz" fəxri adına layiq görülüblər.

Əlbəttə, şəhid olanların qanı hədər getmədi. Onsuz da bünövrəsi laxlayan SSRİ dağıldı, zorla müttəfiq elan edilmiş respublikalar müstəqillik qazandılar. Azərbaycan isə ermənilərin işğal etdiyi Qarabağı və Şərqi Zəngəzuru da azad etdi.

P.S: Yanvar hadisələrindən 5 il sonra, 1995-ci aprelin 27-də Mixail Qorbaçov İstanbul şəhərində həmin vəhşi təcavüzlə bağlı deyib: "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi". Amma bu, artıq daldan atılan daş idi...

***Əli NƏCƏFXANLI***
***XQ***

---

**Bizə yazırlar**

# O da şəhid olub...

**Xalqımız 20 yanvarın növbəti ildönümünü qeyd etdiyi bu günlərdə mərhum aktyor Hamlet Xanızadə də yada düşür. Azərbaycanın unudulmaz Əməkdar artistini xatırlamağımız əbəs deyil. 1990-cı il yanvarın 20-də təkcə küçələrdə sovet güllələrinə tuş gələnlər şəhid olmadı, bu siyahı göründüyündən daha böyükdür. Hamlet Xanızadə də o haqsızlığın, o faciənin ağrılarını çox daşıya bilmədi...**



Azərbaycanın teatr və kinosunun tarixinə adı qızıl hərflərlə yazılan bənzərsiz aktyorlardan biri də Hamlet Xanızadədir. İstedadı ilə Həsənəğa Turabov, Həsən Məmmədov, Şahmar Ələkbərzadə, Səməndər Rzayev, Fuad Poladov kimi sanballı aktyorların sırasında özünə yer alıb. Cəmi 49 il ömür sürüb. Amma bu 49 ildə elə uğurlara imza atıb ki, nailiyyətləri ona xalq məhəbbəti qazandırıb, ölməzlik gətirib. Adı daim ehtiramla yad olunur, ruhuna rəhmətlər oxunur. Onun yaratdığı obrazların heç biri tamaşaçı diqqətindən kənarda qalmayıb, yaddaşlarda iz buraxıb.

"Dəli yığıncağı", "İblis", "Ölülər" və s. tamaşalarda Hamletin bütün qəlbi və ruhu ilə oynadığı nə qədər qəhrəmanlar olub. Hər dəfə səhnəyə çıxanda tamaşaçı alqışlarının ardı-arası kəsilməzdi. "O qızı tapın", "Yeddi oğul istərəm" "Axırıncı aşırım", "Arxadan vurulan zərbə", "Qətl günü", "Yaramaz" filmlərindəki bənzərsiz rolları da onun yadigarlarıdır.

Hamlet Xanızadə Bakının Şağan kəndində dünyaya gəlmişdi. Təkcə istedadlı aktyor deyildi, həm də Azərbaycanın qeyrətli oğullarından biri idi. 1990-cı ilin 20 Yanvar hadisələri onu da dəhşətli dərəcədə sarsıtmışdı. Vətənin, xalqın namusunu çəkən, onun yolunda ölməyə hər an hazır olan aktyor, əslində, 20 Yanvar faciəsinin qurbanı oldu. Tez-tez "Şəhidlər xiyabanı"na gedir, şəhidlərin məzarlarını ziyarət edirdi. Növbəti dəfə fevralın 2-ndə, çəkilişdən sonra dostlarıyla birlikdə Şəhidlər xiyabanına yollanır. Orada güclü başağrıları tutduğu üçün dostları onu evinə gətirirlər. Özündə olmadığını görüb təcili xəstəxanaya çatdırırlar. Bir gün reanimasiyada qalandan sonra, səhərə yaxın keçinir. Doğma kəndlərinin qəbiristanlığında torpağa tapşırırlar...

Ruhun şad olsun, Hamlet Xanızadə!

***Elman ELDAROĞLU,***
***şair-publisist***

---

# Qarabağın dirçəlişinə kiçik və orta biznesin köməyi

**İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın canlanması məqsədilə investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi həyata keçirilir. Əsas vəzifə isə azad olunan əraziləri təkcə bərpa etmək deyil, həm də oradakı iqtisadiyyatın ölkə iqtisadiyyatına inteqrasiyasına nail olmaqdır. Bu məqsədlə təbii sərvətlərin, faydalı qazıntıların işlənilməsi böyük perspektiv vəd edir.**

Qarabağ və Zərqi Zəngəzur iqtisadi rayonları da təbii sərvətlərlə zəngindir. Burada müxtəlif növ mineral yataqlar var. Bölgə sink, qurğuşun, mis, qızıl, pirit və dəmir yataqları ilə zəngindir. Müasir istehsal texnologiyalarından istifadə etməklə bu yataqların istismarı yaxın illərdə Azərbaycan iqtisadiyyatına böyük töhfə verə bilər. Bölgə həm də mineral su ehtiyatları ilə cəlbedicidir. Bu sular tərkibində olan müalicəvi elementlər ilə qiymətlidir. Bundan başqa, aqrar sektorun inkişaf etdirilməsi, emal müəssisələrinin yaradılması və onların modernləşdirilməsi üçün geniş imkanlar var.



Genişmiqyaslı bərpa fəaliyyətləri və yeni infrastrukturun qurulması tikinti sektoru üçün də yeni imkanlar açır. Dövlət bu sahələrin, o cümlədən yol nəqliyyatı, mənzil–kommunal təsərrüfatı, ənənəvi və alternativ enerji istehsalı, meliorasiya sistemlərinin tikintisi və s. sahələrin səmərəliliyini artırmaq məqsədilə investisiyalar qoyur. Həyata keçirilən tədbirlər və bögənin iqtisadi potensialı ölkəyə yerli və xarici investisiyaların cəlb edilməsinə zəmin yaradır, sahibkarların fəaliyyətini genişləndirir.

Əlbəttə, azad olunmuş ərazilərdə iri şirkətlərin fəaliyyəti vacibdir və onlar iqtisadi inkişafın, məşğulluğun formalaşdırılmasında böyük yer tutur. Lakin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kiçik və orta biznes (KOB) üçün də geniş imkanlar var. Bu barədə iqtisadçı Ülviyyə Rzayeva deyib: "Zəngin təbii qaynaq bazasına güvənərək və KOB-lara birbaşa və dolayı dəstəyə (infrastrukturun yaradılması, informasiya xidmətlərin göstərilməsi və s.) diqqət yetirərək Azərbaycan hökuməti əlverişli innovasiya mühiti üçün dayanıqlı təməl yaradıb. KOB-lara dövlət dəstəyi tədbirlərinə aşağıdakılar daxildir: texnologiya və maliyyə siyasəti, biznes inkubatorlarının yaradılması, innovasiyaların idarə edilməsi, marketinq və kadr siyasəti. Bir sözlə, sahibkarlar üçün işğaldan azad olunmuş ərazilərdə tikinti, turizm, istehsal, kənd təsərrüfatı məhsulları tədarükü, eyni zamanda, emalı, həmçinin ticarət və müxtəlif növ xidmət sahələrində biznes qurmaq və fəaliyyət göstərmək imkanları var".

Bu siyasətin nəticəsidir ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda istər sənaye, istərsə də kənd təsərrüfatı müəssisələri fəaliyyət göstərir. Bu müəssisələrin maliyyələşməsində İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu (SİF) da yaxından iştirak edir. Fond aqrar sektorda emal müəssisələrinin yaradılması və mövcud emal müəssisələrinin modernləşdirilməsi və ya genişləndirilməsi üçün güzəştli kreditlər verir. Bu siyahıya aqropark və fermer təsərrüfatlarının yaradılması və ya genişləndirilməsi, ətlik və südlük istiqamətli cins iribuynuzlu və digər heyvandarlıq komplekslərinin yaradılması, əkinçilik, intensiv bağçılıq və tingçilik təsərrüfatlarının yaradılması, qüvvəli yem və ət kəsimi müəssisələrinin yaradılması və ya genişləndirilməsi, pambıqçılıq, tütünçülük, baramaçılıq və üzümçülük təsərrüfatlarının yaradılması və sair daxildir.

Bu barədə SİF-in İdarə Heyətinin sədri Osman Xaliyev 2023-cü il üzrə fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə dair mətbuat konfransında deyib: "2023-cü ildə SİF tərəfindən ümumi dəyəri 459,9 milyon manat olan 3276 investisiya layihəsinin maliyyələşdirilməsinə 193,8 milyon manat güzəştli kredit verilib. Güzəştli kreditlərin 72 faizi regionların, 28 faizi isə Bakı şəhəri və Abşeron iqtisadi rayonunun payına düşür. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən 4 layihəyə güzəştli kredit ayrılıb. Bu layihələrə ayrılmış güzəştli kreditlərin ümumi məbləği 11,5 milyon manat olub".

Fondun partnyorlarla iş şöbəsinin müdiri İsmayıl Hüseynov isə bildirib ki, SİF 2022-ci ildən etibarən işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək göstərir. "2022–2023-cü illər ərzində azad olunmuş ərazilərdə fəaliyyət göstərən yerli sahibkarların 7 layihəsinin maliyyələşdirilməsi üçün Fond tərəfindən 14,4 milyon manat güzəştli kredit verilib. Cari il ərzində də işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən sahibkarların dəstəklənməsi prioritetlərdən biri kimi qalır. Əlavə olaraq qeyd edim ki, SİF-in işğaldan azad olunmuş ərazilər üçün əlavə dəstək mexanizmi işə başlayacaq".

Qeyd edək ki, qarşıdakı illərdə maliyyə dəstəyi, stimullaşdırıcı tədbirlər daha da genişlənəcək. Tətbiq olunan güzəştlər iri sahibkarlarla yanaşı, kiçik və orta sahibkarların işğaldan asad olunmuş ərazilərə marağını daha da artıracaq. Onların bölgəyə marağını artıracaq digər amil isə logistik mərkəzə çevrilməsidir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının beynəlxalq və regional nəqliyyat-logistika mərkəzinə çevrilməsi sahibkarların qlobal bazarlara çıxış imkanlarını artıracaq. Bu, işğaldan azad edilmiş ərazilərin inkişaf etdirilməsində əhəmiyyətli rol oynayacaq. Həmçinin iki əsas məsələnin həllinə–dayanıqlı məskunlaşmanın aparılması və bölgənin ümumi iqtisadi fəaliyyətə reinteqrasiyasına xidmət edəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Media və milli maraqlar

# İnformasiya məkanında əsas meyar peşəkarlıqdır

## “Xalq qəzeti”nin müsahibi APA-Media Qrupun baş direktoru, Əməkdar jurnalist Vüsalə Mahirqızıdır

**Vüsalə xanım, APA ölkənin informasiya məkanında ciddi mövqeyi olan media qurumu kimi özünü ilk vaxtlardan təsdiqləyib. Buna necə nail olmusunuz?**

– Əvvəla, onu qeyd edim ki, APA-nın meydana gəlməsi Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 20 illik dövrdə ölkəmizdə müstəqil mediaya yaradılan şəraitin nəticəsidir. Bu müddət ərzində biz kiçik bir kollektivdən Cənubi Qafqazın ən böyük media qurumlarından birinə çevrilə bilmişik. Bunun üçün tək yaxşı idarəçilik deyil, eyni zamanda çox yaxşı kollektiv, reklam imkanları, xəbər və xəbər təminatı lazımdır. Media şirkəti elə bir strukturdur ki, pulunuz çox olsa belə, xəbər təminatı, xəbərlə işləmək üçün şəraitiniz yoxdursa, gördüyünüz iş heç kim üçün maraqlı olmayacaq. Burada əsas eksklüzivliyi təmin etməkdir. İnamla təsdiqləyə bilərəm ki, bəli, bu gün dövlət dəstəyi ilə APA Azərbaycanda dünyanın istinad etdiyi əsas xəbər qaynaqlarından birinə çevrilə bilib.




İkinci məsələ peşəkarlıqdır. Ənənəvi qəzetçilikdən transfer edilmiş insanlar daha peşəkar olurlar. Biz də bu üstünlüyümüzlə mürəkkəb bir regionda yerləşən ölkənin aparıcı media subyekti sayılırıq. Ümumiyyətlə, istənilən məkanda medianın siyasi gücü, həmin ölkənin özünün geopolotik gücünə adekvatdır. Çox varlı ölkələr var ki,




onların dünyanın geopolitik nizamında gücü yoxdur. Azərbaycanın son illər ərzində regionda güclənən mövqeyi,Vətən müharibəsindəki zəfərimiz və ondan sonra baş verən geopolitik dəyişikliklərlə həmahəng olaraq milli mediamızın da rolu artıb, ona maraq da yüksəlib. Biz sözügedən proseslərdə kifayət qədər fəal, peşəkarcasına çalışdıq. Bizim jurnalistlərin yazdıqlarına transmilli medialar da etibar edir və bunlardan bəhrələnirlər. Ümumilikdə, Azərbaycan mediasının inkişaf dinamikası fərəh doğurur.

**İnkişafdan söz düşmüşkən, bu günlərdə APA-nın fransız dili bölməsi fəaliyyətə başladı. Düzdür, fransız dili dünyanın 6 geniş yayılmış dilindən biridir. Amma APA-nın bu layihəsi son aylar Fransa–Azərbaycan münasibətlərində olan gərginliklə eyni vaxta təsadüf etdi...**

– Hazırda APA agentliyi Azərbaycan, ingilis, rus və fars dilində fəaliyyət göstərir. Əslində, 2018-ci ilə qədər bizim fransız dilində də xidmətimiz olub. Əlbəttə, Fransa Avropa Birliyinin böyük ölkələrindən biridir. Amma təəssüf ki, dünyaya demokratiya dərsi keçməyə çalışan ölkələrin özləri müstəmləkəçilik sistemi ilə çalışırlar. O müstəmləkələrin özlərində belə fransızdilli insanlar çoxdur. Gərək onların da obyektiv, qərəzsiz informasiya almaq imkanı olsun.

Görünən ondan ibarətdir ki, biz ikili standartları nəzərə almalıyıq. Bu ikili standartlar həm Azərbaycana qarşı, həm də Qarabağ məsələsində özünü göstərir. Fransanın yerli ictimai rəyi formalaşdıran əksər media orqanlarının çoxu o qədər qərəzlidir ki, bu, hətta ermənilərin barışdığı məğlubiyyəti bir çox fransızların həzm edə bilməməsinə səbəb olur. Təbii ki, mən burada Fransa mediasını, ermənipərəst senatorları, korafəhm ziyalıları nəzərdə tuturam.

Fransa hər zaman mədəni sivilizasiyanın təmsilçisi kimi özünü göstərib. Təəssüflər olsun ki, müsəlman Şərqinin tanınmış şairinin, mesenat bir qadının – Natavanın heykəlinə qarşı edilən barbarlıq da məhz Fransada baş verdi. Bu ölkənin hazırki hakimiyyəti öz tarxi imicinə hörmət etsəydi, bu cür vandallığa rəvac verilməzdi.

Biz uzun illər işğala, genosidə məruz qalmış torpaqlarımıza qayıtdıq. Şuşaya qayıdışımızın ilk böyük tədbirləri nələrdən ibarət oldu? Xarı Bülbül musiqi festivalı, Vaqif Poeziya Günləri, kulinariya tədbiləri təşkil edildi. Bir sözlə, biz Şuşaya musiqi ilə, şeirlə, mədəniyyətlə getdik, Qarabağda dünya mədəniyyətinə töhfə verəcək, multikultural dəyərləri təbliğ edən tədbirlər həyata keçirdik. Yəni Fransanın danışdığı, amma əməl etmədiyi dəyərləri biz təbliğ etdik. Bu baxımdan, biz fransız ictimiayyətinə, fransızca düşünən insanlara Azərbaycan həqiqətlərini məhz onların anladığı dildə çatdırmağı hədəflədik. Hər xalq istəyir ki, öz dilində informasiya alsın. Ona görə də, həm Fransa ictimaiyyətinin, həm də fransızdilli ölkələrin əhalisinə çıxış imkanımızın asanlaşdıracaq bir addımı atmışıq.

**Bu gün Azərbaycan yazılı və vizual informasiya vasitələri haqqında müəyyən tənqidi fikirlər səslənir. Xüsusilə, özəl telekanallar daha çox tənqid hədəfinə çevrilir. Səbəb kimi də jurnalistikanın əsas meyarlarından biri olan maarifləndirmə funksiyasının tamamilə kənara qoyulması əsas gətirilir. Buna səbəb nədir?**

– Bilirsinizmi, insanların bir çoxu hansı verilişi daha çox tənqid edirsə, həmin verilişlərə daha çox baxır. Təkcə bizdə yox, dünyanın hər yerində KİV-in əyləndirmə funksiyası, maarifləndirmə və məlumatlandırma funksiyasından önə keçib. Dünyada da media nümayəndələri ilə ekspertlər fikir ayrılığındadırlar. Bir qrup düşünür ki, maarifləndirmə və məlumatlandırma medianın əsas vəzifəsi olmamalıdır. O ancaq xəbər vermə öhdəliyini daşımalıdır. İstənilən cəmiyyətlə dövlətin əlaqə vasitəsi, əsasən, ziyalılardır, mediadır. Sosial media da bura daxildir.

Əlbəttə, bəzi verilişlərdə həmkarlarımız özlərini müstəntiq kimi aparırlar, qeyri-peşəkar, qeyri-etik münasibət sərgiləyirlər. Bu, səviyyə söhbətidir. Amma dövlətin bu sahəyə baxan strukturlarını da qınamaq olmur. Əgər insanlar bu kimi verilişlərə baxmaq istəmirlərsə, qoy, kanalı dəyişsinlər. Məsələn, bu gün AZTV-nin Mədəniyyət kanalı var. Kifayət qədər peşəkar, mədəni, görkəmli ziyalılarımıza yer verən kanallarından biridir. Dünyanın bir sıra ölkələrində də bu kimi kanallar mövcuddur. Yəni alternativlər var, sadəcə bilmək və bəhrələnmək lazımdır.

Bir məsələ də tələb və təkliflə bağlıdır. İndi bəzi ziyalılırımız deyirlər ki, niyə görə TV-lər və saytlar biznes yönümlüdürlər. Bunun başqa yolu yoxdur. Əlbəttə, biznes yönümlü olmalıdırlar. İnsanların gözü tərəzidir. Baxırsan ki, sosial şəbəkədə böyük bir ziyalımızın çıxışından, hansısa xanəndəmizin ifasından videolar paylaşılır və minlərlə baxış sayı olur. Şou proqram aparıcıları bunu görsələr, bəlkə də dəyişib bu formata keçərlər.

Baxı, bu yaxınlarda Əməkdar artist Aygün Bəylər dünyasını dəyişdi. İnsanlar yenə də eyni qınağı edirdi. Bir qısım isifadəçi sosial şəbəkələrdə qeyri-səmimidir, onlar özləri kimi görünmək istəmirlər. Təxmini hesablasaq, Aygün Bəylər haqqında müsbət fikir yazanlar 1 milyon ətrafında idi. O 1 milyonun 100 mini 3 min manat civarında pul xərcləyib şənliklərinə Aygün Bəyləri çağırsaydılar, bu, 300 milyon vəsait edərdi. Lakin bu insanların heç biri bunu etmir. Aygün Bəylərlə bağlı bütün işi Azərbaycan dövləti, Heydər Əliyev Fondu görüb. Prezident Administrasiyası məsələni diqqətdə saxlayıb, Mədəniyyət Nazirliyi, hökumətdə təmsil olunan cavabdeh şəxslər onun dəfninə kimi bütün işləri yerinə yetirib.

Deyək ki, televiziyalarda zövq korlayan, buna görə də tənqid olunan bütün verilişlər yığışdırıldı. Axı YouTube kanalında, Tik-tok platformasında, İnstaqramda, Facebookda həmin kontentlər var, hər cür kontent tapmaq olar. Özü də həmin platformalarda yüksək baxış sayı yığan kontentlər televiziyada pislənənlərdir. Paradoks yaranır, deyilmi?

Biz şirkət olaraq bütün sosial şəbəkələri monitorinq edirik. Deyirlər ki, Tik-tok, YouTube kimi şəbəkələrdə ciddi adamlar yoxdur, onun üçün qeyri-ciddi adamlar bu platformalara baxırlar. Tamamilə səhv fikirdir. Tik-tokda ziyalı həkim də, hüquqşünas da, müəllim də var. İnsanların seçimi öz aralarından çıxan, onlara daha səmimi gələn, hətta bir az da ağıl öyrədə biləcək insanlardır. Televiziyalarda mənim də qəbul etmədiyim peşəkarlar var. Amma onların “doza”nı artırmasının səbəbi sosial mediaya adekvat olmaq istəyidir. Buna pis baxmaq olmaz. Çünki sosial medianın funksiyası ağıllı görünüb, heç kimin baxmadığı platforma olmaq deyil. Medianın məqsədi daha çox insanı əhatə etmək, məlumatlandırmaq, əyləndirmək və daha çox oxunmaqdır.

**Bəs, bu yanaşmaya maarifləndirici elementləri də əlavə etmək olmazmı?**

– Bəli. Oradakı ekspertlər fikirlərini təhqirsiz də bildirə bilərlər. Yaxud hansısa hüquq eksperti çıxışında emosional notun içərisinə qanunun müvafiq maddəsinə istinadı da çox sakit tərzdə edə bilər. Nəticədə, insanların ağlında, şüurunda qala bilər ki, bu hadisəyə görə bu maddə var. Bax, bu, artıq maarifləndirmə olar. Doğrudur, mən medianın dərs keçməsinin, ağıl öyrətməsinin qəti əleyhinəyəm. Amma maarifləndirmə, təbliğat, təşviqat çox sakit tonda gedə bilər.



**Vüsalə xanım, sosial media barədə ağrılı məsələlərə toxundunuz. Xüsusən də Tik-tokla bağlı. Düzü, əvvəl bu şəbəkə qeyri-ciddi platforma kimi dəyərləndirilirdi. Hətta müvafiq qurumlara çağırış edilirdi ki, Tik-toku bağlasınlar. Amma bu şəbəkəyə daxil olanda görürdün ki, nəyə çox baxırsansa, onu da qarşına çıxarır. Alqoritm belə qurulub.**

– Ümumiyyətlə, sosial şəbəkələrin hamısında alqoritim elə işləyir. Bu da var ki, YouTube və Tik-tokda qarşınıza çıxan videoya “maraqlandırmır” vurursunuzsa, onu qarşınıza bir də çıxarmır. Süni intellekt bunun üzərində qurulub. Orada bir tor qurulur, şəbəkə yaradılır, insanlar o torun işərisində həmfikirlərini tapırlar. Hansısa bir hadisə baş verir, biri yazır ki, bütün ölkə bundan yazır. Amma bütün ölkə bundan yazmır. Onun maraq dairəsində olan adamlar bundan yazır. Bu adam da hesab edir ki, bütün ölkə bundan yazır.

Sosial medianı ciddi qəbul etmək, oradakı trendlərə ciddi yanaşmaq lazımdır. Tik-tok şəbəkəsi ölkə əhalisinin ən çox istifadə etdiyi və vaxt sərf etdiyi şəbəkədir. Bunu monitorinqlərə əsaslanıb deyirəm. Oradan necə istifadə etmək isə hər kəsin öz qabiliyyətinə və dünyagörüşünə bağlıdır. Gənclərə də sosial mediadan səmərəli istifadə təşviq olunmalıdır. Eləcə də dilimizin təmizliyi istiqamətində işlər görülə bilər. Sosial şəbəkə bu istiqamətdə önəmlidir. Sosial şəbəkədə “ok, tşk” kimi amorf dillər yaradılır, bu, olmaz.

Cənab Prezidentin son müsahibəsində əsas tezislərdən biri məhz növbəti mərhələ üçün ölkənin yeni milli ideologiyasının yaradılması idi. Burada da dil, milli kimlik məsələsi ortaya çıxacaq. Bunun üçün mediada da ictimai müzakirələr açılacaq.

**Medianın yaşaması üçün reklam bazarı lazımdır. Azərbaycan mediasında bu durum necədir?**

– Mən mediaya dövlət dəstəyinin çox olmasının tərəfdarı deyiləm. Həmişə elə hesab eləmişəm ki, rəqabət mühiti olmalıdır və biznes fonunda hər qurum özünü ayaqda tutmalıdır, inkişaf eləməlidir. Bu illər ərzində Azərbaycan mediasının, xüsusən də ənənəvi çap mediasının ayaqda durmasına dövlətin böyük dəstəyi olub. Bu, Azərbaycan tarixi üçün də önəmli addımdır. Nə qədər internet desək də, ənənəvi çap mediası ölkənin tarixidir. İndiki tendensiya onu göstərir ki, media müxtəlif biznes əlaqələri vasitəsilə inkişaf etməlidir. Burada tək reklamdan söhbət getmir. Müxtəlif layihələrdə, tenderlərdə iştirak etmək olar.

İnsanların hava, su kimi məlumat almaq ehtiyacı var. Bu ehtiyacı yerli media ödəmirsə, mütləq xarici resurslar daxil olacaq və informasiya təhlükəsizliyi məsələsi meydana çıxacaq. Bu da milli təhlükəsizlik məsələsidir. Bu baxımdan, media sosial şəbəkədə aktiv olmalıdır.

**APA-nın beynəlxalq təcrübədən yararlanması maraq doğurur. Media korporasiyaları ilə əməkdaşlığınız hansı səviyyədədir?**

– Bir çox ölkələrin, xüsusilə, Türkiyə, Rusiya, İranın media qurumları ilə ikitərəfli əməkdaşlığımız var. Bir beynəlxalq təşkilatla danışıqlar aparılır, müsbət nəticə gözləyirik. Son olaraq, Şuşa Beynəlxalq Media Forumu çərçivəsində müxtəlif qurumlarla görüşdük. İndiki zamanda mənim üçün prioritet olan eksklüziv xəbərlərin verilməsidir. İnternet domen yaşı çox olan, etibarlı media qurumundan istənilən media qurumu xəbərlərini götürür, yayır. Bəzən şirkətimizə xarici media holdinqləri zəng edir, müəyyən xəbərləri, şəkilləri istəyirlər. Beynəlxalq tədbirlərə qatılırıq. Əməkdaşlarımızı müəyyən treninqlərə, seminarlara göndəririk.

**Müsahibəni apardı:**
***Anar TURAN***
***XQ***

Türkün dünya şöhrəti

# “İstiqlal” marşı Almaniya auditoriyasını necə fəth etdi?

## Populyar TV proqramında Türk Milli Marşı ayaqüstə dinlənildi

**Uzun illər Rusiya, Amerika, İtaliya və Yaponiyanın elmi tədqiqat mərkəzlərində çalışmış, 90-cı illərin əvvəllərində isə "Türk Dünyası Araşdırmaları Vəqfi"-nin qurucusu, professor Turan Yazqanın dəvəti ilə Türkiyəyə gələrək strateji mərkəzlərdə elmi fəaliyyətini davam etdirən türk sevdalı soydaşımız, Bilkənt Universitetinin professoru, fizika-riyaziyyat elmləri doktoru Əmirulla Məmmədovun sosial şəbəkələrdə yaydığı bir xəbər qürür və məmnunluqla qarşılandı. Xəbərin aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

Almaniyanın ZDF televiziyasında yayımlanan “Siz mərc etmək istəyirsinizmi?” yarışma proqramına qatılan isveçrəli vəkil Maykl Sauser 188 ölkənin milli marşını oxuya biləcəyini elan edir. Onun təklifi qəbul olunur və yarışma günü münsiflər heyətinin qərarı ilə 5 ölkənin milli marşının ifa etməsi qərarlaşdırılır. Marşı təqdim olunacaq ölkələr Çin, Misir, Tailand, Bosniya–Herseqovina və Türkiyə olur.

Maykl Sauser ilk 4 ölkənin marşını təqdim etdikdən sonra münsiflər onun çıxışını yüksək səviyyədə bəyənir və Türkiyə Milli Marşının oxunmasına ehtiyac olmadığını elan edir. Amma Maykl Sauser qərara etiraz olaraq “madam ki, Türkiyə bayrağını seçmisiniz, Türkiyə marşını da ifa etmək istəyindəyəm” – deyir.

Münsiflər heyəti və aparıcı onun tələbi ilə razışır. Orkestr hazırlığa başlayanda Maykl Sauser salona üz tutur və yenidən təkidlə tələb edir: “İstiqlal marşı” ayaq üstə dinlənilməlidir, xahiş edirəm ayağa durun…

Çaşqınlıq və təlatüm yaşayan auditoriya az sonra Mayklın bu “xahiş”ini də yerinə yetirməli olur və salon onun möhtəşəm ifasını sürəkli alğışlarla qarşılayır...

Sözardı: Maykl Sauser İsviçrəli vəkildir. 21 sentyabr 1973-cü ildə Sürixdə doğulub. Orada ali hüquq təhsili alıb. O, müxtəlif ölkələrinin milli marşını söyləməklə dünya rekordu qazanıb. Maykl Sauser 1998-ci ildə Lozannadakı Olimpiya Muzeyində belçikalı pianoçu Gilbert de Greevenin müşayiəti ilə dünya dövlət himnlərinin orijinal dillərdə oxuduğu "Milli himn marafonu"nun təşkilatçısı olub və bu uğuru ilə Ginnesin rekordlar kitabına düşüb. 1998-ci ildə isə o, “Siz mərc etmək istəyirsinizmi?” proqramında iştirak üçün münsiflər heyəti tərəfindən Frankfurta dəvət olunub, münsiflər heyətinin tələb etdiyi 5 dövlət himnini musiqi qrupunun müşayiət ilə ifa edib, 71 faiz səs qazanaraq yarışmanın qalibi olub.


Alman ZDF Televizyonun da Thomas Gottschalk'in sunduğu "Bahse Var mısın" adlı yarışma programına başvuran İsviçreli Michael Sauser 188 ülkenin Ulusal Marşını notasıyla birlikte söyleyebileceğini iddia etti.

Yarışma isteği kabul edildi ve yarışma günü jürinin seçtiği beş ülkenin Ulusal Marşının okunması kararlaştırıldı, seçim yapıldı ve Marşları okunacak ülkeler sırayla Çin, Mısır, Tayland, Bosna Hersek ve Türkiye idi.

Michael Sauser, ilk dört ülkenin Marşını başarıyla okuyunca jüri yeterli bularak yarışmayı kazandığını söyledi ve Türk Ulusal Marşının okunmasına gerek olmadığını söyledi, ancak Michael Sauser " Hayır madem ki Türk Bayrağını da seçtiniz Türk Ulusal Marşını da söylemek istiyorum "dedi.

Bunun üzerine jüri ve yapımcı kabul etmek zorunda kaldı. Orkestra hazırlandığında Michael Sauser salona dönerek " Yanlız Türk Ulusal Marşı ayakta dinlenir kalkmanızı rica ediyorum " dedi. Katılımcıların Şaşkın davranış ve bakışları biraz sonra Michael Sauser' un ricasını yerine getirmeye dönüştü. Ve Michael Sauser o güzel aksanıyla Türk Ulusal Marşı'nı muhteşem şekilde icra etti.

Öyle 10 kişiye 15 kişiye yollamazsanız hiç bir şey olmaz bu tarz şeyleri yollayacaksınız ki insanlara, biraz hız duysunlar Türk oldukları için övünsünler...

İsveçrəli hakimin dünya himnlərindən ibarət 5 CD diski “Koch Verlag“ şirkəti tərəfindən buraxılıb.

Maykl Sauzer Vyanada yaşayır və opera müğənniləri üçün menecment şirkətində çalışır.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# MŞ-də Əməkdar jurnalistin yubiley mərasimi

**Dünən Azərbaycan Mətbuat Şurasında “Ədalət” qəzetinin baş redaktor müavini, şair-publisist, Əməkdar jurnalist Əbülfət Mədətoğlunun 65 illik yubileyi qeyd edilib.**




AMŞ sədri Rəşad Məcid təcrübəli jurnalistin çoxillik yaradıcılıq yoluna nəzər salaraq bildirib ki, 1980-ci ildə “Təşviqatçı” jurnalında fəaliyyətə başlayan Əbülfət Mədətoğlu sonrakı illərdə “Araz”, “Qarabağ”, “Azərbaycan ordusu” qəzetlərində çalışıb. 1992-ci ildən “Ədalət” qəzetinin baş redaktor müavinidir. O, peşəkar jurnalist fəaliyyəti ilə yanaşı, davamlı bədii yaradıcılıqla da məşğul olub, dəyərli poeziya və nəsr nümunələri yaradıb. Həmkarımız nüfuzlu yaradıcılıq mükafatlarına layiq görülüb.

Rəşad Məcib çoxillik səmərəli jurnalist fəaliyyəti və 65 illik yubileyi münasibətilə Əbülfət Mədətoğluya AMŞ-nin Xatirə diplomunu təqdim edib.

Mərasimdə çıxış edən Milli Məclisin deputatı, “Ədalət” qəzetinin təsisçisi Aqil Abbas, AMŞ İdarə Heyətinin üzvü, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, Qarabağ qazisi, ehtiyatda olan polkovnik Mirqiyas Seyidsoylu, şairə Kəmalə Abıyeva, yazıçı-publisist Ramiz Göyüş, jurnalist Vəsimə İsmayılqızı və başqaları yubilyarı səmimi qəlbdən təbrik edib, ona yeni uğurlar arzulayıblar.

Sonda Əbülfət Mədətoğlu yaradıcılığına verilən yüksək dəyərə və xoş sözlərə görə iştirakçılara təşəkkürünü bildirib.

**T.RÜSTƏMLİ**
**XQ**

Kino və azadlıq

# Fransanın Əlcəzair soyqırımı ekranda

**Xalq şairləri Rəsul Rzanın, Bəxtiyar Vahabzadənin timsalında Fransa müstəmləkəçiliyinə qarşı dəyərli əsərlər yazılıb. Azərbaycan Fransanın bədnam siyasətini təkcə bədii sözlə qamçılamayıb. Ölkəmizə qarşı qərəzi ilə seçilən hazırkı Fransa hökumətinin neomüstəmləkəçi siyasətini rəsmi Bakı bu gün də ciddi dəlillərlə ifşa edir.**

Məlum olduğu kimi, Fransa 1830-cu ildə Əlcəzairi işğal edib. İstila nəticəsində Əlcəzair xalqı Fransanın hərbi-siyasi müstəmləkəsinə çevrilib. Fransızlar orada güclü assimilyasiya siyasəti həyata keçiriblər. 1954-cü ildən 8 il azadlıq uğrunda savaş aparan əlcəzairlilər 1962-ci ildə müstəqilliyə qovuşublar. Amma sonrakı dövrdə Fransa da daxil olmaqla Qərbin bu ölkəyə təzyiqi davam edib. Ümumiyyətlə, Fransa Əlcəzairdə 100 minlərlə insanı soyqırımına məruz qoyub.

Əlcəzairdə gedən mübarizə kinonun da diqqətini cəlb edib. 1966-cı ildə italiyalı rejissor Gillo Ponteqorvo “Əlcəzair müstəqillik müharibəsi” filmini ekranlaşdırıb. Bu film dünya kinosunun ilk 100-lüyünə daxil edilib. Filmdə 27 yaşında həlak olan Əli Əmmarın (İbrahim Haqiqaq) taleyi fonunda əlcəzairlilərin istiqlalliyyət savaşı işıqlandırılır. Obrazların çoxu real tarixi şəxslərdir. 12 yaşından məhbəslərə düşən Əli Əmmar növbəti dəfə həbs ediləndə onun taleyində dönüş baş verir. Vətəninin azadlığı uğrunda mübarizə aparan daha bir fədai “Yaşasın Əlcəzair!” deyə-deyə edam olunur. Edam konteksində həbsxananın geniş planda göstərilməsi Əlcəzairin müstəmləkə olmasını ifadə edir. Biz bu vaxt Əlinin gözlərini görürük. Baxışlardakı ifadə onun azadlıq uğrunda sonuna qədər savaşacağının mesajını verir.






Məhbəs içində olan ölkənin yeganə çıxış yolu isə milli azadlığa nail olmaqdır. Əlcəzair Müqavimət Cəbhəsinin də istəyi bu amal üzərində qurulub. Azadlıq mücahidləri təkcə müstəmləkəyə qarşı mübarizə aparmırlar. Onlar əlcəzairlilərin pis vərdişlərdən, xüsusilə də narkotik maddələrdən uzaq durmalarına çalışırlar. Axı, azadlıq uğrunda yalnız sağlam xalq mübarizə apara bilər. Əli Əmmar da bu mübarizənin önündə olan şəxsə çevrilir. O, Kasbah şəhərində müqavimətçilərin qanunlarını pozanlara qarşı amansız mübarizə aparır.

Fransa müstəmləkə zehniyyəti əlcəzairliləri siçan kimi görür, onlara insan kimi baxmaq istəmir. İki gəncin timsalında bu zehniyyətə üsyan görürük. Mahmud və Fatihə adlı gənclərin Əlcəzair adət-ənənəsinə uyğun şəkildə evlənməsi filmin əsas ideyasına xidmət edir. Belə ki, bu cütlük o zamana qədər Fransa müstəmləkə sisteminin qanunlarına əsasən ailə qurmaqdan imtina edirlər. Onların nikahını Müqavimət Cəbhəsi təşkil edir. Evlənən cütlük müstəqil Əlcəzairin ilk ailəsinə çevrilir.

Azadlıq mücahidləri müstəmləkə sisteminin dayaqlarına qarşı əzmlə mübarizə aparırlar. Bir gündə 4-5 polisin öldürülməsi Fransa müstəmləkəçilərini narahat edir. Bu zaman mücahidlərin üzərinə hərbçi Filip Matyunu (Jan Martin) göndərirlər. Müstəmləkəçi obrazını ifa edən F.Matyu 400 min ərəbin onlara düşmən olmadığını deyərək özünə toxtaqdlıq verməyə çalışır. O elə düşünürdü ki, əlcəzairlilərin az qismi müqavimətçiləri müdafiə edir. F.Matyuya isə, ən böyük zərbə öz həmvətini Jan Pol Sartrdan gəlir. O, Fransanın müstəmləkəçiliyinə qarşı çıxan şəxslərdən biri olur. Yeri gəlmişkən qeyd edək ki, J.P.Sartr daxil olmaqla Fransanın 121 ziyalısı bu ölkənin müstəmləkə sisteminə qarşı çıxmışdı. Fransa ordusunun məqsədi Müqavimət Cəbhəsini kiçik qrup kimi təqdim edərək, dünyanı aldatmaq olur. Lakin direnişçilərin radikal mübarizə üsulundan tətil mübarizəsinə keçid etməsi müstəmləkəçilərin işini çətinləşdirir. Artıq Fransa bu zamana kimi, qətllərə məruz qalan əlcəzairlilərdən qorxmağa başlayır. Çünki Əlcəzair məsələsi artıq BMT-nin gündəminə gəlir. Əlcəzair xalqının mütəşəkkilliyi Fransa müstəmləkəçiliyi ifşasına xidmət edir. Filmdəki azadlıq ideyası bu şəkildə öz həllini tapır.

Filmdə Qərb insanının soyuqqanlı obrazına da diqqət çəkilir. Barda əylənən insanlar üzbəüz məkanda partlayışı görürlər. Lakin onlardan heç biri buna əhəmiyyət vermir. Onlar faciəyə tamaşa edərək əyləncələrinə davam edirlər. Daha sonra isə partlayış nəticəsində özləri də ölürlər. Filmdə Fransanın qəddarlığının həm də qərb insanının etinasızlığı nəticəsində meydana çıxdığı fikri ortaya qoyulur.

Əli Əmmar, Həlimə kimi azadlıq fədailəri həlak olsalar da, Əlcəzair öz istiqlalına qovuşur. Çünki bu ideyaya artıq 100 minlərlə əlcəzairli inanır və mübarizəyə qoşulur. Fransa müstəmləkəçilərinin etiraz edənlərə üz tutaraq səsləndirdiyi “Nə istəyirsiz?” sualına xalq birmənalı olaraq “İstiqlal” cavabını verir.

Onu da deyək ki, ekran işində əksər epizodlar daha çox sənədli film kadrları kimi göstərilir. Bu da filmin gerçək olaylar üzərində qurulduğunun təsdiqidir.

Qoy, bu gün işğalçı ermənipərəst siyasət yürüdən, revanşizmi körükləyən Fransa başbilənləri tarixdən ibrət götürsünlər.

***Ceyhun MİRZƏLİ,***
***kulturoloq-kinoşünas***

Yurdun ulu səsləri…

# “Səsindən asılım, ay qara zurna!...”

**Qərbi Azərbaycanın Loru mahalının Dəmirçilər kəndindən didərgin düşən Mahmud Məhəmməd oğlu ən yaxşı qara zurna ifaçısı kimi Borçalı çökəyində toylarda həmişə başa çəkilərdi. Ötən əsrin son illərində rəhmətlik Mahmud kişi ilə görüşüb söhbət edəndə ömrünün 85-ci qışını yaşayırdı. Bir neçə il sonra eşitdim ki, ömrünü nəvə-nəticələrinə tapşırıb, haqq dünyasına köçüb. Amma onun nisgilli səsi, sözü-söhbəti yaddaşıma, qəlbimə hopub...**



Onun bu dediklərini olduğu kimi xatırlayıram: “A bajıoğlu, indi ki, bunları yazırsan, bir xeyri olajaxmı? Ata – bava yurdlarımızı qayıtmağımızı deyirəm, dana!... Belə də qiyamat olarmı ki? Bir çətən oğul – uşaq, nəvə-nəticə var, hərəmiz bir yana pələsəng olmuşuq. Bax, 12 uşaq özümün olub, 20-dən çox nəvəm, 20-yə yaxın nəticəm var. Qızımın oğlu da Qarabağda şəhid oldu”.

Öz eli-obası olanda dünya gözəl idi. Uşaq vaxtından öyrənmişdi qara zurnada çalmağı. Ustadı hamamlı Alı olub. Anasının dayısı Qurban, dayısının oğlu Xalıl da zurnaçıymış. Xalıl öləndə arvadına vəsiyyət edibmiş ki, olmaya-olmaya, zurnalarımı satasan, ha! Mahmuda bağışlayarsan. Mahmud qara zurnada dərdlərimizi gözəl dilləndirir.

Mahmud da ki, doğrudan da, qara zurnayla sənətinin üzünü yaxşıca ağ eləyirdi. Göyçədə, Borçalıda neçə-neçə toy yola salmışdı. Kəndlərin adını sayıb qurtara bilmrdi: Çuvuxlu, Saral, Qursalı, Söyüdlü, Soyuqbulaq, Qalağala, Qaraisəli, Cücəkənd... İndi ermənilərin yaşadığı o kəndləri yada salanda ürəyinin başı göynəyirdi. Yatırdı, yuxuda Uzun talanı, Kötüklünü, Kələşoğlunun talasını görürdü. İndi nə özü qalır, nə də o kəndlərdə onunla “qan eləyən” sənət yoldaşları – dəm tutan Omar, toy çalan İsabala...

Mahmud kişi qara zurnanın necə hazırlanıb ərsəyə gətirilməsindən, bu qədim musiqi alətində çalınan havacatlardan sevgi ilə söhbətlər açırdı. Deyirdi ki, qara zurnanınkı yalnız ərik ağacıdır. Əsas sümükləri oynadan zil zurna ərikdən düzəldilir. Yanındakı zurna pəsdən züy tutur. Cürə, bəm, karxana zurnalar da var. Bir zurnanın ömrü 40–50 il olur. Zurnada cəmi 9 oyuq var – 8-i öndə, 1-i arxada olur. Yuxarıdan 3-ü zil, aşağıda, ortada pəs, lap aşağıdakılar karxana adlanır. Karxanada züyçü tərəfindən bütün barmaqlar basılır. Gövdəsi boyu həlqələr salınıb, çalındıqca sulanıb şişir ki, dağılmasın. Yuxarı qurtaracağında beçə pərdə bənd edilib. Ondan sonra mil, milin başında qamış olur. Zurna oyma şəklində düzəlir. Onun rəngini kirəclə qaraldırlar. Ona görə də adına qara zurna deyilib.

Dədə-babadan zurnada 70 hava çalınıb. Amma artırmasıyla sayı-hesabı yoxdur. “Bağdagülü”, “Uzundərə”, “Yallı”, “Attandırma”, “Cıdırhəngi”, “Cüt bacı”, “Camış bağa girdi”, “Ərəb qızı”, “Ənzəli” və s. Mahnud kişi hamısını ustalıqla ifa edib.

Yaxşı yadımdadır, 1989-cu ilin bir payız günündə qara zurnanın səsi Qaradağ rayonundakı Sahil qəsəbəsini başına götürmüşdü. “Zorxana” havasının yelinə sanki Xəzərin dalğaları da qoç döyüşünə qalxmışdı. Kənd toylarının həsrətində olanlar qara zurnanın səsinə tərəf axışırdılar. Sahil qəsəbəsində sığınacaq tapmış Ağbaba qaçqınlarının ailə ocağında oğul-qız toyu idi. Həmin toyda Mahmud kişi sənət yoldaşları Omar Məhəmməd oğlu və İsabalı Musa oğlu ilə ilk dəfəydi ki, öz dədə-baba yurdlarından 100-lərlə kilometr uzaqda ağbabalı qaçqınların toyunu çalırdılar.

Qara zurna “ilan dili” çıxartmışdı, ilahi! Sanki köçkün, qaçqın ömrü yaşayan bu kişilərdən ötrü dünyanın əzəl-axırıydı. Elə bil, bu köçün necə bir ulu yurddan gəldiyinə, hansı yurda getdiyinə dağ ağırı babaların hayqırtısı idi. El ağrısının, yurd həsrətinin, ömür köçünün simfoniyası çalınırdı. Ev evə sığsa da, el elə sığmırdı.

Havacat dəyişdi. Yurd həsrətlilər, elə bil, bir əsrin dərdindən ayazıdılar. Yallıya gedənlərin üzündən ümid yağırdı. Əzəli və əbədi yurdlarına dönmək ümidi. Qara zurnanın səsinə toy mağarının başına dolananlar, sanki didərgin edildikləri öz yurd-yuvalarının başına dolanırdılar...

Səsindən asılım, ay qara zurna!.. Mahmud kişi də deyirdi ki, qara zurna gələn köçü də beləcə qaytarar, inşallah... Elin inancıyla, qan yaddaşının saxlancıyla müqəddəs ruhları da dədə-baba yurdlarımıza qaytarar. Mahmud kişinin 30 il bundan öncə dilə gətirdiyi arzular, çox çəkməz, gerçəkliyə çevrilər.

Ruhun şad olsun, Mahmud kişi!

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Türk ensiklopediyası Koreyada

**Koreya Dongduk Qadınlar Universitetinin professoru, Avrasiya Türkşünaslıq İnstitutunun direktoru Eunkyung Oh yeni layihəsini reallaşdırıb. Onun rəhbərliyi ilə 21 müəllifin koreya dilində hazırlanmış “Türk Humanitar Elmlər Ensiklopediyası” nəşr edilib.**

Kitabda türkologiyanın bütün sahələrinə aid əsas anlayışlar yer alıb. Ensiklopediya Koreya Milli Araşdırmalar Fondunun dəstəyi ilə universitetin Avrasiya Türkşünaslıq İnstitutu tərəfindən son 5 ildə (2018--2023) aparılan fundamental tədqiqatın yekunudur. Həm print, həm də elektron kitab (PDF) kimi yayılan ensklopediya 8 clddən ibarətdir. Ümumilikdə isə 4500 səhifədən ibarət böyük həcmli bu əsərin türk dünyasının Koreyada tanıdılmasında əhəmiyyətli rolu olacaq.

Ensiklopediyanın hazırlanmasında azərbaycanlı alimlərin də əməyi var. Bakı Dövlət Universitetinin professoru Vaqif Sultanlı, AMEA-nın Ədəbiyyat İnstitutunun professoru Bədirxan Əhmədov və Folklor İnstitutunun şöbə müdüri Əli Şamil, Koreyada təhsil alan azərbaycanlı tələbə Leyla Məsimli türk dünyasının önəmli bir hissəsi olan Azərbaycanla bağlı məlumatların toplanıb dəqiqləşdirilməsində və tərcüməsində yaxından iştirak etmişlər.

Layihənin rəhbəri Eunkyung Oh Koreya Dongduk Qadınlar Universitetinin professoru, Avrasiya Türkşünaslıq İnstitutunun direktoru, ingilisdilli Türkşünaslıq jurnalının baş redaktorudur. Türkiyənin Hacəttəpə Unversitetində fəlsəfə doktoru və Özbəkistanın Daşkənd Elmlər Akademiyasında elmlər doktoru elmi dərəcəsi və professor adı alıb. O, həm də YUNESCO-nun himayəsi altında Asiya–Sakit Okean regionunun qeyri-maddi mədəni irs mərkəzinin məsləhətçisidir.




Özbəkistan Turan Elmlər Akademiyasının üzvü, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvüdür.

BEYNƏLXALQ HƏYAT

# “X xəstəliyi” və “qaydasız” IV Dünya müharibəsi

## Qlobal elita Davosda nəyi müzakirə etdi?

**İsveçrənin Davos şəhərində keçirilən növbəti Ümumdünya İqtisadi Forumu başa çatıb. Bu nüfuzlu tədbirin yekunu ilə bağlı Vadim Bondar “regnum.ru” saytında dərc etdirdiyi məqalədə yazır ki, 120-dən çox ölkənin elitasının nümayəndələri toplantının yekunu olaraq bir faktı təsdiq etmək məcburiyyətində qaldılar: nəhəng dövlətlər, hətta ranqına görə aşağı dövlətlər belə yeni dünya qaydalarının müəyyən edilməsinə görə kəskin rəqabətə girişiblər. Bu rəqabət isə təkcə konsensus üçün deyil, ümumiyyətlə, hər hansı kollektiv qərar üçün yer qoymur.**




Davos forumunun builki şüarı “Etimadın bərpası” idi. Bu isə aşkarlıq, məmnunluq və məsuliyyət kimi baza prinsipləri ehtiva edirdi. Ancaq yaşadığımız dünya sürətlə dəyişməkdədir və artıq bu şüarın ehtiva etdiyi kimi deyil.

Dünya daha texnokratik və prinsipsiz olub. Nə üçün? Müəllif buna cavab olaraq yazır: “Birincisi, texnologiya sürətlə insanı onun mentallığı ilə ikinci plana keçirərək özü cəmiyyətin gələcək inkişaf hədəfinə və prioritetinə çevirilir. Maşınlar getdikcə daha yaxşı düşünür, həll edir və düzəldir, ancaq heç nə hiss etmir, düşünmür, mübahisə etmir. Bu da müasir dünyada rifah kimi qəbul edilir”.

İnsan təkrarolunmaz şəxsiyyət, hissiyyat, ağlın daşıyıcısı və sahibi kimi, həm də özünün inkişaf və kamillik səviyyəsinə görə, sadəcə texnoloji zəncirin köməkçi elementinə çevrilir. Nəticədə, belə cəmiyyət üçün qətiyyən vacib deyil ki, bu insanı nə həyəcanlandırır, ona ilham verən nədir, onu nə darıxdırır, o, nəyə inanır, nəyə inanmır və s.

Davos forumunda bərabərsizliyi aradan qaldırmaq üçün, hətta tarixin son dönəmində hazırkı kapitalizm modelinə hansısa mümkün potensial ictimai-siyasi və iqtisadi alternativlərlə bağlı mübahisələr belə olmadı.

İkincisi, planetdə de-fakto dördüncü dünya müharibəsi gedir. Məlum iki müharibə “isti”, qanlı müharibə olub, üçüncüsü “soyuq” və dördüncüsü proksi-müharibədir ki, bu da tamamilə yeni bir müharibədir. Onun qayda-qanunları düşünülməyib və normaları razılaşmayıb.

Bu razılaşdırımamış oyunlara cəmiyyətdə güclənən texnokratlıq öz təsirini göstərir ki, bu haqda əvvəldə söz açıldı. Nəticədə, biz getdikcə daha qeyri-insani bir dünya görürük və orada necə yaşayacağını hələ ki, heç kim bilmir. Ancaq Davos forumunun iştirakçıları zəmanəmizin ağır realizminin bu ağır materiyalarından danışmaq belə istəmədilər. Onlar üçün restoranlara yığışıb, həmişə olduğu kimi, xoş işlərdən, transparentlikdən (aşkarlıq-red), məmnunluqdan, məsuliyyətdən danışmaq daha rahatdır. İllyuminatora da baxmırlar ki, üzdükləri “Titanik”in ağır-ağır suya qərq olduğunu görə bilsinlər.

“The Global Risk Report”un forum ərəfəsində təqdim etdiyi hesabatın müəlliflərinin də daha dərin, ağrılı və fundamental problemlərdən yan keçməyə çalışdıqları aydın görünür. Onlar ciddi riskləri iqlim dəyişmələrində və 2024-cü ildə keçiriləcək çoxsaylı seçkilərin fonunda dezinformasiyaların yayılmasında görürlər. Məruzədə qeyd edilir ki, bütün dünyada seçki məntəqələrinə 3 milyarda yaxın insan gedəcək və dezinformasiyaların yayılması “yeni seçilmiş hökumətlərin legitimliyinə dağıdıcı təsir göstərə” bilər.

Ekspertlər hesab edirlər ki, bu dezinformasiyalar, “zorakı etirazlar və nifrətdən irəli gələn cinayətlərdən tutmuş vətəndaş qarşıdurması və terrorizmə qədər” ciddi hadisələrlə nəticələnə biləcək vətəndaş iğtişaşlarına səbəb ola bilər.

Hökumətlər buna demokratiyanı məhdudlaşdırmaq və boğmaqla, eləcə də nəyin doğru və nəyin yanlış olduğunu müəyyən etmək hüququnu mənimsəməklə cavab verəcəklər. Alternativ informasiya, rəy mənbələri, hətta ideyalar müxtəlif yollarla rədd ediləcək və sıxışdırılacaq. Üstəlik, belə ölkələrin dairəsi əhəmiyyətli dərəcədə genişlənəcək.

Məruzə müəlliflərinin rəyinə görə, iqtisadi böhran ehtimalları da qalır və böyükdür. Düşünürlər ki, keçmiş böhranlara gətirib çıxaran şərait fundamental yanaşmada heç də yoxa çıxmayıb. Ona görə də zəifləmiş maliyyə sistemlərinə yüngülvari bir sarsıntı lazım gələcək ki, dayanıqlığın kritik həddini dəf etsin.

Yanvarın 17-də Beynəlxalq Valyuta Fondunun (BVF) idarəedici direktorunun birinci müavini Gita Qopinat Davosda bu məsələ ilə bağlı daha müfəssəl danışdı. Onun şərhinə görə, bank sistemi, bütövlükdə, artan faiz dərəcələri və dünyada davam edən münaqişələr fonunda özünü kifayət qədər yaxşı saxlayır, lakin ABŞ və Çində bəzi banklar üçün risklər var.

Həmin banklar isə bu gün ən böyük bank sistemləridir və orada az-çox əhəmiyyətli bir “köpük” partlasa, dərhal domino effekti başlaya bilər ki, bu da maliyyə, borc və tikinti bazarlarını, ev təsərrüfatlarını və s. öz ardınca çəkib aparacaq.

Forumun iclaslarında “X xəstəliyi” pandemiyasının təhlükəsi də geniş müzakirə olunub. Düzdür, o, hələ ki, mövcud deyil, amma nədənsə onun ortaya çıxması reys avtobusun gəlişi kimi gözlənilir. Əlbəttə, bu mövzu sürpriz olmayıb və artıq bir neçə aydır ki, ciddi intensivliklə müzakirə olunur. İndi Davos vasitəsilə, bundan hələ xəbər tutmayan dünya elitalarının diqqətinə çatdırılır.

Formal olaraq bu məsələnin müzakirəsi, bəşəriyyət üçün ölümcül təhlükə yarandığı təqdirdə, milli səhiyyə sistemlərini operativ və əlaqələndirilmiş tədbirlərə hazırlamaq məqsədi ilə təşkil edilir. Əslində, bəzi analitiklərin iddia etdiklərinə görə, qlobalistlər hökumətləri gələcək epidemiya ilə hədələyib deyirlər ki, biz əvvəlcədən “səylərimizi birləşdirməliyik”, əks halda, hamımız ayrı-ayrılıqda məhv olarıq.

Bu, necə olur? COVID-19 pandemiyası bizə heç bir şey öyrətmədimi? Axı bu, yalnız baş verə biləcək hadisələrin məşqi idi və ayrı-ayrılıqda fərdi sistemlər artıq gələcək dünya şərinin öhdəsindən gəlməyəcəklər. Şimali Koreya buna misaldır: Bütün təcridolunma tədbirlərinə baxmayaraq, “Covid” oraya da yol tapdı. Qaçılmaz yeni pandemiyanın tərəfdarlarının fikrincə, “X xəstəliyi” daha sürətlə yayılacaq və daha dəhşətli olacaq.

Ümumiyyətlə, ehtimal var ki, Qərb qloballaşmanı yenidən gündəmə gətirmək məqsədi ilə sistemli şəkildə dünyanı yeni pandemiyaya hazırlamağa və antivirus araşdırmaları adı altında bu istiqamətdə artıq səylər göstərməyə başlayıb.

Sammit çərçivəsində, həmçinin süni intellektin artan təhlükəsindən də geniş danışıblar. Əslində, bu mövzu da yeni deyil və demək olar ki, bütün ötən il ərzində onun ətrafında müzakirələr olub. Hamı süni intellektin təhlükələri barədə xəbərdarlıq edir, lakin onu təkmilləşdirmək məqsədilə işlər sürətlə davam etsə də, hər şey məxvi saxlanılır. Bu da daha çox keçmişdəki nüvə layihəsini xatırladır.

XIX əsrin sonu və XX əsrin əvvəllərində fantastlar və futuroloqlar dəhşətli dağıdıcı gücə malik silahların meydana çıxması təhlükəsi haqqında çox fəal şəkildə əsərlər yazırdılar. Onun insanlara və ətraf mühitə mümkün təsirinin dəhşətli təsvirlərini verirdilər. Amma bunun heç kimə təsiri olmadı. Bütün aparıcı ölkələr gizli şəkildə öz nüvə layihələrini həyata keçirirdilər və gerçək olan və olmayan ən müxtəlif məlumatları yayaraq rəqiblərini qabaqlamağa çalışırdılar. Nəticədə, bomba ortaya çıxdı və istifadə edildi. Eyni şey, yəqin ki, süni intellektlə də baş verəcək.

Həm hesabatda qeyd olunan, həm də müəlliflərin fərqinə varmadığı və ya qəsdən yayınmağa çalışdıqları bütün bu ciddi risklər və çətinliklərdən çıxış yolu nədədir?

Təəssüf ki, müəlliflər və Davosa toplaşan elita bu məsələlərin həlli üçün heç bir uyğun resept təklif etmədilər. Yüz səhifədən çox hesabatın yekunu cəmi səkkiz səhifəyə sığır. Bu da özlüyündə nəyi göstərir? Bu gün qlobal elitaların başında durduqları sistemin dağılması prosesinin izahını verəcək cavabı yoxdur.

Bütün bunların əsas səbəbi dünyada etimadın olmamasıdır. Qarşılıqlı inam olmadığı üçün hətta maraqlar belə yaxınlaşmır. Yaxınlaşa da bilməz. Çünki Qərb sivilizasiyasının uğurlu kapitalizmi və ya Cosep Borrellin fikrincə, “yüksək hasarın arxasındakı bağ” Afrika, Latın Amerikası və Asiyanın bir hissəsinin qarət edilməsi yolu ilə qurulmuşdur.

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

**Avropa iqtisadiyyatı koronavirus pandemiyası və anti-Rusiya sanksiyalarından böyük ziyan çəkib. İndi isə yeni problemlərlə üzləşib. İqtisadi Məsələlər üzrə Avropa komissarı Paolo Gentiloni “Bloomberg” agentliyinə verdiyi müsahibəsində bildirib ki, husilərin Qırmızı dənizdəki fəaliyyəti tezliklə Avropa İttifaqı (Aİ) üçün ciddi problemə çevriləcək: “Yaxın həftələrdə Avropada enerji qiymətləri arta bilər ki, bu da digər malların qiymətlərinə təsir edəcək və inflyasiyanı sürətləndirəcək”.**

Onun sözlərinə görə, ticarət gəmilərinə hücumlardan sonra 40 futluq (1 fut –30,48 santimetr) konteynerlərdə malların daşınması tarifləri iki dəfə artıb. Xüsusilə, bugünə olan məlumata görə, Çin və Niderland arasında tranzit qiyməti keçən ilin dekabr ayı ilə müqayisədə 115 faiz çoxdur. Bu səbəbdən Çin yüklərinin təhlükəsiz və daha ucuz daşınması üçün alternativ nəqliyyat yollarına maraq göstərir. Belə yollar var: Şimal və Transxəzər dəhlizləri. Onlardan ən sərfəlisi Transxəzər dəhlizidir və hazırda fəaliyyət göstərir. 2027-ci ilə kimi bu dəhlizlə 10 milyon ton yükdaşımaları nəzərdə tutulur.

Şimal dəhlizinə əsas alternativ olan Transxəzər dəhlizi vasitəsilə Çindən Avropaya 7 min kilometr məsafə qət etməklə daşınmalar mümkündür. Şimal dəhlizi bu məsafə 10 min kilometrdir. Beynəlxalq Daşıyıcılar Assosiasiyasının rəhbəri Şerafettin Aras bildirib: “Transxəzər dəhlizi 2000-ci illərin əvvəllərində “yüklərin və sərnişinlərin Çindən Avropa ölkələrinə quru yolu ilə daşınması üçün Yeni İpək Yolu konsepsiyası çərçivəsində effektiv marşrut” kimi logistika gündəminə daxil olub. Türkiyədən Qafqaza, oradan Xəzər dənizi vasitəsilə Türkmənistan və Qazaxıstana qədər uzanan və Çinə çatan dəhliz ciddi potensialı ilə seçilir. Bu dəhliz Türkiyənin də logistika və investisiya potensialı ilə Avropa və Asiya arasında qlobal ticarət imkanlarının açılmasında aparıcı rol oynayır. Səmərəli marşrutdur”.

Transxəzər dəhlizi yalnız Çin üçün cəlbedici deyil. O, ilk növbədə, zaman və məsafənin azalması baxımından yük sahibləri üçün cəlbedicidir. Digər tərəfdən, Qırmızı dənizdə baş verən hadisələr səbəbindən Çinin dəhlizdə daşınmalarının həcmini artması labüddür. Artıq Çin bu marşrutla yük daşımalarını artırır. Onun həcminin artması isə hər bir iştirakçı ölkədə sənayenin müxtəlif istiqamətlərinin, xidmət sahələrinin və s. inkişafına təkan verəcək ki, bu da əlavə dəyər yaradaraq əlavə gəlir gətirəcək. Türkiyə ilə yanaşı, Azərbaycan da öz ərazilərindən daşınan yüklərə əlavə dəyər qatmaqla daha çox faydalana biləcək. Eyni zamanda, bütün region dövlətləri yeni fürsətlər qazanacaqlar. Məsələn, Qazaxıstan ötən 2023-cü ildə nəqliyyat dəhlizi vasitəsilə Azərbaycan üzərindən tranzit olaraq 2,5 ton yük daşıyıb. Bu da 2022-ci illə müqayisədə 107 faiz artım deməkdir. Dünya iqtisadiyyatında böyük rola malik olan Çinin həcmi artıq trilyon dollarla çatan ixrac potensialı var. Çin ixracatının 10 faizini Transxəzər vasitəsi ilə həyata keçirsə, tranzit ölkələr, o cümlədən Azərbaycan ildə 2,5– 3 milyard dollar tranzit gəlir əldə edə biləcək.

Bundan başqa, Qərbin Rusiya ilə münasibətlərindəki gərginlik və Aİ–ABŞ cürlüyünün Rusiya Federasiyası və İrana qarşı sanksiyalarının genişləndirilməsi də Transxəzər dəhlizinin əhəmiyyətini artırıb. Son illər Rusiya–Ukrayna münaqişəsi qlobal geosiyasət üçün ciddi nəticələr yaradıb. Rusiyanı məhsullarının Avropaya və ya Asiyaya tədarükündə nəqliyyat dəhlizi kimi görən ölkələr indi alternativ variantlar axtarırlar. Əlbəttə, bu, Çin, Mərkəzi Asiya və Cənubi Qafqaz dövlətlərinə də aiddir. Onlar nəqliyyat sahəsində vəziyyətin dəyişməsi fonunda Transxəzər layihəsini daha çox dəstəkləməyə başlayıblar.

Son iki ildə Rusiyaya qarşı sanksiyaların tətbiqindən sonra dəhliz, həqiqətən də inkişaf üçün əlavə stimul əldə edib, çünki bu, Çin və Aİ arasında malların Rusiya Federasiyası ərazisindən yan keçərək çatdırılmasına imkan verir.

Qeyd edək ki, 2024-cü il yanvarın 29–30 tarixlərində Brüsseldə keçiriləcək “Qlobal Gateway – Avropa və Mərkəzi Asiya arasında dayanıqlı nəqliyyat əlaqələri” adlı İnvestor Forumunun gündəminin əsasən məhz bu layihə çərçivəsində keçirilməsi təsadüfi sayıla bilməz. Layihənin əsas məqsədi Orta nəqliyyat dəhlizinin 15 gün və ya daha az müddətdə Avropanı Mərkəzi Asiya ilə birləşdirən müasir, rəqabətədavamlı və dayanıqlı dəhlizə çevrilməsidir.

# Transxəzər dəhlizində “yaşıl işıq” yanır




Tranxəzər dəhlizini əhəmiyyətli edən digər səbəb isə türk dövlətləri arasında əlaqələrin inkişaf etdirilməsidir. Dəhliz 1 trilyon ABŞ dollarından çox ümumi daxil məhsula (ÜDM) malik Türk dövlətlərini birləşdirən bir layihədir.

Onun bir hissəsi də Bakı–Tbilisi–Qars dəmir yolu xəttidir. Bu layihə yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxışını təmin etməklə yanaşı, region ölkələrinin tranzit potensialının artmasına, dünyaya inteqrasiya proseslərinin sürətlənməsinə, Avropa qonşuluq siyasəti çərçivəsində əməkdaşlığın daha da inkişafına, habelə ölkəmizin xarici iqtisadi əlaqələrinin genişlənməsinə xidmət edir.

Beləliklə, Transxəzər dəhlizi müəyyən dərəcədə transkontinental ticarət üçün iqtisadi və geosiyasi dayanıqlılığı təmin edir. Etibarlı marşrut kimi Mərkəzi Asiya və Cənubi Qafqazın ticarət və inkişaf potensialının açılmasına töhfə verir, limanlara çıxış yolu ilə bu regionların Çinə, Avropaya və dünyaya inteqrasiyasına imkan yaradır.

***P.ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

## QƏRAR
## № 3-27/3-7-12/2023

**Bakı şəhəri 4 oktyabr 2023-cü il**

“Azərbaycan Respublikasında filialı və ya nümayəndəliyi olmayan xarici kosmik operatorun (onun səlahiyyətləndirdiyi xarici hüquqi şəxsin) istismar etdiyi xarici kosmik obyektdən Azərbaycan Respublikasında birbaşa yer stansiyası vasitəsilə qəbulu milli kosmik operator tərəfindən həyata keçirilən ilkin informasiyaların göstəriciləri”nin təsdiq edilməsi haqqında

“Kosmik fəaliyyət haqqında” Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 927-VIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 4 avqust tarixli 2291 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

### QƏRARA ALIR:

**1.** “Azərbaycan Respublikasında filialı və ya nümayəndəliyi olmayan xarici kosmik operatorun (onun səlahiyyətləndirdiyi xarici hüquqi şəxsin) istismar etdiyi xarici kosmik obyektdən Azərbaycan Respublikasında birbaşa yer stansiyası vasitəsilə qəbulu milli kosmik operator tərəfindən həyata keçirilən ilkin informasiyaların göstəriciləri” təsdiq edilsin (əlavə olunur).

**2.** Hüquq şöbəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**Kollegiyanın sədri, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

**Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 4 oktyabr tarixli 3-27/3-7-12/2023 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

Azərbaycan Respublikasında filialı və ya nümayəndəliyi olmayan xarici kosmik operatorun (onun səlahiyyətləndirdiyi xarici hüquqi şəxsin) istismar etdiyi xarici kosmik obyektdən Azərbaycan Respublikasında birbaşa yer stansiyası vasitəsilə qəbulu milli kosmik operator tərəfindən həyata keçirilən ilkin informasiyaların göstəriciləri

**1.** “Azərbaycan Respublikasında filialı və ya nümayəndəliyi olmayan xarici kosmik operatorun (onun səlahiyyətləndirdiyi xarici hüquqi şəxsin) istismar etdiyi xarici kosmik obyektdən Azərbaycan Respublikasında birbaşa yer stansiyası vasitəsilə qəbulu milli kosmik operator tərəfindən həyata keçirilən ilkin informasiyaların göstəriciləri” “Kosmik fəaliyyət haqqında” Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 927-VIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 4 avqust tarixli 2291 nömrəli Fərmanının 3.1-ci bəndinə əsasən hazırlanmışdır.

**2.** Azərbaycan Respublikasında filialı və ya nümayəndəliyi olmayan xarici kosmik operatorun (onun səlahiyyətləndirdiyi xarici hüquqi şəxsin) istismar etdiyi xarici kosmik obyektdən Azərbaycan Respublikasında birbaşa yer stansiyası vasitəsilə aşağıda göstərilən ayırdetmə göstəriciləri ilə mülki təyinatlı ilkin informasiyaların qəbulu milli kosmik operator (“Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)” qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi) tərəfindən həyata keçirilir:

2.1. sintez olunmuş aperturalı (SAR) radar müşahidə cihazı olan kosmik obyektdən 0,5 metr və daha yüksək ayırdetməli ilkin informasiya;

2.2. digər növ radar müşahidə cihazı olan kosmik obyektdən 0,5 metr və daha yüksək ayırdetməli ilkin informasiya;

2.3. optik müşahidə cihazı olan kosmik obyektdən multispektral (MS) 2,0 metr və daha yüksək ayırdetməli ilkin informasiya;

2.4. optik müşahidə cihazı olan kosmik obyektdən panxromatik (PAN) spektrdə 0,5 metr və daha yüksək ayırdetməli ilkin informasiya;

2.5. müşahidə cihazı olan kosmik obyektdən spektrin digər növlərində 0,5 metr və daha yüksək ayırdetməli ilkin informasiya.

## “Naftalan-Avtonəqliyyat ASC” səhmdarlarının nəzərinə!

11 mart 2024-cü il saat 11.00-da “Naftalan-Avtonəqliyyat” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** “Naftalan-Avtonəqliyyat” ASC-nin 2023-cü il üçün illik hesabatının və maliyyə balansının təsdiqi.
**2.** “Naftalan-Avtonəqliyyat “ASC-nin idarə heyətinin üzvlərinin və sədrinin seçilməsi.
**3.** “Naftalan-Avtonəqliyyat” ASC-nin idarə heyətinin əmrlərinin müzakirəsi və təsdiqi.
**4.** Digər məsələlər.

Ünvan – Naftalan şəhəri, İ.Nəsimi küçəsi 10.

***İdarə heyəti***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun tabeliyindəki idarələrə tələb olunan müxtəlif təyinatlı xortumların satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 31-i saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1263.

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

## Müştərilərin nəzərinə!

Dövlət Sığorta Kommersiya Şirkətinin (Azərsığorta) baş ofisi yeni məkana köçürülmüşdür.

Şirkət müştərilərinə bundan sonra yeni ünvanda (Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi, 31) xidmət göstərəcəkdir. Əlaqə: *1200.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 15 (30419) 25 yanvar 2024-cü il, cümə axşamı

## Premyer Liqada antirekord

**Futbol üzrə Azərbaycan Premyer Liqasının XIX turunda qapılara cəmi 8 qol vurulub.**



Hazırkı çempionatda bunadək ən aşağı göstərici 9 top olub. Belə ki, komandalar II, IX, XIV və XVIII turlarda bu qədər qol vurublar.

Qeyd edək ki, XIX turda "Sabah" – "Neftçi", "Səbail" – "Zirə" matçlarında qol vurulmayıb. "Kəpəz" "Turan Tovuz"u 2:1, "Sumqayıt" "Qəbələ"ni 1:0, "Qarabağ" isə "Araz-Naxçıvan"ı 3:1 hesabı ilə məğlub edib.

## Atıcılarımız dünya kuboku yarışında




**Atletlərimiz Nigar Nəsirova və Ruslan Lunyov Misirin paytaxtı Qahirə şəhərində atıcılıq üzrə dünya kuboku yarışında iştirak edirlər.**

Ruslan Lunyov kişilər arasında 10 metr məsafədən pnevmatik tapança, 25 metr məsafədən tapança ilə sürətli atəş açma yarışında təmsil olunur. Nigar Nəsirova qadınlar arasında 10 metr məsafədən pnevmatik tapança, 25 metr məsafədən isə standart tapança ilə atəş yarışlarında mübarizə aparır. Təmsilçilərimiz 10 metr məsafə üzrə pnevmatik tapança ilə qarışıq komanda yarışlarında da güclərini sınayacaqlar. Dünya kubokuna fevralın 1-də yekun vurulacaq.

## Futbolçular üçün antidopinq seminarı



**"Araz–Naxçıvan" PFK Akademiyasının U-17 və U-19 komandaları üçün antidopinq maarifləndirmə seminarı təşkil edilib.**

Seminarda dopinq nəzarəti ilə bağlı əsas mövzular əhatə olunub. Nümunələrin toplanmasından laboratoriya təhlilinədək dopinq nəzarəti prosesinin bütün aspektləri idmançıların diqqətinə çatdırılıb. Həmçinin idmançılara 11 antidopinq qayda pozuntusu haqqında da ətraflı məlumat verilib.

Bundan əlavə, idmançıların hüquq və öhdəlikləri ilə bağlı önəmli məlumatlar paylaşılıb, dürüst idman mühitini qorumaq üçün məsuliyyət və öhdəlikləri vurğulanıb.

***Leyla SABİRQIZI***
***XQ***


## OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Quşlar da yurda dönüb...

**Hər şeydən Vətən yaxşı. Bu adi bayatı misrası yox, isti qoynundan uzaqlaşan kimi bütün varlığınla hiss edə, duya biləcəyin bir yaşantıdır.**



Əbəs yerə ana Vətən demirik ki?

Əbəs yerə bizə doğma olan ünvanı ata ocağı, ata yurdu adlandırmırıq ki?

Vətən bizim üçün ana qucağı, ata ocağı kimi əzizdir, müqəddəsdir, əvəzolunmazdır.

Amma görünür ki, təkcə bizim üçün yox...

Bəs işğaldan azad olunandan sonra quşların ağaclarda cüt-cüt, iki-iki, üç-üç yuva qurmağına nə deyəsən?

Haqq savaşında qazanılan möhtəşəm qələbədən sonra hansı bölgəyə üz tutsan, oradakı ağacların budaqlarında quşların yuvaları ilə üzləşmək mümkündür. Deməli, təkcə sakinlər deyil, quşlar da öz isti yuvalarına dönmək həsrətində imişlər.

Necə deyərlər, hər kəsə öz Vətəni, hər quşa öz yuvası...

***Süleyman QARADAĞLI***

**DAHİLƏRİN HƏYATI**

# Nils Borun kranından pivə axırmış...

## II yazı



**Dahi Danimarka fiziki Nils Bor barədə I yazıda qeyd etmişdik ki, bu qeyri-adi zəka sahibi 1922-ci ildə fizika üzrə Nobel mükafatına layiq görülmüşdür. Maraqlıdır ki, alimin oğlu professor Oqe Bor 53 ildən sonra, 1975-ci ildə fizika üzrə Nobel mükafatçısı olmuşdur. Nəvə Tomas Bor da fizika üzrə professordur, lakin hələlik Nobel mükafatı ala bilməmişdir.**

Yeri gəlmişkən, Nils Borun atası Kristian Bor fiziologiya və tibb sahələrində Nobel mükafatına iki dəfə namizəd olub. N.Borun anası Elen Adler (1860-1930) yəhudi ailəsindən çıxıb və müasirlərinin yazdığına görə, oğlunun Nobel mükafatı aldığı xəbərini eşidəndə, təbii ki, çox sevinib.

Danimarkalı dahi fizik yüksək yumor hissinə malik insan idi və çox sayda dostları vardı.

Alim qonaqpərvərliyi və səmimiyyəti ilə seçilirdi. Tələbələrini və həmkarlarını tez-tez öz bağında qonaq edərmiş. Bir dəfə N.Borun evinə qonaq gələn cavan fiziklərdən biri evin giriş qapısının üstündə mismarlanmış at nalı görür. O, üzünü müəllliminə tutaraq deyib:

– Siz böyük elm adamı, professorsunuz, bu cəfəng şeylərə niyə inanırsınız?

**Bor gülümsəyərək belə cavab verib:**

– Əlbəttə, inanmıram, lakin deyirlər ki, nal hətta ona inanmayanlara da uğur gətirir!

Bir dəfə isə böyük fiziklər üçün təşkil edilən ziyafətdən sonra alim vəzifələri bölüşdürən zaman qabları yumağı öz öhdəsinə götürür və adəti üzrə burada da orijinal dəlil tapır:

– Bizim qab yumaq işimiz bir növ dilin funksiyalarına bənzəyir. Belə ki, yuma zamanı suyun da, qab dəsmallarının da kirli olmasına baxmayaraq, biz, nəticə etibarilə, boşqabların təmizliyinə nail oluruq.

**Həmkarlarının onu diqqətlə izlədiyindən məmnun qalan təvazökar alim sözünü belə davam etdirir:**

– Dildə də, həmçinin aydınlaşdırılmamış anlayışlar və tətbiq sahəsinin sərhədlərini bilmədiyimiz məntiqin olduğuna baxmayaraq, biz onun vasitəsilə təbiəti dərk etməyə nail oluruq.

Bu, necə deyərlər, "Daşdan keçən" arqumentdən sonra dostları "nobelçi" fizikin ziyafətdəki qabları yumasına etiraz etməyiblər.

Danimarkalı dahinin həyatında çətin, təhlükəli anlar da az olmayıb.

Belə ki, N.Bor İkinci Dünya müharibəsi vaxtı işğal olunmuş Danimarkadan ABŞ-a gizlin mühacirət etmək qərarına gələndə, özü ilə Nobel mükafatının medalını götürməyə risk etmir. O, qızıl medalı çar suyunda (xlorid və nitrat turşuları qatışığı) əridib, xüsusi qabda şkafın görünən bir yerinə qoymuşdu. Müharibədən sonra ölkəsinə qayıdan Bor qızılı məhluldan çıxararaq, özünə yeni qızıl medal sifariş etmişdir.

Bir maraqlı cəhəti də qeyd etmək yerinə düşər. N.Bor pivə içməyi çox sevirmiş. Bunu eşidən qonşuluqdakı pivə zavodunun sahibi alimin evinə boru çəkdirir. Beləliklə, N.Bor istədiyi an kranı açaraq evində ən dadlı pivə içirdi və belə imtiyaz sahibi olduğu barədə hər yerdə söz açardı. O zaman yerli qəzetlər yazmışdılar ki, N.Bor evinə 24 saat fasiləsiz birinci növ pivə axan ilk planet sakinidir.

Görkəmli alim 77 yaşında 1962-ci il noyabrın 18-də Kopenhagendə öz evində ürəktutmasından vəfat edib. D.Mendeleyevin dövri cədvəlində 105-ci element onun şərəfinə nilsborium (Ns) adlandırılıb. Müasirləri Nils Boru XX əsrdə A.Eynşteyndən sonra fizika sahəsində ikinci böyük alim hesab edirdilər.

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

# Neptun – ən uzaq, mavi planet

**Neptun Günəşdən ən uzaq planetdir. Yerdən onu adi gözlə müşahidə etmək mümkün deyil. Bu uzaq mavi planetin zəif halqaları, çoxsaylı peykləri var və bərk səthi yoxdur. O, Yerdən daha sürətli fırlanır. Bir Neptun günü orta hesabla Yerin 16 saatına bərabərdir. Ekvatorda bu göstərici 18 saat, qütblərdə isə 12 saatdır. Neptun həm də Günəş sistemindəki iki buzlu planetdən (Uran) biridir. Temperaturu isə –214 C dərəcədir. Bu qaz nəhənginin kütləsi planetimizin 17 qatına bərabərdir.**

Bu planet haqqında çox az şey məlumdur, çünki onun ərazisinə eniş etmək çox çətindir. Neptunu ziyarət edən yeganə kosmik gəmi "Voyager 2" olub. Onun planetə uçuşu 12 il çəkib. Qeyd edək ki, NASA-nın "New Horizons" kosmik gəmisi 8 illik səyahətdən sonra Plutona uçarkən Neptunun orbitini keçib.

Neptunun səthində güclü küləklər olur. Küləyin sürəti saatda təxminən 2100 kilometrə çatır. Neptun Günəşdən çox uzaqda olduğu üçün ən soyuq planetdir.

Bundan başqa, bu planet Günəşdən ən uzaqda olduğu üçün ən uzun orbital dövrə malikdir. Onun bir ili 164,8 Yer ili qədərdir. Planet 1846-cı ildə kəşf edilib.

***P.ƏFƏNDİ***
***XQ***




# Ordubad və Şahbuza daha çox qar yağıb



**Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, ən çox qar düşən ərazilər Ordubad və Şahbuz rayonlarında müşahidə olunub.**

"Ağ örtüy"ün hündürlüyü Nürgüt kəndində (Ordubad) 49, Parağaçay kəndində (Ordubad) 37, Kükü kəndində (Şahbuz) 58, Biçənək kəndində (Şahbuz) 29, Ərəfsə kəndində (Culfa) isə 17 santimetrdir. Ayrı-ayrı yerlərdə yağıntı intensiv olub.

**XQ**

**Hava**

# Gün yağmursuz, lakin dumanlı olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata görə, yanvarın 25-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi şəhərətrafi ərazilərdə qısamüddətli yağıntılı olacağı ehtimalı var.**

Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 0-2° şaxta, gündüz 2-5° isti olacaq. Atmosfer təzyiqi 771 mm civə sütunundan 763 mm civə sütununa enəcək, nisbi rütubət 75-65 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 2-7° şaxta, gündüz 0-5° isti, dağlarda gecə 12-17°, gündüz 2-7° şaxta olacaq. Gecə və səhər bəzi yolların buz bağlama ehtimalı var.

***Q. QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3269
SİFARİŞ 150
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00